# Azərbaycan daha bir seçki nümunəsi göstərdi


Xalq qəzeti

Xalqın qəzeti!

№ 20 (30714) 30 yanvar 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


**Liderlərin qətiyyət marşrutu: Bakı–Tbilisi–Qars**



Səhifə ⇨ 4

## Bələdiyyələr demokratik cəmiyyətin yerli özünüidarəetmə təsisatıdır

### Prezident İlham Əliyev 1 saylı seçki məntəqəsində səs verib



**Yanvarın 29-da Azərbaycanda növbəti bələdiyyə seçkiləri keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində səs verib.

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.

Qeyd edək ki, Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 1 saylı seçki məntəqəsində 576 seçici qeydiyyata alınıb. Bu seçki dairəsi üzrə 31 namizəd mübarizə aparır.

## Azərbaycan–Çin tərəfdaşlığı hərtərəfli inkişaf yolundadır

### Çin Xalq Respublikasının Sədri Zati-aliləri cənab Si Cinpinə



**Hörmətli cənab Sədr!**

Qarşıdan gələn Bahar bayramı münasibətilə Sizə və Sizin simanızda dost Çin xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Çin təqvimi ilə yeni ilin qədəm basmasını qeyd edən, təbiətin oyanışının və həyatın yenidən canlanmasının rəmzi olan Çuntsze bayramının bütün xalqınıza xoş əhvali-ruhiyyə, bol ruzi-bərəkət və rifah bəxş etməsini arzulayıram.

Azərbaycan–Çin dövlətlərarası əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi məmnunluq doğurur. Biz Çin ilə sağlam təməllər üzərində qurulmuş, qarşılıqlı inam və etimada əsaslanan əməkdaşlığımızın hərtərəfli inkişafına böyük önəm veririk. Əminəm ki, dostluq münasibətlərimizin və qarşılıqlı fəaliyyətimizin xalqlarımızın iradəsinə uyğun olaraq daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bu bayram münasibətilə bir daha Sizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

## Zəngəzur dəhlizi – ilahi ədalət, böyük haqq

*Prezident İlham Əliyev ölkəmizin prinsipial mövqeyini bir daha açıqladı*

**Prezident İlham Əliyev 44 günlük müharibənin yekunlarını müəyyənləşdirən 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatı imzaladıqdan sonra Azərbaycan xalqına müraciətində bildirmişdi ki, ölkəmizin savaşdan qazandığı ən böyük nailiyyətlərdən biri Naxçıvana yoldur:**



"Digər önəmli məsələ, xüsusilə qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Həm bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda, burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı. Çünki birbaşa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi yoxdur. Ancaq mənim təkidli tələblərim şadam ki, qəbul olundu. Beləliklə Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Çünki mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi, - çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü, - faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda, Ermənistan ərazisindən oraya hücumlar da edilirdi. Dəfələrlə demişəm, məhz ulu öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi".

(ardı 3-cü səhifədə)

## Xalq bələdiyyələrdən daha yüksək fəallıq gözləyir



Səhifə ⇨ 6

## ABŞ və Aİ Rusiyaya təzyiqi artırır



Səhifə ⇨ 11

## Azərbaycan müasir nəqliyyat–kommunikasiya ölkəsinə çevrilir



Səhifə ⇨ 8

# “III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli 198 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli 198 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 847) 1-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsinin tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Təşkilat Komitəsinin sədri**

Samir Şərifov – Azərbaycan Respublikası Baş nazirinin müavini

**Təşkilat Komitəsi sədrinin müavini**

Azərbaycan Respublikasının gənclər və idman naziri

**Təşkilat Komitəsinin üzvləri:**

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini
Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini
Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini
Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktorunun müavini
Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyəti sədrinin müavini
Heydər Əliyev Beynəlxalq Aeroportu direktorunun müavini
“Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini
“Azərişıq” Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Azəriqaz” İstehsalat Birliyi baş direktorunun müavini
“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin vitse-prezidenti
Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti
“CBC Sport” televiziya kanalının baş direktoru
Oğuz Rayon İcra Hakimiyyətinin başçısı
Bərdə Rayon İcra Hakimiyyəti başçısının müavini
Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini
Goranboy Rayon İcra Hakimiyyəti başçısının müavini
Göygöl Rayon İcra Hakimiyyəti başçısının müavini
İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının müavini
Qazax Rayon İcra Hakimiyyəti başçısının müavini
Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini
Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısının müavini
Naftalan Şəhər İcra Hakimiyyəti başçısının müavini
Şəki Şəhər İcra Hakimiyyəti başçısının müavini
Şəmkir Rayon İcra Hakimiyyəti başçısının müavini
Tərtər Rayon İcra Hakimiyyəti başçısının müavini
Tovuz Rayon İcra Hakimiyyəti başçısının müavini
Yevlax Şəhər İcra Hakimiyyəti başçısının müavini.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 yanvar 2025-ci il**

# Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev 34 saylı seçki məntəqəsində səs verib

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev yanvarın 29-da 16 saylı Yasamal ikinci seçki dairəsinin 34 saylı seçki məntəqəsində səs verib.**




Bu seçki məntəqəsində də seçicilər öz hüquqlarından fəal şəkildə istifadə edirdilər.

Qeyd edək ki, bələdiyyə seçkilərində 16 min 92 namizəd mübarizə aparır. Seçkilər zamanı respublika üzrə 685 bələdiyyəyə 8071 üzv seçiləcək.

Səsvermə 118 seçki dairəsi üzrə 5846 seçki məntəqəsində keçirilir.

***AZƏRTAC***

# Əli Əsədov bələdiyyə seçkilərində səs verib

**Yanvarın 29-da bələdiyyə seçkilərinin başlandığı səhər saatlarından 7 saylı Səbail rayon seçki dairəsinin 2 saylı seçki məntəqəsində də fəallıq var idi.**



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov bu seçki məntəqəsinə gələrək səs verib. Məntəqədə 1332 seçici qeydiyyata alınıb.

Qeyd edək ki, 685 bələdiyyəyə 8 min 71 üzv seçmək üçün Azərbaycan seçiciləri öz hüquqlarından istifadə edirlər. Bələdiyyə seçkilərində qeydə alınan namizədlərin sayı 16 min 238 nəfərdir. Seçki bülletenlərinə 16 min 92 nəfərin adı daxil edilib.

Hazırda Azərbaycanda bələdiyyə seçkilərində səsvermə hüququ olan 5 milyon 961 min 987 seçici var. Bələdiyyə seçkilərində müşahidəçi qismində iştirak etmək üçün ümumilikdə 70 min 625 yerli müşahidəçi akkreditasiyadan keçib.

***XQ***

# H.Hacıyev Ermənistan baş nazirinin iddialarını düzgün hesab etmir

**“Səfirlərin Xarici İşlər Nazirliyinə dəvət olunması, müxtəlif görüşlərin keçirilməsi, mövqelərin mübadiləsi normal diplomatik praktikadır”.**



Bu sözləri Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Rusiyadakı səfirimiz Rəhman Mustafayevin bu ölkənin Xarici İşlər Nazirliyinə dəvət edilməsinə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, eyni zamanda Rusiya Federasiyasının səfiri Mixail Yevdokimov da Azərbaycan Xarici İşlər Nazirliyinə dəvət olunub və rəsmi Bakının müxtəlif məsələlər üzrə, həmçinin əsas müzakirə mövzusu olan məsələ (təyyarə qəzası - red.) barədə mövqeyi çatdırılıb.

Prezidentin köməkçisi Ermənistanın Baş naziri Nikol Paşinyanın hərbi cinayətlərdə təqsirləndirilən erməniəsilli şəxslərə qarşı psixotrop maddələrin tətbiq olunması ilə bağlı səsləndirdiyi iddiaları düzgün hesab etmir.

O bildirib ki, Azərbaycan Respublikasında Ermənistanın Azərbaycana qarşı təcavüzünün tərkib hissəsi olaraq bu prosesdə iştirak etməkdə təqsirli bilinən şəxslərlə əlaqədar məhkəmə prosesi davam edir: “Məhkəmə tam obyektiv, ədalətli şəkildə həyata keçirilir. Məhkəmənin işinə bu formada müdaxilə edilməsi cəhdlərini biz düzgün hesab etmirik. Təqsirləndirilən şəxslərin bütün hüquqları tam şəkildə təmin olunub. Onlar tərəfindən verilən ifadələrin ölkəmizin kütləvi informasiya vasitələrində işıqlandırılması təmin edilir. Ona görə də Ermənistan rəhbərliyinin bu açıqlamalarını düzgün hesab etmirik.

Ümumiyyətlə, məhkəmə prosesi sübut edir ki, burada ən vacib məsələlərdən biri Ermənistanın dövlət məsuliyyətidir. Bu prosesdə təqsirləndirilən şəxslərin özlərinin də ifadələri əsasında o fikrə gəlmək olur ki, tapşırıqlar bilavasitə Ermənistan Respublikası tərəfindən verilib.

Ermənistan təcavüzkar və işğalçı dövlət olub və bu dövlətin verdiyi əmrlər də yerində müxtəlif şəxslər tərəfindən icra edilib. Amma yenə də məhkəmənin yekun nəticələri haqqında bir söz demək düzgün olmazdı. Məhkəmə prosesi çərçivəsində bütün təqsirləndirilən şəxslərin məsuliyyəti tam şəkildə təmin olunacaq. Burada ən vacib məsələ ədalətin təmin olunmasıdır. Bu ədaləti Azərbaycan xalqı gözləyir”, - deyə H.Hacıyev əlavə edib.

***XQ***

# Sahibə Qafarova seçki məntəqəsində



**Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova yanvarın 29-da 19 saylı Nərimanov Birinci Seçki Dairəsinin 11 saylı seçki məntəqəsində səs verib.**

Məntəqədə səsvermənin gedişini yerli müşahidəçilər izləyirlər. Səhər saatlarından etibarən 11 saylı seçki məntəqəsində də seçicilərin fəallığı müşahidə olunur. Məntəqədə 1482 seçici qeydiyyatdadır.

Qeyd edək ki, yanvarın 29-da səhər saat 8:00-da Azərbaycan Respublikasında bələdiyyə seçkiləri ilə əlaqədar səsvermə başlayıb. Səsvermə 118 seçki dairəsi üzrə 5846 məntəqədə keçirilir. Seçkilərdə 16 min 92 namizəd mübarizə aparır. Seçkilər zamanı respublika üzrə 685 bələdiyyəyə 8071 üzv seçiləcək. Səsvermə saat 19:00-da başa çatacaq.

***XQ***

# Azərbaycan–Türkiyə–Özbəkistan nazirlərinin görüşü

**Yanvarın 29-da xarici işlər naziri Ceyhun Bayramov Ankaraya işgüzar səfəri çərçivəsində Azərbaycan–Türkiyə–Özbəkistan xarici işlər, iqtisadiyyat, ticarət və nəqliyyat nazirlərinin 2-ci üçtərəfli görüşündə iştirak və çıxış edib.**




Görüşdə, həmçinin iqtisadiyyat naziri Mikayıl Cabbarov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev də iştirak ediblər. Nazirlər gündəlikdə duran mövzular, o cümlədən xarici siyasət və regional əməkdaşlıq məsələləri, ticarət, iqtisadiyyat və investisiya sahəsində əməkdaşlığın artırılması, regional nəqliyyat şəbəkələrini inkişaf etdirməklə nəqliyyat və kommunikasiya sektorunda əməkdaşlığın gücləndirilməsi mövzuları üzrə çıxışlar səsləndiriblər.

Ceyhun Bayramov çıxışında ölkələrimiz arasında mövcud üçtərəfli formatın qorunub saxlanılması və inkişaf etdirilməsinin hazırkı parçalanmaqda olan beynəlxalq münasibətlər sistemində nümunəvi xarakter daşıması ilə yanaşı, o cümlədən digər regional əməkdaşlıq formatlarını tamamlamaq, əməkdaşlıq potensialından istifadəni maksimallaşdırmaq, ortaq təhdidlərə qarşı birgə cavab tədbirlərinin görülməsi baxımından əhəmiyyətini qeyd edib.

Ölkələrimizin yerləşdikləri Xəzər, Qara və Aralıq dənizləri regionlarını birləşdirən bir sıra strateji əhəmiyyətli layihələrin, o cümlədən “Rəqəmsal İpək Yolu” və “yaşıl enerji ixracı” kimi təşəbbüslərin üçtərəfli əməkdaşlığımızın əhəmiyyətini artırdığı qeyd olunub.

Azərbaycan-Türkiyə-Özbəkistan arasında bir sıra regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın, qarşılıqlı dəstək və ortaq mövqedən çıxış edilməsi təcrübəsinin davam etdirilməsinin zəruriliyi diqqətə çatdırılıb.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyimiz zamanı fəaliyyətimizə, habelə irəli sürülən regional və qlobal təşəbbüslərə verilən dəstəyə görə təşəkkür edilib

Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) sədrliyimizin də gündəliyinə uyğun olan bağlantılar, rəqəmsallaşma, dayanıqlı inkişaf, nəqliyyat, təhsil sahələri üzrə prioritetlərin irəlilədilməsinin, o cümlədən üçtərəfli əməkdaşlıq gündəliyimiz ilə üst-üstə düşdüyü qeyd olunub.

Geniş anlamda regional sülh, təhlükəsizlik və inkişafın təmininin ortaq baxışımızın əsasını təşkil etdiyi, bu istiqamətdə Əfqanıstana yönələn sosial-iqtisadi dəstək təşəbbüslərinin, Trans-Əfqanıstan Dəmir Yol Xətti layihəsinin inkişafının diqqət mərkəzində olduğu qeyd edilib. Yaxın Şərqdə, xüsusilə Qəzza bölgəsində əldə olunan atəşkəsin və ona riayət olunmasının əhəmiyyəti, İsrail-Fələstin münaqişəsinin beynəlxalq hüququn normalarına uyğun şəkildə “iki dövlət prinsipi” əsasında həllini tapmasının vacibliyi diqqətə çatdırılıb. O cümlədən Suriyada Əsəd rejiminin çöküşündən sonra bu ölkənin dirçəldilməsi səylərinə qardaş Türkiyə ilə birgə dəstək verilməsinin regional əməkdaşlığımızın daha bir komponentinə çevrildiyi qeyd olunub.

Sonra görüşün yekunlarına dair Ankara Bəyannaməsi qəbul olunub və imzalanıb.

Bəyannamədə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərlə bağlı əməkdaşlığın inkişaf etdirilməsi, habelə suverenlik və ərazi bütövlüyü əleyhinə atılan addımlara qarşı birgə fəaliyyətə dəstək ifadə olunub.

İqtisadiyyat, ticarət, investisiyalar, logistika, infrastruktur, rəqəmsallaşma, ətraf mühit və iqlim dəyişikliyi ilə mübarizə istiqamətləri üzrə mövcud potensialdan tam istifadə olunması, bu istiqamətdə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın, xüsusilə Orta Dəhlizin səmərəliliyi və rəqabətə davamlılığının artırılmasının vacibliyi qeyd olunub.

Bəyannamədə Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi bölgələrində yenidənqurma və humanitar minatəmizləmə fəaliyyətinə töhfə verilməsinin əhəmiyyəti vurğulanıb, eyni zamanda, Azərbaycanın COP29 və AQEM sədrlikləri çərçivəsində oynadığı rolu təqdir edilib.

Mərkəzi Asiyanın təhlükəsizliyində vacib rol oynayan Əfqanıstanın təhlükəsizliyi və inkişafı ilə bağlı Türk Dövlətləri Təşkilatı çərçivəsində ortaq mövqenin formalaşdırılmasının, Qəzza bölgəsində əldə olunmuş atəşkəsin qorunub saxlanılmasının və İsrail-Fələstin münaqişəsinin “iki dövlət prinsipi” əsasında həllini tapmasının vacibliyi qeyd olunub.

Sonda nazirlər görüşün yekunlarına dair mətbuata bəyanatlarla çıxış ediblər.

***XQ***

# Ceyhun Bayramov özbək həmkarı ilə müzakirə aparıb

**Yanvarın 29-da xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan-Türkiyə-Özbəkistan xarici işlər, iqtisadiyyat/ticarət və nəqliyyat nazirlərinin 2-ci üçtərəfli görüşü çərçivəsində Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov ilə görüşüb.**



Görüş zamanı Azərbaycan–Özbəkistan müttəfiqliyindən irəli gələn məsələlər, ikitərəfli, həmçinin çoxtərəfli əməkdaşlığın genişləndirilməsi imkanları, habelə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Ötən ilin iki ölkə arasında müttəfiqlik münasibətlərini təsbit edən müqavilənin imzalanması ilə əlamətdar olduğu, diplomatik münasibətlərimizin 30 illiyini qeyd etdiyimiz cari 2025-ci ilin isə müttəfiqliyimizin siyasi, iqtisadi, ticarət, enerji, nəqliyyat-kommunikasiyalar, mədəni-humanitar aspektlərinin daha da zənginləşdirilməsi ilə yadda qalacağına dair ümidvarlıq ifadə olunub.

Azərbaycan ilə Özbəkistan arasında qardaşlıq və dostluğa əsaslanan müttəfiqliyin inkişafında iki ölkənin liderləri arasında mövcud yüksəksəviyyəli dialoqun, Azərbaycan–Özbəkistan Ali Dövlətlərarası Şurasının, Hökumətlərarası Komissiyanın, siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə və s. habelə digər çoxtərəfli formatlar çərçivəsində əməkdaşlığın, qarşılıqlı dəstəyin daha da gücləndirilməsinin vacibliyi vurğulanıb.

Ötən il ölkəmizdə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında yaşıl enerjinin inkişafı, ötürülməsi sahəsində imzalanmış strateji tərəfdaşlıq sazişinin regional enerji, nəqliyyat və kommunikasiyaların inkişafı istiqamətində atılan əhəmiyyətli addımlardan biri olduğu qeyd edilib.

Görüş zamanı, eyni zamanda, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra xarici işlər nazirləri tərəfindən “Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edilməsi üzrə Tədbirlərin Kompleks Proqramı” imzalanaraq təsdiqlənib.

***XQ***

# ZƏNGƏZUR DƏHLİZİ – ilahi ədalət, böyük haqq

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan və Rusiya liderləri ilə yanaşı, Ermənistanın baş naziri Nikol Paşinyanın imzasının yer aldığı üçtərəfli bəyanatın 9-cu bəndində göstərilir ki, “bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək”.

Prezident İlham Əliyev yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədəki çıxışında Zəngəzur dəhlizinin Azərbaycan üçün müstəsna əhəmiyyət daşıdığını bildirdi. Əlbəttə, dövlətimizin başçısı layihə ilə əlaqədar əvvəllər də fikrini açıqlamış, müəyyən məqamlara diqqət çəkmişdi. Hesab edirik ki, daxili əhəmiyyət daşıyan, yəni sırf nəqliyyat məsələlərinə dair müşavirədə mövzuya xüsusi yer ayrılması adi sayıla bilməz. Deməli, Prezident İlham Əliyevin şəxsində Azərbaycan dövləti özü üçün müstəsna əhəmiyyət daşıyan dəhlizə eyni zamanda strateji obraz qazandırır. Ölkəmizin liderinin “yeni layihələr arasında Zəngəzur dəhlizi” ifadəsi bu obrazın, necə deyərlər, vizit kartıdır.

Zəngəzur dəhlizi Azərbaycanın 44 günlük müharibədən sonra irəli sürdüyü termindir. Bu termin özündə savaşdakı müqəddəs Zəfərimizin mükafat məntiqini birləşdirir. Bu məntiqdə ilahi ədalət payı, otuz ilə yaxın davam etmiş işğal nəticəsində çəkdiyimiz zülm və iztirabların, çətinlik və məhrumiyyətlərin təzminatı var. Beynəlxalq aləm də mövcud reallığı dərk etməli, haqqımızı tanımalıdır və tanıyır da. Prezident İlham Əliyevin vurğuladığı kimi: “İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra bu məsələ beynəlxalq gündəliyə, beynəlxalq leksikona salındı və bu gün Zəngəzur dəhlizi artıq dünyada



qəbul edilmiş ifadədir, qəbul edilmiş termindir”.

Dövlətimizin başçısı müşavirədə ilahi ədalətin təmin olunması və xalqımızın çəkdiyi zülm və iztirabların təzminatı baxımından daha geniş anlamlı tarixi faktlara da diqqət çəkdi ki, bu barədə yazımızın sonunda onun səsləndirdiyi digər fikirlər fonunda söz açacağıq. Hələlik isə bildirək ki, ölkəmiz Zəngəzur dəhlizinin açılması üçün praktiki addımlar atıb. Məlumdur ki, Azərbaycan Vətən müharibəsindən sonra mövcud istiqamətdə dəmir və quru yolu nəqliyyatının yaradılmasına, hələ sabiq SSRİ dövründə mövcud olmuş kommunikasiyaların daha müasir formada bərpasına yönələn xeyli işlər görüb. Bu işlərə savaşa son qoymuş 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatla üzərinə düşən öhdəliklərin icrası nöqteyi-nəzərdən yanaşıb. Ermənistan isə qeyri-konstruktiv mövqe sərgiləyir: “...faktiki olaraq 10 noyabr kapitulyasiyasından sonra üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Orada açıq-aydın göstərilirdi ki, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır”.

Bəli, Prezident İlham Əliyevin də vurğuladığı kimi, Ermənistan üçtərəfli bəyanata əməl etmir, müxtəlif bəhanələr gətirir, qeyri-real və cəfəng layihələr ortaya atır, beynəlxalq ictimaiyyətin fikrini çaşdırmaq istəyir, manipulyasiyalara yol verir. Manipulyasiyalardan söz düşmüşkən, bunlar Cənubi Qafqazda sülh mühitinin formalaşmasına əngəl törətmək məqsədi daşıyır. Söhbət bilavasitə rəsmi İrəvanın irəli sürdüyü “Sülhün kəsişməsi”, yaxud “Dünyanın kəsişməsi” təşəbbüsündən gedir. Yeri gəlmişkən, müharibə başa çatandan sonra “dünyanı kəsişdirmək” Ermənistanın yadına heç düşmürdü də. Ölkənin qeyri-konstruktiv, anti-sülh mövqeyi elə bundan görünür. Yəni, rəsmi İrəvan “Sülhün kəsişməsi” kimi cəfəng ideyanı gündəmə savaşdan təxminən iki il keçdikdən sonra gətirmişdi. Özü də havadarlarının köməyi ilə.

“İdeyadan” məqsəd Cənubi Qafqazda erməni avantürizmini qorumaqdır. Baş nazir Nikol Paşinyan və komandasının təmsilçiləri iki il əvvəldən bunun üçün dəridən-qabıqdan çıxmağa başladılar. Elə bir beynəlxalq tədbir olmadı ki, onlar “Sülhün kəsişməsi” avantürasını orada reklam etməsinlər. Ən əsası isə rəsmi İrəvan sözügedən avantüranı regionda barış mühitinin başlıca komponenti elan etdi və mövqeyində qalır.

Ermənistan rəhbərliyi nəticə etibarilə üçtərəfli bəyanatın kommunikasiyaların açılması kasuzunun fərqli interpretasiyasına girişib. Belə yanaşmanın reallıqları heçə saymağa hesablandığı gün kimi aydındır. O da aydındır ki, reallıqları görməzdən gəlməyin mühüm hədəfi erməni avantürizmini diri saxlamaqla, Azərbaycana təsir rıçaqları əldə etməkdir. Bu, 44 günlük müharibə nəticəsində Ermənistanın itirdiklərinin bərpasından keçir. Başqa sözlə desək, güclü Ermənistan Azərbaycan və bütövlükdə region üçün aparıcı fiqur olmalıdır ki, Cənubi Qafqazda Qərbin təsiri oturuşmuş xarakter alsın. Yəni, ortada belə bir məkr var. Ancaq Prezident İlham Əliyev əminlik yaradır: “Halbuki bu dırnaqarası layihənin Azərbaycansız iki qəpiklik də qiyməti yoxdur və biz bunu dəfələrlə Ermənistan tərəfinə müxtəlif kanallar vasitəsilə çatdırmışıq. Əgər siz bu layihəni doğrudan da həyata keçirmək istəyirsinizsə, ilk növbədə, Azərbaycana müraciət etməlisiniz. Çünki bizsiz bu, sadəcə olaraq, kağız parçasıdır, bizim şərtlərimiz isə ədalətlidir, beynəlxalq hüquqa əsaslanır və Ermənistanın özünün götürdüyü öhdəliklərinə əsaslanır. Ermənistan rəhbərliyinə bir daha məsləhət görərdim ki, 10 noyabr kapitulyasiya aktını diqqətlə oxusun və orada xüsusilə dediyim o bəndə diqqət yetirsin”.

Beləliklə, “Sülhün kəsişməsi”nin Azərbaycansız tamamilə əhəmiyyətsiz layihə olduğunu vurğulayan Prezident İlham Əliyev Ermənistanın müxtəlif üsullarla vaxt uzatmağa, beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışdığını, ölkəmizə qarşı müxtəlif dairələrdə çirkin kampaniyaların aparılmasına rəvac verdiyini açıqlayıb. Nəticə göz qabağındadır. Dövlətimizin başçısının vurğuladığı kimi, bugünədək Azərbaycanın ayrılmaz hissəsi – Naxçıvan Muxtar Respublikası ilə ən qısa və ən rahat bağlantımız yoxdur. Qeyd edək ki, cənab Əliyev bu barədə yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində də söz açmış, ölkəmizin qətiyyətli mövqeyini diqqətə çatdırmışdı: “Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar. Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə kimi fəaliyyət göstərməsinlər. Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır. Biz belə vəziyyətdə qala bilmərik. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik? Bizim birbaşa əlaqəmiz olmalıdır və bu əlaqə Ermənistanın suverenliyini şübhə altına qoymur. Sadəcə olaraq, onlar 10 noyabr Bəyanatının müddəalarını yerinə yetirməlidirlər. Orada hər şey açıq-aydın göstərilib. Biz dörd ildən çoxdur ki, səbir göstəririk. Dörd ildən çoxdur istəyirik ki, bu, danışıqlar yolu ilə həll olunsun. Biz nə qədər gözləməli olacağıq və nə üçün gözləməliyik? Yəni, onlar bütün bunları nəzərə almalıdırlar. Mən bir dəfə demişəm, onlar gərək bizi əsəbləşdirməsinlər və başa düşsünlər ki, burada söz sahibi bizik və Cənubi Qafqazda Azərbaycan aparıcı iqtisadiyyatdır, aparıcı hərbi gücdür və aparıcı dövlətdir. Bugünkü dünyada güc amili ön plandadır və bunu heç kim unutmasın”.

Prezident İlham Əliyevin təbirincə desək, Ermənistan ötən beş ildə bizi çox əsəbiləşdirib. Müxtəlif xarici qüvvələri, xüsusən də ABŞ-ı üzərimizə salıb təzyiq göstərilməsinə çalışıb. Çalışıb ki, regional kommunikasiyaların açılmasında rəsmi İrəvanın irəli sürdüyü gündəm əsas götürülsün. Əlbəttə, Azərbaycan otuz ilə yaxın davam etmiş işğala görə riskə gedə, Ermənistanın Cənubi Qafqazın açar fiquru kimi güclənməsinə meydan tanıya bilməz. Buna görə də dövlətimizin başçısı rəsmi İrəvanın üçtərəfli bəyanatla üzərinə düşən öhdəliyi yerinə yetirmədikdə, ölkəmizin Naxçıvana yolla əlaqədar alternativ varianta üstünlük verdiyini açıqlayıb.

Deməli, bir halda ki, Ermənistan yolun “Azərbaycandan Azərbaycana yol” məntiqini qəbul etmir, İran variantı aktual olmalıdır. Əslində, sözügedən variant bu gün də aktualdır. O anlamda ki, həm işğal dövründə, həm də ondan sonra Naxçıvana mərkəzdən gedən yüklər, o cümlədən, vətəndaşlarımız İrandan keçib gediblər. Yəni, İslam respublikasındakı hərəkət zamanı xüsusi təhlükəsizlik təminatlarına ehtiyac yoxdur. Ancaq eyni fikri Ermənistan barədə söyləyə bilmərik. Çünki işğal tarixçəsi öz yerində, ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində Bakıdan Naxçıvana yol alan qatarlarımızın Ermənistan SSR tərkibindəki Mehri rayonu ərazisində necə daşa basıldığı, erməni millətçilərinin çıxardıqları oyunlar yadımızdan çıxmayıb. Ona görə də Prezident İlham Əliyev indinin prizmasından çıxış edərək vurğulayır: “Biz görəndə ki, Ermənistan tərəfi yenə də özünü qeyri-səmimi aparır, İran İslam Respublikası ilə müvafiq razılaşma əldə edilmişdir və Ermənistanı baypas edən avtomobil körpüsünün tikintisi də, artıq bu layihə də icra edilir və yəqin ki, bu il tamamlanacaq”.

Yada salaq ki, Azərbaycan 2020-ci ildə 44 günlük müharibənin qalibi kimi Ermənistana barış əlini uzatmış, böyüklük göstərmişdi. Bu böyüklükdə regional kommunikasiyalarda birgə iştirak və qarşılıqlı fayda seqmenti var idi. Mövcud istiqamətdə Prezident İlham Əliyevin və ölkəmizin rəsmilərinin açıqlamaları da olub. Eyni zamanda, qardaş Türkiyədən də bununla əlaqədar mesajlar verilib. Ancaq rəsmi İrəvan çağırışlara məhəl qoymaq əvəzinə, yuxarıda vurğuladığımız kimi, Qərbin regional maraqlarının təminatında “peşka”lığı seçib və yenə eyni ampluadadır.

Bir halda ki, Ermənistan fayda trayektoriyasını düzgün dəyərləndirə bilmir, o zaman ölkə otuz ildən artıq müddətdə olduğutək yenə dalan kimi qalmağı seçir. Bu aqibət nəticəsində “özləri daha çox itirəcəklər, nəinki biz. Ona görə bu məsələ diqqət mərkəzində olacaq və həm beynəlxalq müstəvidə, həm Ermənistanla ikitərəfli təmaslar əsnasında biz daim bir məsələni qeyd edirik ki, Azərbaycandan Azərbaycana maneəsiz keçid olmalıdır. Heç bir yoxlamadan keçmədən, heç bir maneə ilə üzləşmədən Azərbaycandan Azərbaycana rahat və azad keçid olmalıdır”.

Sonda bir məqamı da vurğulayaq. Yazımızın əvvəlində “ilahi ədalət” ifadəsini əbəs yerə işlətmədik. Həmçinin, ilahi ədalətin daha böyük fazasının olduğunu vurğuladıq. Nəzərə alaq ki, Azərbaycandan Azərbaycana rahat keçid həm də bu ifadədən, onun tarixi haqq prizmasından qaynaqlanır. Dövlətimizin başçısı məsələyə həm yanvarın 7-dəki müsahibəsində toxundu, həm də yanvarın 28-də keçirilmiş müşavirədə.

Prezident İlham Əliyev toplantıda ilahi ədalətin bərpasının zəruriliyini daha geniş şəkildə, özü də son dərəcə əminliklə vurğulayıb. Yazımızı ölkəmizin liderinin bu baxımdan səsləndirdiyi fikirlərlə bitirir, əlavə şərhə ehtiyac duymuruq: “Qərbi Zəngəzuru sovet hakimiyyəti bizim əlimizdən 1920-ci ilin noyabrında alıb və Azərbaycan xalqına qarşı cinayət törədib, bu, birinci və sonuncu cinayət deyildi. İkincisi, ondan sonra ardıcıllıqla əgər getsək, cinayət dırnaqarası “Dağlıq Qarabağ Muxtar Vilayəti”nin Azərbaycan ərazisində yaradılması idi. Ondan əvvəlki cinayət ermənilərin çar Rusiyası tərəfindən Azərbaycan ərazisinə köçürülməsi idi. Ondan əvvəlki cinayət Qarabağ xanının öldürülməsi idi, hansı ki, zəmanət verilmişdi ki, o, öz rəhbərliyini Qarabağda icra edəcək və XX əsrin digər cinayətləri də göz önündədir. Xocalı soyqırımı, 20 Yanvar və torpaqlarımızın 1990-cı illərin əvvəllərində işğalı. Yəni, biz bunu unutmamışıq, Azərbaycan xalqı bunu unutmayıb. Biz Zəngəzuru unutmamışıq və unutmayacağıq. Yenə də deyirəm, bizim Ermənistana ərazi iddiamız yoxdur. Ancaq Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirərək Azərbaycandan Azərbaycana maneəsiz keçid verməlidir”.

*Əvəz CAHANGİROĞLU*
*XQ*

# “Biz Zəngəzuru unutmamışıq və unutmayacağıq”

## *Nikol Paşinyan dünya üçün “Sülh kəsişməsi”ndən dəm vurur*

**Ermənistan müxtəlif bəhanələr gətirərək, müxtəlif qeyri-real və cəfəng layihələri... dırnaqarası “Sülh kəsişməsi” layihəsini ortalığa atıb və indi dünyada bir ölkə qalmayıb ki, o ölkəyə bu layihə təqdim edilməsin. Halbuki bu dırnaqarası layihənin Azərbaycansız iki qəpiklik də qiyməti yoxdur və biz bunu dəfələrlə Ermənistan tərəfinə müxtəlif kanallar vasitəsilə çatdırmışıq.**

**(Azərbaycan Prezidenti İlham Əliyevin nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədəki çıxışından)**

**Hörmətli oxucu elə başa düşməsin ki, mən indi qələmə alacağım fikirləri xatırladaraq Azərbaycanla Ermənistanı müqayisə etmək istəyirəm. Qətiyyən elə fikrim yoxdur. Çünki elə bir müqayisə mümkün deyil. Ancaq deməliyəm ki, Azərbaycan dövləti son dörd ildə, təkcə Ermənistanın işğalından azad edilmiş ərazilərdə 3400 kilometrə yaxın avtomobil yolu çəkib, 44 avtomobil yolu layihəsi icra edilib, ya da ki, icra edilməkdədir. Eyni zamanda, 45 tunel, 447 körpü, 16 viaduk nəzərdə tutulub. Bunlardan 28 tunel, 392 körpü və 9 viadukun tikintisi tamamlanmışdır. Xatırladım ki, viaduk yol və aparmaq sözlərindən əmələ gəlmiş ifadədir. Yəni yolun çuxur, dağ dərəsi ilə kəsişməsində daş, dəmir-beton və ya metaldan tikilmiş körpü tipli nəqliyyat qurğusudur.**




Bəs Ermənistan neyləyib? Heç nə. Nikol Paşinyan İrəvandan Zəngilana yol çəkmək istəyirdi. Nə oldu bəs? Layihələri kağızda, arzuları ürəklərində qaldı.

Azərbaycan son iki onillikdə Şimal – Cənub və Şərq – Qərb nəqliyyat dəhlizlərinin ən mühüm tərkib hissələrindən birinə çevrilib. Bəs Ermənistan neyləyib? Müstəqillik əldə edəndən bəri siyasi və iqtisadi dalandan çıxmaq yolunu axtarırlar. Hələ ki, o yolda işıq görünmür. Bu məqamda rusiyalı satira aktyoru Gennadi Xazanovun bir deyimi yada düşür: “tupoylar (ağıldankəmlər) tupikdən ( dalandan) çıxdıqlarına çox sevinə bilmirlər. Çünki oradan çıxıb, o biri dalana düşürlər”.

Dövlət başçımız nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə xatırlatdı ki, bu gün Avrasiyanın nəqliyyat xəritəsini Azərbaycansız, onun nəqliyyat infrastrukturu olmadan təsəvvür etmək mümkün deyil: “Hazırda bizim ərazimizdən Şərq – Qərb və Şimal – Cənub nəqliyyat dəhlizləri keçir. Bu dəhlizlər üzrə daşınan yüklərin həcmi ildən-ilə artır. Yüklərin daha səmərəli daşınması üçün fiziki infrastrukturla yanaşı, digər addımlar da atılır, o cümlədən rəqəmsallaşma məsələlərinə diqqət göstərilir. Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaradılmışdır və ortaq müəssisələr, müştərək müəssisələr qurulmuşdur. Bir sözlə, bu gün Azərbaycan Avrasiyanın əvəzolunmaz nəqliyyat mərkəzlərindən biridir”.

Bəs Ermənistan son otuz ildə neyləyib? Heç nə. Hələ də dənizə çıxış yolları axtarırlar. Təbii ki, bu istiqamətdə ən qısa yol Azərbaycandan keçərək Xəzərə çıxış tapmaqdır. Bunun üçün isə ağıllı lider lazımdır ki, xalqın və dövlətin gələcəyi naminə qonşularla əməkdaşlıq etsin, başqa ölkələrə ərazi iddiaları irəli sürməsin və ən başlıcası, Azərbaycanın sülh təkliflərini qiymətləndirə bilsin. Min şükür ki, işğalçılığı, terrorçuluğu, separatçılığı və qaniçənliyi milli əxlaq normasına çevirmiş hayların elə bir lideri olmayıb, indi də yoxdur. Bütün dünyaya məlum olan faktdır ki, müstəqillik dövründə Ermənistana rəhbərlik edənlərin hamısı qatil, qaniçən, cinayətkar, quldur, başkəsən və separatçılardır. Həmin adamların hamısı azərbaycanlılara etdikləri zülmün, sitəmin iki qatını öz xalqlarına ediblər.

Dövlət başçımız adıçəkilən müşavirədə xatırlatdı ki, son 30 il ərzində Azərbaycan əhalisi 7 milyondan 10 milyona çatıb, hətta o rəqəmi də ötüb. Bəs Ermənistanda nə baş verib? Kilsə xadimləri deyirlər ki, Sovet Ermənistanının 3 milyon əhalisi var idi. İndi onun tən yarısı qalıb. Paşinyanın siyasi müxalifətçiləri isə həmin göstəricinin 2 milyon olduğunu söyləyirlər. Bu isə ölkənin idarə olunmamasının, milli ideologiyanın mif və xülyalara əsaslanmasının fəsadlarıdır.

Dövlət başçımız xatırladır: “Yeni layihələr arasında Zəngəzur dəhlizini qeyd etmək istərdim. Zəngəzur dəhlizi layihəsi Azərbaycan tərəfindən irəli sürülmüşdür. İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra bu məsələ beynəlxalq gündəliyə, beynəlxalq leksikona salındı və bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadədir, qəbul edilmiş termindir. Əlbəttə ki, biz bu dəhlizin açılması üçün praktiki addımlar atırıq”.

Ancaq təəssüf ki, Ermənistan tərəfi dörd ildən çoxdur ki, bu məsələ ilə bağlı qeyri-konstruktiv mövqe sərgiləyir, faktiki olaraq 10 noyabr kapitulyasiyasından sonra üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Orada açıq-aydın göstərilirdi ki, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır. Ermənistan isə buna əməl etmir, müxtəlif bəhanələr gətirərək, müxtəlif qeyri-real və cəfəng layihələri ortaya ataraq, sadəcə olaraq, beynəlxalq ictimaiyyətin fikrini çaşdırmaq istəyir, manipulyasiyalarla məşğuldur”.

Təəssüf ki, İrəvan rəsmiləri Zəngəzur dəhlizinin açılmasına mane olmaqla yanaşı, beynəlxalq ictimaiyyətin “gözünə kül üfürmək” məqsədiylə “Sülh kəsişməsi” adlı növbəti utopiyanı gündəliyə gətirib. Ekspertlərin fikrincə, 29 min 743 kvadratkilometrlik ərazini (miflərlə yaşayanların fikrincə, Ermənistanın ərazisi 300 min kvadratkilometrlə 360 min kvadratkilometr olub. Buraya Roma, Bizans, Osmanlı, İran, Qafqaz və Rusiya daxil idi – ?!) idarə edə bilməyənlər dünya üçün “Sülh kəsişməsi”ni necə reallaşdıra biləcək? Təbii ki, reallaşdıra bilməyəcəklər.

Ancaq həmişə, hər yerdə, hamının köməyinə çatan Azərbaycan Prezidenti xatırladır ki, ermənilər həmin dırnaqarası layihəni doğrudan da həyata keçirmək istəyirlərsə, ilk növbədə, Azərbaycana müraciət etməlidirlər: “ Ermənistan rəhbərliyinə bir daha məsləhət görərdim ki, 10 noyabr kapitulyasiya aktını diqqətlə oxusun və orada xüsusilə dediyim o bəndə diqqət yetirsin. Yenə də deyirəm, onların dırnaqarası layihəsi Azərbaycansız tamamilə əhəmiyyətsizdir. Sadəcə olaraq, vaxt uzatmaqla məşğuldurlar, beynəlxalq ictimaiyyəti çaşdırmaqla məşğuldurlar”.

Prezidentin adıçəkilən müşavirədəki çıxışının əsas müddəalarından biri də Azərbaycandan Azərbaycana rahat və azad keçidin təmin edilməsi idi. Dövlət başçımız əlavə etdi ki, bu, bizim tələbimizdir. Tələbimiz yerinə yetirilməsə, Ermənistan bundan sonra da dalan ölkə kimi qalmaqda davam edəcək və onların tranzit ölkəyə çevrilmə arzuları gözlərində qalacaq: “Özləri daha çox itirəcəklər, nəinki biz. Ona görə bu məsələ diqqət mərkəzində olacaq və həm beynəlxalq müstəvidə, həm Ermənistanla ikitərəfli təmaslar əsnasında biz daim bir məsələni qeyd edirik ki, Azərbaycandan Azərbaycana maneəsiz keçid olmalıdır. Heç bir yoxlamadan keçmədən, heç bir maneə ilə üzləşmədən Azərbaycandan Azərbaycana rahat və azad keçid olmalıdır”.

Cənab Prezident bizim öz vətənimizdən ölkəmizin başqa ərazisinə keçməyimizə səbəb olan faktları xatırladaraq dedi ki, Qərbi Zəngəzuru sovet hakimiyyəti bizim əlimizdən 1920-ci ilin noyabrında alıb və Azərbaycan xalqına qarşı cinayət törədib, bu, birinci və sonuncu cinayət deyildi: “Ondan sonra ardıcıllıqla əgər getsək, cinayət dırnaqarası “Dağlıq Qarabağ Muxtar Vilayəti”nin Azərbaycan ərazisində yaradılması idi. Ondan əvvəlki cinayət ermənilərin çar Rusiyası tərəfindən Azərbaycan ərazisinə köçürülməsi idi. Ondan əvvəlki cinayət Qarabağ xanının öldürülməsi idi, hansı ki, zəmanət verilmişdi ki, o, öz rəhbərliyini Qarabağda icra edəcək və XX əsrin digər cinayətləri də göz önündədir. Xocalı soyqırımı, 20 Yanvar və torpaqlarımızın 1990-cı illərin əvvəllərində işğalı. Yəni, biz bunu unutmamışıq, Azərbaycan xalqı bunu unutmayıb. Biz Zəngəzuru unutmamışıq və unutmayacağıq. Yenə də deyirəm, bizim Ermənistana ərazi iddiamız yoxdur. Ancaq Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirərək Azərbaycandan Azərbaycana maneəsiz keçid verməlidir”.

***İttifaq MİRZƏBƏYLİ***

# Liderlərin qətiyyət marşrutu: Bakı–Tbilisi–Qars

## *Azərbaycan, Türkiyə və Gürcüstanın milli maraqları bir-birini tamamlayır*

**Artıq birmənalı olaraq deyə bilərik ki, Cənubi Qafqazda transmilli nəqliyyat-kommunikasiya layihələrinin reallaşması yalnız Azərbaycanın deyil, həm də regionda sülhün və sabitliyin qorunub saxlanmasında maraqlı olan dünya dövlətlərinin strateji maraqlarına cavab verir. Burada təhlükəsizlik məsələlərini də unutmaq olmaz. Azərbaycanın bu qlobal layihələrdə həm tranzit ölkə, həm də neft və qaz təchizatçısı kimi oynadığı rol ölkəmizin geosiyasi çəkisini və nüfuzunu artıran mühüm amillərdən sayılmalıdır.**

Belə geostrateji nəqliyyat layihələrindən biri Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu xəttidir. 2017-ci ilin oktyabrından fəaliyyət göstərən bu marşrut Asiya və Avropanın dəmir yol şəbəkələrinin birləşdirilməsini təmin edir. Bu, sadəcə olaraq, üç ölkə arasında deyil, həm də iki qitə arasında ən qısa yoldur. Üstəlik, BTQ yüklərin daşınmasına sərf edilən vaxtı iki dəfədən çox qısaltmağa imkan verməklə yanaşı, Mərkəzi Asiya ölkələrinin –Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropaya və dünya bazarlarına çıxışını asanlaşdırır.

Amma onu da qeyd etməliyik ki, Avrasiyanın nəqliyyat xəritəsinin mühüm tərkib hissəsinə çevrilən BTQ layihəsinin reallaşması heç də asan başa gəlməyib. ABŞ başda olmaqla bəzi xarici qüvvələr bu tarixi layihəni gözdən salmaq, onun həyata keçməsini əngəlləmək üçün məqsədli şəkildə təbliğat aparırdılar. Onlar bu transmilli marşrutun, guya, iqtisadi cəhətdən səmərəsiz olduğunu iddia edirdilər. Amma Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli siyasi iradəsi, həmçinin Türkiyə və Gürcüstan liderlərinin prinsipial mövqeyi, qarşılıqlı dəstəyi bütün çətinlikləri dəf etməyə və bu layihəni reallığa çevirməyə imkan yaratdı. Geriyə boylanaraq onu da oxucuların nəzərinə çatdıraq ki, Bakı–Tbilisi–Qars dəmir yolunun təntənəli açılış mərasimində İlham Əliyev logistika-nəqliyyat təşəbbüslərindən danışaraq artıq reallaşan layihənin Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevriləcəyini vurğulamışdı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BTQ dəmir yolunu üç ölkəni bir-birinə möhkəm bağlayan "Dəmir İpək yolu" adlandıraraq, onun bir tərəfdən Mərkəzi Asiya və Çini, digər tərəfdən Avropanı Qafqazda qovuşduracağını bəyan etmişdi. BTQ-nin regional əməkdaşlığa ciddi töhfə verəcəyinə əminliyini bildirən Türkiyə lideri Bakı–Tbilisi–Ceyhan neft kəmərini birinci, Bakı–Tbilisi–Ərzurum qaz layihəsini ikinci, Bakı–Tbilisi–Qars dəmir yolu marşrutunu isə bu istiqamətdə atılan üçüncü vacib addım kimi qiymətləndirmişdi. R.T.Ərdoğanın səkkiz il bundan əvvəl dediyi bu tarixi sözləri də yadımızdadır: "Bu həmrəylik sadəcə regional əməkdaşlıqla məhdudlaşmır. Eyni zamanda, bu dəmir yolu üzərindəki hər bir stansiya bir sülh stansiyası, dostluq və həmrəylik stansiyası olaraq dünyaya mesajını verir".

* * *

"Dəmir İpək yolu" layihəsinin gerçəkləşməsindən sonra dünya Bakıdan yeni təşəbbüslər və yeni mesajlar aldı. Bölgədə söz və güc sahibinə çevrilmiş Azərbaycanın əməkdaşlığa və təhlükəsizliyə doğru atdığı addımların qarşısını almaq mümkün olmadı. Bu məqamda artıq Ağ evlə vidalaşmış Bayden Administasiyasının Bakıya məlum təzyiqləri Zəngəzur dəhlizinin İrandan keçməsinə qarşı çıxması ilə göstərdiyini də qeyd etməliyik.

Prezident İlham Əliyev nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin icrası zamanı ölkəmizin üzləşdiyi çətinliklərdən danışdı. Dövlətimizin başçısı ötən müddətdə Şərq–Qərb Dəhlizinin əsas alternativi olan BTQ dəmir yolu marşrutunun Azərbaycan ərazisindən yükdaşımaların həcminin xeyli artmasında mühüm rol oynadığını diqqətə çatdırdı: "Gürcüstanın Poti və Batumi limanlarına alternativ kimi, Bakı-Tbilisi-Qars dəmir yolu Aralıq dənizindəki limanlara və Avropa bazarlarına fasiləsiz çıxışı təmin edib, Şərq-Qərb dəhlizi boyunca əlaqəni daha da yaxşılaşdırıb".

Çıxışında bu layihənin Azərbaycan dövlətinin təşəbbüsü ilə icra edildiyini vurğulayan İlham Əliyev prosesin gedişində böyük müqavimətlə üzləşdiyini də xatırlatdı: "Onu indi mən deyə bilərəm. Xüsusilə, Amerika Birləşmiş Ştatları buna etiraz edirdi. Səbəb də yenə də ermənipərəst siyasətlərində idi. Çünki hesab edilirdi ki, bu layihə Ermənistanı kənarda qoyur. Buna görə ovaxtkı Gürcüstan rəhbərliyinə Amerika dövləti tərəfindən çox ciddi təzyiq göstərilmişdi ki, Gürcüstan buna razılıq verməsin. Biz bir neçə il Gürcüstan tərəfi ilə danışıqlar aparmışdıq və nəhayət razılığa gələ bildik. O cümlədən mən şəxsən ABŞ-ın yüksək vəzifəli nümayəndələri ilə bu məsələni dəfələrlə müzakirə etmişdim və bildirmişdim ki, onlar bizə maneə törətməməlidirlər. Bu, bizim üçün strateji layihədir və gələcəkdə bu layihədən digər ölkələr, o cümlədən onların müttəfiqləri də faydalanacaq. Həyat göstərdi ki, hər zaman olduğu kimi, biz haqlı idik. Bu gün Amerikanın Avropadakı müttəfiqləri Bakı–Tbilisi–Qars dəmir yoluna çox böyük maraq göstərirlər. Ümumiyyətlə, Azərbaycan ərazisindən keçən yüklərin Mərkəzi Asiyadan Avropaya və əks istiqamətə daşınmasına da böyük maraq göstərirlər. Əgər Bakı–Tbilisi–Qars dəmir yolu tikilməsəydi, bütün bunlar mümkünsüz olardı".




***Tikintisinə 2008-ci ildə başlanılan və 2017-ci il oktyabrın 30-da istismara verilən bu dəmir yolu xətti Asiya və Avropanın dəmir yol şəbəkələrinin birləşdirilməsini təmin edir. Bu, təkcə 3 ölkə arasında deyil, həm də Asiya ilə Avropa arasında ən qısa yoldur. BTQ yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox qısaltmağa imkan verir, Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır. Ümumi uzunluğu 846 kilometr olan xəttin 504 kilometrlik hissəsi Azərbaycan, 263 kilometrlik hissəsi Gürcüstan, 79 kilometrlik hissəsi isə Türkiyə ərazisindədir.***

* * *

İndi geriyə dönüb baxanda Azərbaycanın əldə etdiyi uğurların hansı maneələri aşmaqla, hansı qüvvələrlə mübarizə aparmaqla başa gəlməsinin miqyası aydın görünməkdədir. Nəqliyyat müşavirəsindəki çıxışında cənab Prezident BTQ layihəsi, onun perspektivi ilə bağlı bunları qeyd etdi: "Biz nəinki Bakı–Tbilisi–Qars dəmir yolunu Türkiyə və Gürcüstanla birlikdə razılığa gələrək inşa etdik, hətta o vaxt Gürcüstan dövlətinə bir milyard dollara yaxın çox aşağı faizlə kredit də verdik və faktiki olaraq, bu vəsait hesabına Gürcüstan ərazisində işlər görüldü. Azərbaycan ərazisində dəmir yolu müasirləşdirildi və Türkiyə də öz ərazisindəki hissəni inşa etmişdi. Beləliklə, yeni bir yol açıldı, hansı ki, bu gün müxtəlif ölkələrin yüklərini Ağ dəniz istiqamətinə, Avropaya, Türkiyəyə daşıyır. Sonra gördük ki, bu yolun aşırma qabiliyyəti yetərli deyil. Yenə də Azərbaycan vəsaiti hesabına keçən il bu yolun genişləndirilməsi tamamlandı və onun daşıma qabiliyyəti 5 milyon tona çatdırılmışdır."

Prezident İlham Əliyevin anti–Azərbaycançı qüvvələrə, bu gün də bizi süni çətinliklərlə üz-üzə qoymağa çalışanlara ünvanladığı bu mesajı isə altından xətt çəkərək oxucuların diqqətinə çatdırırıq: "Hesab edirəm ki, bu, bizim coğrafiyamızda son illər ərzində həyata keçirilən ən vacib layihələrdən biridir və bir çox ölkələr bundan sonra da bu yoldan faydalanacaq. Vaxtilə Amerika Dövlət Departamentinin o məmurları bizə qarşı çıxırdılar, – mən bilmirəm onlar indi haradadırlar, onların adları da tarixdə qalmayıb, – amma biz ciddi iradə göstərərək buna nail olduq".

Azərbaycan, Gürcüstan və Türkiyə arasında əməkdaşlıq regionun digər ölkələri üçün örnəkdir. Yəni, bu əməkdaşlıq könüllü şəkildə, həm də kənar təsirlərə sinə gərərək baş tutdu. İndi sübut olunduğu kimi, bu üçtərəfli əməkdaşlıq ölkələrin və xalqların maraq və rifahına xidmət edir. Tarixi İpək Yolunun yenidən canlandırılmasında mühüm bağlantı olan BTQ-nin açılış mərasimində Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri ilə yanaşı, Qazaxıstan və Özbəkistanın baş nazirlərinin, Türkmənistan və Tacikistandan nazirlərin və digər ölkələrin rəsmilərinin iştirak etməsi faktı layihənin region üçün nə dərəcədə əhəmiyyətli olmasının göstəricisi sayılmalıdır. On il bundan əvvəl bir çoxlarının inanmadığı və reallaşmasını qeyri-mümkün hesab etdiyi Bakı–Tbilisi–Qars dəmir yolu bu gün dostluq və qardaşlığın rəmzinə çevrilib. Aydın görünən mənzərə ondan ibarətdir ki, Cənubi Qafqazın geosiyasi coğrafiyasında Azərbaycan, Türkiyə və Gürcüstanın milli maraqları üst-üstə düşərək bir-birini tamamlayır. Bu üç ölkənin birgə geosiyasi və iqtisadi maraqlarının və təhlükəsizliyinin təmin edilməsində məhz Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərləri, o cümlədən Bakı–Tbilisi–Qars dəmir yolu xətti xüsusi əhəmiyyətə malikdir.

Sonda bir daha qeyd edək ki, Bakı–Tbilisi–Qars dəmir yolunu Azərbaycan, Türkiyə və Gürcüstan liderlərinin bu layihəyə yönəlik kənar təzyiqləri siyasi iradə və qətiyyəti sayəsində dəf etdikləri uğur marşrutu da adlandırmaq olar. Əslində, bu qətiyyətin zəminini Cənubi Qafqaz ölkələrinin və bölgəətrafı güclərin birgə əməkdaşlığı təşkil edir. Bu transmilli nəqliyyat marşrutu müasir dövrdə regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasında özünəməxsus yer tutmaqla yanaşı, həm də "3+3" formatının zamanın sınağından uğurla çıxmasının təsdiqi sayılmalıdır.

***İmran BƏDİRXANLI***
***XQ***

# Ermənistan iqtidarı seçki hazırlığına başlayıb

## *Rəsmi İrəvan inzibati resurslardan maksimum istifadə etməkdə qərarlıdır*

**Ermənistan hökuməti növbədənkənar parlament seçkiləri keçirmək niyyətində deyil. Bunu ölkənin baş naziri Nikol Paşinyan bir neçə gün öncə İctimai televiziyaya müsahibəsində açıqladı. Qeyd etdi ki, növbədənkənar seçkilərin keçirilməsinin mümkünlüyü ilə bağlı müzakirələr həmişə olub. "Bununla belə, biz növbədənkənar parlament seçkiləri keçirməyi planlaşdırmırıq" – deyə o bildirdi.**

Qeyd edək ki, Ermənistanda növbəti parlament seçkiləri 2026-cı ilin ortalarına planlaşdırılıb. Sonuncu parlament seçkilərinin 2021-ci il iyunun 20-də keçirildiyini nəzərə alaraq deyə bilərik ki, növbəti seçkilər də 2026-cı ilin iyununa təsadüf edəcək. Beləliklə, gərgin mübarizə şəraitində keçəcəyi heç kəsdə şübhə doğurmayan parlament seçkilərinə təxminən il yarım vaxt qalıb.

Ancaq Ermənistan hakimiyyətinin 2024-cü ilin ortalarından etibarən seçkiqabağı prosesə başladığını demək mümkündür. Ölkənin daxili ictimai-siyasi həyatında baş verən proseslərin müşahidəsi belə deməyə əsas verir. Qeyd edək ki, hazırlıq prosesi çərçivəsində Paşinyan iqtidarı maksimum dərəcədə inzibati resurslardan istifadə etmək istəyir və görünən odur ki, bunu fəal şəkildə edir. Ümumiyyətlə, hakimiyyətin seçkiqabağı fəaliyyətini bir neçə istiqamətdə apardığını demək mümkündür. Buna misal olaraq hökumətin tərkibində həyata keçirilən kadr islahatlarını, iqtidar partiyasının reytinqinin aşağı olduğu şəhər və rayonlara yeni kadrların təyin olunmasını və hakimiyyətə müxalif mövqedə olan vilayət rəhbərlərinə qarşı həyata keçirilən tədbirləri qeyd etmək olar.

Hakimiyyət tərəfindən həyata keçirilən tədbirlər çərçivəsində Şörəyel mahalının (haylar bu qədim yurd yerimizi Şirak vilayəti adlandırırlar–S.H.) qubernatoru vəzifəsinə 2023-cü ilin yanvar ayında təyin edilən Muşeq Muradyan iqtidardan olan deputat David Aruşanyanla əvəz edilib. Həmçinin, ölkənin ikinci böyük şəhəri olan Gümrü şəhər rəhbərliyi də hakimiyyətin təqibləri nəticəsində istefa verib və hazırda orada yeni seçkilərin keçirilməsi planlaşdırılıb. Qeyd etmək lazımdır ki, Gümrü şəhər meri vəzifəsinin icrası isə həmin şəhərin icmasının rəhbəri vəzifəsini icra edən Sarik Minasyana həvalə olunub. Maraqlıdır ki, Minasyan bu vəzifəyə təyin olunduqdan sonra iqtidar partiyasının sıralarına daxil olmaq üçün ərizə ilə müraciət edib.

Eyni zamanda, Paşinyan xüsusilə zəif elektorata malik olduğu Zəngəzur mahalının Qafan, Gorus və Qacaran şəhərlərinin müxalif icra rəhbərlərini dəyişmək, yaxud öz tərəfinə çəkmək üçün hərəkətə keçib. Əvvəlcə, 2024-cü ilin avqustunda Qacaran şəhərinin rəhbəri Manvel Paramazyanın qanunsuz əldə edilmiş əmlakının müsadirə edilməsi ilə bağlı baş prokurorluğun iddiası Ermənistanın Korrupsiyaya Qarşı Mübarizə Məhkəməsi tərəfindən icraata qəbul edilib. Sentyabrın 10-da isə Gorus şəhərinin rəhbəri Aruş Aruşanyana qarşı 2022-ci ildə qaldırılmış cinayət işi üzrə məhkəmə prosesi başa çatdırılıb. Məhkəmənin hökmünə əsasən, A.Aruşanyan 1 il 8 ay azadlıqdan məhrum edilib. Həmçinin, ona 5 il dövlət işində vəzifə tutmamaq cəzası verilib.

Paralel olaraq, Qafan şəhərinin rəhbəri Gevorq Parsyana qarşı da bəzi addımlar atılıb. Parsyanın "Müqəddəs mübarizə" hərəkatına rəhbərlik edən Baqrat Qalstanyanın Qafana səfəri zamanı onunla görüş keçirməsi və onu xoş qarşılaması hakimiyyətin diqqətindən yayınmayıb. Qeyd edək ki, bunu Parsyan özü də təsdiq edib. O ötən ilin sentyabrında verdiyi müsahibə zamanı bildirib ki, hazırda hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilən tədbirlər hakimiyyətin siyasi təqibidir və bu, B.Qalstanyanla görüşdən sonra başlayıb. Sentyabr ayının ortalarında hüquq-mühafizə orqanları əməkdaşları Qafan meriyasına daxil olublar. Onlar şəhərin subsidiyaları ilə bağlı maliyyə sənədlərini, eləcə də bu subsidiyaların müvafiq sahələr üzrə əksəriyyətini icra edən və G.Parsyanın atasına məxsus "Noroqşin" məhdud məsuliyyətli cəmiyyətinun sənədlərini müsadirə ediblər. Daha sonra həmin şirkətin məsul şəxslərinə qarşı cinayət işi qaldırılıb və hazırda istintaq davam edir.

Son bir neçə ay ərzində Nikol Paşinyan başda olmaqla Ermənistan hakimiyyət nümayəndələrinin regionlara səfərlərinin intensivləşməsi də seçkiqabağı prosesə daxildir. Bunu hakim partiyadan keçmiş deputat Ovik Aqazaryan da təsdiq edib. Aqazaryan bildirib ki, regionlara edilən səfərlər mövcud problemlərin öyrənilməsini və əhaliyə hesabatların verilməsini nəzərdə tutsa da, bu, seçkilərə hazırlıq prosesinin bir hissəsidir. Qeyd edək ki, 2024-cü ilin iyun-oktyabr ayı ərzində Paşinyan regionlara 8 dəfə səfər edib. Bu səfərlər çərçivəsində yerli əhali ilə görüşlər keçirilib, mövcud problemlər və aparılan işlərlə tanışlıq olu. Hətta, Ermənistan mətbuatında yayılan xəbərlərə görə, hakim partiyanın iclasında Nikolun regionlarda iqtidar partiyasının nüfuzunu qaldırma qabiliyyəti olmayan və hökumətin qoyduğu tapşırıqları icra edə bilməyən rəhbər şəxsləri vəzifəsindən uzaqlaşdıracağını bildirilib.



Bunlara paralel olaraq, 2024-cü il oktyabrın 10-da Ermənistan parlamentinə ölkənin Seçki Məcəlləsinə əlavə və dəyişiklik edilməsini nəzərdə tutan qanun layihəsi daxil olub. Layihə Ermənistan mətbuatında narahatlıqla qarşılanıb və hakimiyyətin seçkidə qalib gəlməsi istiqamətində atdığı addım kimi qiymətləndirilib. Təxminən 80 maddəsinə dəyişiklik və əlavə ediləcək yeni Seçki Məcəlləsinin 2025-ci ildən qüvvəyə minəcəyi bildirilir. Müəyyən edilib ki, Seçki Məcəlləsinə edilməsi nəzərdə tutulan dəyişiklik və əlavələr vasitəsilə hakimiyyət maliyyə nəzarətini öz əlində mərkəzləşdirmək, habelə mənşəyi bilinməyən maliyyə vəsaitlərinin seçki proseslərinə daxil olmasının qarşısını almaq üçün imkan əldə etmiş olacaq. Təklif olunan dəyişikliklərə əsasən, seçki fonduna pul köçürmələrini yalnız siyasi partiyalar həyata keçirə biləcək. Əvvəllər isə istənilən fiziki şəxs seçki fonduna ianə verə bilirdi.

Hakimiyyət bununla rəqib, yaxud müxalifət partiyalarının maliyyə resurslarına nəzarət edə, öz maliyyə mənbələrini isə gizlədə bilər. Həmçinin, bildirilir ki, dəyişikliklər seçki pozuntularına qarşı mübarizəni, xüsusən də bununla bağlı şikayətlərin və işlərin araşdırılmasını da müəyyən qədər məhdudlaşdıracaq. Bundan sonra yalnız subyektiv əsası olan şikayətlərə baxılması nəzərdə tutulur və seçki pozuntularından yalnız səsvermə hüququ pozulmuş şəxslər şikayət edə bilərlər. Yəni, vətəndaş sübut etməlidir ki, onun səsvermə hüququ hansı seçki pozuntusu nəticəsində pozulub. Bunu sübut edə bilməsə, şikayətinə baxılmayacaq. Məsələn, media subyektlərinin aşkara çıxardıqları qanun pozuntuları nəzərə alınmaya bilər. Ermənistan əhalisinin əksər hissəsinin öz hüquqlarını bilmədiyini nəzərə alaraq deyə bilərik ki, dəyişikliklər əsasən hazırkı iqtidarın maraqlarına cavab verir və istisna edilmir ki, hakimiyyət tərəfindən məqsədyönlü şəkildə atılmış addımdır.

Ermənistanın Konstitusiya İslahatları Şurasının 2024-cü ilin sentyabrın 19-da verdiyi qərar da seçkiqabağı fəaliyyətə daxildir. Şura həmin iclas zamanı hazırda qüvvədə olan və parlament seçkilərində tətbiq edilən "sabit çoxluq" normasının saxlanması barədə qərar qəbul edib. İslahatlar şurasının bu qərarını da Ermənistan hakimiyyətinin seçkiqabağı fəaliyyəti kontekstində qiymətləndirmək mümkündür. Yəni, "sabit çoxluq" normasının saxlanmasının lehinə şurada hakimiyyəti təmsil edən bütün üzvlər səs verib. İslahatlar şurasının müxalif üzvü David İonnisyan isə bildirib ki, hakimiyyət seçicilərin əksəriyyətinə sahib olmadığı üçün qorxur və süni bonusların köməyi ilə hökuməti formalaşdırmaq istəyir.

Mövcud qanunvericiliyə əsasən, hər hansı partiya parlament seçkilərində mandatların 50 faizdən çoxunu ala və ya digər qüvvələrlə koalisiya yaradaraq hökuməti formalaşdıra bilməsə, seçkilərin ikinci turu keçirilir. İkinci turda qalib gələn siyasi partiya isə seçkilərdə aldığı səslərdən asılı olmayaraq parlamentdə çoxluq əldə etmək üçün kifayət qədər əlavə mandat əldə edir. Yəni seçicilərin 25-30 faizinin səsini toplayan qüvvə təkbaşına hökumət qura bilər.

Eyni zamanda, özünü müxalifət kimi göstərən, lakin hökumətin Qərbyönümlü siyasətinə dəstək verən və demokratik qüvvələrin platformasına daxil olan 4 siyasi partiyanın rəhbərinin Ermənistanın Avropa İttifaqına üzv olması üçün ölkədə referendum keçirilməsi təşəbbüsünü də seçkiqabağı prosesin bir parçası hesab etmək olar. Bu təşəbbüsə Ermənistan hakimiyyətinin heç bir maneə törətməməsi və hətta, müəyyən inzibati dəstək verməsi seçkiqabağı prosesin bir parçası hesab oluna bilər. Ermənistan hökumət nümayəndələri bu təşəbbüsü vaxtından əvvəl atılmış addım kimi qiymətləndirisələr də, ona heç bir bürokratik maneə yaratmayıblar. Hətta, onun uğurlu keçirilməsi üçün müəyyən şərait də yaradılıb. Paşinyan və onun komandası təşəbbüs barədə müəyyən açıqlamalar da verib. Parlamentin Avropaya inteqrasiya üzrə daimi komitəsinin rəhbəri Arman Yeqoyan yaxın 6 ay ərzində Ermənistanın Aİ-yə daxil olmaq üçün müraciət etmək niyyətinin olmadığını, Paşinyan isə Aİ-yə üzv olmaq üçün referendumun keçirilməsinə ehtiyac görmədiyini bildiriblər. Ermənistan hakimiyyətinin bu məsələdə neytral mövqeyi ona hökumətin Qərbyönümlü siyasətinə erməni ictimaiyyətinin münasibətini öyrənmək, Qərbyönümlü platforma ilə seçkilərdə qalib gəlmə ehtimallarını müəyyən etmək və ya Qərbyönümlü platformadan rahatlıqla imtina etmək və digər istiqamətlərə manevr etmək imkanları yaradır.

Bütövlükdə, "Mülki müqavilə" partiyasının reytinqinin aşağı olması səbəbindən hakimiyyət seçkilərə qədər əlində olan inzibati resurslardan istifadə etməyə və vəziyyəti öz xeyrinə dəyişmək üçün tədbirlər görməyə davam edəcək. İqtidarın 2025-ci ilin birinci rübünədək seçki platformasını müəyyən edəcəyi və onu ictimaiyyətə açıqlayacağı da istisna olunmur.

***Səxavət HƏMİD***
***XQ***

# Paytaxtda seçicilərin bələdiyyələrə növbəti etimadı

**Yerli özünüidarəetmə orqanlarına seçkilər həm də bələdiyyələrin fəaliyyətinin əhali tərəfindən qiymətləndirilməsi və istiqamətləndirilməsi, problemlərin aşkara çıxarılıb həll olunması üçün zəruri tədbirlərin görülməsinə imkan verir. Dünən paytaxtın seçki məntəqələrində müşahidə etdiyimiz mənzərə bunu deməyə əsas verir.**














## Səbail

**Səbail rayonundakı 7 saylı Dairə Seçki Komissiyasının 25 nömrəli seçki məntəqəsi Bibiheybət qəsəbəsindəki 162 saylı tam orta məktəbin geniş və səliqəli foyesində yerləşir. Dünən səhər saat 11.00 radələrində bələdiyyə seçkilərindən reportaj hazırlamaq üçün bura gəlmişdik. Məntəqədə xeyli adam var idi. Onlar növbə ilə səs verirdilər.**

Əvvəlcə məntəqənin sədri Tünzalə Mikayılovaya yaxınlaşdım. Özümü təqdim etdim. Tünzalə xanım məmnuniyyətlə səsvermənin gedişi barədə məlumat verdi. Dedi ki, o, uzun illərdir bu təhsil ocağında Azərbaycan dili və ədəbiyyatı fənnindən dərs deyir. Peşəsinə çox bağlıdır, eyni zamanda ölkəmizdə keçirilən ictimai-siyasi kampaniyalarda fəal iştirak edir.

Tünzalə xanım budəfəki bələdiyyə seçkilərinin kifayət qədər yüksək seçici fəallığı şəraitində keçdiyini bildirdi. O məlumat verdi ki, məntəqə üzrə 1297 seçici qeydə alınıb. Onlar Səbail bələdiyyəsi üzrə namizədliyi qeydə alınmış 31 namizəddən 17 nəfəri seçməlidirlər. Tünzalə Mikayılava məni 25 saylı məntəqənin daimi üzvləri ilə də tanış etdi. Onlardan 2 nəfəri Mizağa Ağayev və Xanlar Qənbəroov şəhid atalarıdır.

27 saylı seçki məntəqəsi isə qonşu 51 saylı orta məktəbin binasında yerləşir. Məntəqənin sədri Gülxar Quliyeva səsvermə prosedurunun yüksək səviyyədə keçdiyini söylədi.

7 saylı Səbail dairə seçki komissiyasının sədri Cahangir Məmmədov bildirdi ki, dairə üzrə 41 daimi, 1 müvəqqəti seçki məntəqəsi fəaliyyət göstərir. Dairə üzrə 52 min 293 seçici qeydə alınıb. Seçicilər tam sərbəst şəkildə Səbail və Badamdar bələdiyyələri üzrə ən layiqli hesab etdikləri namizədə səs verəcəklər.

C.Məmmədov onu da qeyd etdi ki, bütün seçki dairələri ilə operativ qaydada əlaqə saxlayır və heç bir məntəqədə seçki pozuntusu qeydə alınmayıb.

***

"7 saylı Səbail Seçki Dairəsinin 23 saylı məntəqəsi 1440 secisini əhatə edir. Vətəndaşların rahat və şəffaf səs vermələri üçün zəruri şərait yaradılıb". Bunu isə XQ-ya açıqlamasında seçki məntəqəsinin sədri Aydın Ağayev söylədi.

Sədrin sözlərinə görə, saat 11 üçün artıq 50-dən çıx seçici özünün səsvermə hüququndan istifadə edib. Bu məntəqədə söhbət etdiyimiz müşahidəçilər səsvermə prosesinin tam şəffaf və qaydalara uyğun şəkildə davam etdiyini, heç bir qanun pozuntusuna yol verilmədiyini vurğuladılar.

Səsvermənin şəffaf və demokratik şəkildə keçirilməsi, komissiya üzvlərinin və müşahidəçilərin normal fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını bildirən Səbail rayonundakı 2 saylı seçki məntəqəsinin sədri Süleyman Əliyev sahə üzrə 1332 seçicinin qeydiyyata alındığını qeyd etdi. Məntəqə sədrinin sözlərinə görə, səsvermə prosesini 21 müşahidəçi izləyir, ən gənc seçicinin 18, ən yaşlı seçicinin isə 94 yaşı var.

## Nəsimi

**Nəsimi rayonunun 2 müstəqil və Səbail rayonunun isə bir müştərək seçki dairəsinin məntəqələrində də növbəti bələdiyyə seçkiləri mütəşəkkil, yüksək siyasi fəallıq şəraitində keçirdi.**

Paytaxtın iri yaşayış massivlərindən olan mikrorayonlardakı 21 saylı dairənin seçiciləri, necə deyərlər, çox da uzağa getmədən – binalardan çıxıb ən yaxın məsafədəki məktəblərdə, mədəniyyət ocaqlarında, sosial obyektlərdə təşkil olunmuş məntəqələrdə rahat və ahəngdar şəkildə səs verirdilər. 21 saylı DSK-nin 5 saylı məktəbdə yerləşən 15 saylı məntəqəsində də seçicilərin siyasi fəallığı, önəmli vətəndaş hüququndan istifadə həssaslığı açıq-aydın duyulurdu.

Bayırdakı izdihamdan qruplarla ayrılıb içəri daxil olan seçicilər "barmaq yoxlanışı"ndan keçib seçki qərargahına yaxınlaşırdılar. Onlar burada "şəffaf mürəkkəb" əməliyyatından sonra bülleten alıb pərdə arxasında seçimlərini edirdilər. Qarşı tərəfdə əyləşmiş müşahidəçilər prosesi nəfəsdərmədən izləyirdilər. Səhər saatları olsa da, şəffaf qutulardan 2-si artıq dolmuşdu.

Məntəqə komissiyasının sədri Məlahət Hüseynova bildirdi ki, ərazidə yaşayan 1373 seçiciyə qabaqcadan bildirişlər göndərilib. Proses baş tutub, bunu yaranmış növbə də sübut edir. Bayırda toplaşanları da nəzərə alsaq, deyə bilərik ki, iştirak fəallığı yüksəkdir. Buna isə səbəb odur ki, Nəsimi Bələdiyyəsinin 19 üzvlüyünə 25 nəfər iddialıdır. Onların tərəfdarları bu gün öz namizədlərinə dəstək olmağa gəliblər.

10 nəfərə yaxın müşahidəçilərin arasında hərbi geyimli, yaxası orden-medallı 2 qazi də var idi. Xüsusi təyinatlı dəstənin əsgəri olmuş Muxtar Qocayev və Füzulidən Şuşayadək döyüş yolu keçmiş Nurlan Yusifov bildirdilər ki, Qarabağ zəfərimizə layiq seçki prosesi təşkil edilib. Səsvermə şəffaf və demokratik qaydada keçir.

Digər müşahidəçilərdən Könül Rzayeva, Aidə Təhməzova, Tahirə Ağayeva və Gülarə İsayeva da indiyədək heç bir qayda pozuntusu olmadığını dedilər. Onlar qeyd etdilər ki, məqsədləri geniş təşviqat aparmış, proqramları ilə adamları inandırmış ən yaxşıların ədalətli surətdə seçilməsinə ictimai nəzarəti təmin etməkdir.

Baş çəkdiyimiz başqa məntəqələrdə də eyni mənzərənin şahidi oldurduq.

***

23 saylı Nəsimi Seçki Dairəsinin 12 saylı seçki məntəqəsində seçicilərin fəallığı diqqətimizi cəlb etdi. Saat 12-yə qədər 170-ə yaxın seçici artıq səsvermə hüququndan istifadə etmişdi. Bunu bizə seçki məntəqəsinin sədri Aytən Baxşıyeva bildirdi.

Məntəqə müasir avadanlıqla, veb-kamera ilə təchiz olunub. Seçici Səfurə İbrahimlinin qəzetimiz üçün dedikləri məntəqə sədrinin açıqlaması ilə üst-üstə düşdü: "Birinci dəfə deyil səsvermədə iştirak edirəm. Seçkidən-seçkiyə irəliləyişin, müasirləşmənin, dünya standartlarına yaxınlaşmağımızın şahidi oluram.

## Yasamal

**17 saylı Yasamal III Seçki Dairəsinin 15 saylı seçki məntəqəsinin sədri Şərafət Feyzullayeva dedi ki, ərazidə 1245 nəfər seçici var. Əvvəlcədən bülletenlər seçicilərə çatdırılıb. Səhər saat 8-də məntəqə səsvermə üçün açılıb. İlk saatlarda 150 nəfər səs verib.**

Seçkini izləyən müşahidəçilərin fikrini də öyrəndik. Sevinc Məmmədova dedi ki, Yeni Azərbaycan Partiyasını təmsil edirəm. Saat 8-dən buradayam. Seçicilər sərbəst olaraq gəlib səs verirlər. Heç bir narazılıq yoxdur. Bütün seçicilər üçün rahat şərait yaradılıb.

Seçicilərdən Lalə Muradəliyeva isə söylədi ki, Tolstoy küçəsi, 121 ünvanda yaşayıram. Bələdiyyə seçkilərinə inamım böyükdür. Çünki bu seçkilər demokratiyanın təzahürüdür. İstədiyim və etibar etdiyim namizədə səs verdim. Azərbaycanda keçirilən hər yeni seçkilər müstəqilliyimizin bizə töhfəsidir.

16 saylı seçki məntəqəsinin sədri Fizzə Həmidova XQ-yə bildirdi ki, məntəqədə 1174 seçici qeydə alınıb. Onlar səsvermədə fəal iştirak edirlər. Heç bir şikayətlə üzləşməmişik.

## Nizami

**Bələdiyyə seçkiləri ilə bağlı 24 saylı Nizami Birinci Seçki Dairəsinin seçki məntəqələrində yüksək fəallıq müşahidə edilirdi. 49 min seçici 36 seçki məntəqəsində səs verirdilər. Onların sərbəst şəkildə səs vermələri üçün hər cür şərait yaradılmışdı.**

Bu məntəqələrdən biri də 16 saylı seçki məntəqəsidir. Məntəqənin sədri Həbibə Ələkbərova bildirdi ki, səsvermə qanunvericiliyə uyğun təşkil olunub, burada vətəndaşlar öz iradələrini sərbəst şəkildə ifadə edirlər. Onun sözlərinə görə, məntəqədə 1475 seçici və 29 namizəd qeydiyyata alınıb. Səsvermənin gedişini isə 20-dək yerli müşahidəçi izləyir.

220 saylı məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində də fəallıq müşahidə olunurdu. Söhbət zamanı 1 saylı seçki məntəqəsinin sədri Rövşən Məmmədov bildirdi: "Məntəqə seçki prosesi üçün lazım olan bütün avadanlıqlarla təmin olunub. Bələdiyyə üzvlüyünə 29 namizəd qeydiyyata alınıb. Onlardan 19 nəfər bələdiyyə üzvü seçiləcək. Müşahidəçilər seçki prosesini diqqətlə izləyirlər. Səsvermə prosesi demokratik şəkildə davam edir".

Qeyd edək ki, məktəbdə yerləşən 2, 3 və 4 saylı seçki məntəqələrində də seçki fəallığı diqqət çəkirdi. Seçicilər yüksək əhval-ruhiyyə ilə namizədlərə səs verirdilər.

## Binəqədi

**Paytaxtın Binəqədi rayonunda da ölkəmizdə keçirilən növbəti bələdiyyə seçkilərinə hazırlıq işləri yüksək səviyyədə başa çatdırılıb. Bu da rayon ərazisində təşkil edilmiş seçki dairələrinə daxil olan məntəqələrdə səsvermə prosesinin azad, şəffaf və mütəşəkkil keçirilməsi üçün hərtərəfli şərait yaradıb.**

8 saylı Binəqədi Birinci Seçki Dairəsinin dairə seçki komissiyasının sədri Natiq Əliyev qeyd etdi ki, dairə üzrə, ümumilikdə, 927 nəfər yaşlı seçici var. Yaşlı şəxslərin əksəriyyəti daşınan seçki qutusundan imtina edib. Ümumilikdə, dairə üzrə 33 namizəd qeydə alınıb, təşviqat dövründə namizədlər üçün bütün şərait yaradılıb. Bu seçkilərdə 10 seçki məntəqəsində veb-kamera quraşdırılıb.

11 saylı məntəqədə də seçicilər səsvermədə yüksək fəallıq nümayiş etdirirdilər. Məntəqə sədri Yadigar Paşayev bildirdi ki, bu seçki məntəqəsi üzrə 1314 nəfər seçici qeydə alınıb. İlk dəfə səs verəcək seçici sayı bir nəfərdir. Daşınan qutu ilə bağlı müraciət olmayıb. Seçkilər tam şəffaf şəraitdə keçirilir. Səsvermə prosesini onlayn rejimdə izləmək mümkündür.

12 saylı məntəqədə də bələdiyyə seçkilərində seçicilərin şəffaf və demokratik şəraitdə səs vermələri üçün məntəqədə bütün şərait yaradılıb. Məntəqə sədri Rəfiqə Əliyevanın sözlərinə görə, səsvermə prosesində qanunvericiliyə uyğun olaraq bütün zəruri prosedurlar həyata keçirilir. Hər hansı qanun pozuntusu aşkarlanmayıb.

***

8 saylı Binəqədi Birinci Seçki Dairəsinin 4 saylı məntəqəsində 1200-ə yaxın seçici qeydə alınıb. Seçicilərin sərbəst, maneəsiz şəraitdə səs vermələri üçün burada hər cür şərait yaradılıb.

Məntəqə seçki komissiyasının sədri Fəridə Yunusova bildirdi ki, səs verəcək seçicilərin sayı 1144-dür. Dəqiqləşdirilmiş son seçici siyahılarına görə, məntəqə üzrə yaşı 80 -dən yuxarı olan 5 seçici qeydə alınıb. Səsvermədə iştirak edə bilməyən əlil və xəstə seçicilər səyyar seçki qutuları vasitəsilə mövqelərini bildirirlər. Məntəqədə səsverməni izləyən müşahidəçilər– Elmira Babayeva, Süsən Əhmədova və Fəridə Rüstəmova bildirirlər ki, indiyədək səsvermə qanunun tələblərinə uyğun keçib.

***

8 saylı Binəqədi Birinci Seçki Dairəsinin 25 saylı məntəqəsində də seçki siyasi fəallıq, şəffalıq şəraitində keçirdi. Məntəqə komissiyasının sədri Afiq Qasımov bildirdi ki, 19 bələdiyyə üzvlüyünə 33 nəfərin namizədliyi səsə qoyulub. 1292 seçici səsverməyə dəvət alıb.

Məntəqədə seçki prosesi ilə bağlı bütün qaydalara dəqiq əməl olunurdu. Müşahidəçilər hər şeyə diqqətlə göz qoyurdu, səsvermə vətəndaşların bələdiyyə seçkilərinə böyük maraq göstərdiyini nümayiş etdirirdi.

## Xətai

**Bələdiyyə seçkiləri paytaxtımızın əhalisinin sayına görə ən böyük rayonlarından olan Xətai rayonunda da yüksək seçici fəallığı şəraitində keçdi. Səhər saatlarından etibarən apardığımız müşahidələr seçicilərin seçki məntəqələrinə axın etdiyini aydın şəkildə göstərirdi.**

Qeyd edək ki, Xətai rayonu ərazisində 4 seçki dairəsi fəaliyyət göstərir. Bunlar 33 saylı Xətai birinci, 34 saylı Xətai ikinci, 35 saylı Xətai üçüncü və 36 saylı Xətai-Suraxanı seçki dairələridir. Biz 35 saylı Xətai Üçüncü Seçki Dairəsinin 17, 19 və 31 saylı məntəqələrində müşahidələr apardıq. Həmin məntəqələr Birinci Qarabağ müharibəsində şəhid olan Milli Qəhrəman Tahir Bağırovun adını daşıyan 59 saylı tam orta məktəbdə yerləşir.

Məntəqə seçki komissiyasının girişində səs verməyə gələn seçicilərin barmaqları ultrabənövşəyi şüalarla təchiz olunmuş xüsusi detektorlarla diqqətlə yoxlanılırdı. Seçkidə şəffaflığın təmin edilməsinin mühüm elementi olan həmin cihazla yoxlama səs verməyə gəlmiş seçicinin bundan öncə səs verib-vermədiyini aşkarlamaq üçündür. Seçki bülleteni alaraq kabinəyə yaxınlaşan seçicinin barmağına isə təkrar səs verə bilməməsi üçün gözlə görünməyən mürəkkəb vurulurdu.

17 saylı məntəqə seçki komissiyasının sədri Xalidə Nəbiyeva bildirdi ki, məntəqədə qeydiyyatda olan seçicilərin sayı 1396 nəfərdir. Biz məntəqədə olanda onlardan 397 nəfəri səsvermə hüququndan istifadə etmişdi. Məntəqədə müşahidəçilərin sayının çoxluğu diqqəti cəlb edirdi. Onu da öyrəndik ki, 17 saylı məntəqə Mərkəzi Seçki Komissiyasının veb-kamera quraşdırdığı 1000 seçki məntəqəsindən biridir.

## Xəzər

**Dünən Bakının Xəzər rayonunda bələdiyyə seçkiləri demokratik, azad və sərbəst şəkildə keçirildi. Rayondakı dairə və məntəqə seçki komissiyalarının ərazisində apardığımız müşahidələrdən məlum oldu ki, seçicilər mütəşəkkil qaydada gələrək istədikləri namizədlərə səs verirlər.**

12 saylı Xəzər Birinci Dairə Seçki komissiyasının sədri Mütəllim Balaqardaşov bildirdi ki, ərazi üzrə 48 min 9 daimi seçici qeydə alınıb.

Saat 12-də məntəqə komissiyalarından daxil olan məlumata görə, seçicilərin 7 min 609 nəfəri seçkidə iştirak edərək öz səslərini verib ki, bu da ümumi seçicilərimizin 15,8 faizi deməkdir. Bundan əlavə, yerli müşahidəçilər də səhər məntəqələr açılandan səsvermənin gedişini izləyiblər. Bütün məntəqələrdə seçicilərin barmaqları şəffaf mürəkkəblə rənglənib.

Sonra dairənin ərazisindəki 1 saylı seçki məntəqəsində olaraq səsvermənin gedişi ilə tanış olduq. Burada məntəqə komissiyasının sədri Failə Rüstəmova bildirdi ki, ərazidəki seçicilərin sayı siyahı üzrə 1289 nəfərdir: Səhər saat 12-yə qədər səs verənlərin sayı isə 200 nəfər olub. Burada 85 yaşlı seçici Ənvər Mustafa oğlu Mustafayevin də səs verdiyini gördük. Əməkdar müəllim bildirdi ki, həmişə ailəsi ilə birgə bütün seçkilərdə yaxından iştirak edir. Bu il də səs vermək üçün məntəqəyə gəlib.

## Pirallahı

**Dünən Pirallahı rayonunun seçiciləri də bələdiyyə seçkilərində fəallıq və mütəşəkkilliklə iştirak etdilər. Bunu rayonun seçki məntəqələrində apardığımız müşahidələr də sübut etdi.**

14 saylı Xəzər–Pirallahı Dairə Seçki komissiyasının sədri İmran Qəmbərov bildirdi ki, ərazidə 50 min 485 seçici siyahılara daxil edilib. DSK üzrə 93 namizəd qeydə alınıb. Saat 12-yə olan məlumata görə, 8 min 249 seçici məntəqələrə gələrək səsvermə hüququndan istifadə edib.

Dairənin 4 sayı seçki məntəqəsində sədr Zümrüd Abbasova qeyd etdi ki, seçicilərin ümumi sayı 1186 nəfərdir. Səhər saat 12-yə qədər 205 seçici səsvermədə iştirak edib. Məntəqədə bir neçə müşahidəçinin seçki prosesini izlədiyini gördük. Yeni Azərbaycan Partiyasının müşahidəçisi Vəfa İsmayılova gün ərzində heç bir pozuntu olmadığını, prosesin qanunlara uyğun, demokratik və şəffaf şəkldə davam etdiyini bildirdi.

**Materialları hazırladılar:**
**Tahir AYDINOĞLU,**
**Məsaim ABDULLAYEV,**
**Vaqif BAYRAMOV,**
**İmran BƏDİRXANLI,**
**Zərifə BƏŞİRQIZI,**
**Mirbağır YAQUBZADƏ,**
**Paşa ƏMİRCANOV,**
**Pünhan ƏFƏNDİYEV,**
**Kəmalə ABDİNOVA,**
**Səxavət HƏMİD**
**XQ**

# Xalq bələdiyyələrdən daha yüksək fəallıq gözləyir

## Naxçıvan

**Muxtar respublikada keçirilən bələdiyyə seçkiləri 6 dairə, 330 məntəqə üzrə 44 bələdiyyəni əhatə edirdi. Ümumilikdə, həmin dairələrdə 286 min 956 seçici qeydiyyata alınıb ki, onlardan 1889-u ilk dəfə səsvermə hüququndan istifadə edib.**

4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin əhatə etdiyi məntəqələrdə olduq. Dairə komissiyasının sədri Ramil Sadıqovun verdiyi məlumata görə, dairə üzrə 44 məntəqə fəaliyyət göstərir. Həmin məntəqələrin 4-də veb-kameralar quraşdırılıb. Dairə üzrə 46 mindən çox seçici qeydiyyata alınıb ki, onlardan 237-si ilk dəfə səsvermə hüququndan istifadə edib.

Dairənin 12 saylı məntəqəsində olarkən burada 1262 seçicinin qeydə alındığını öyrəndik. Bu məntəqədə veb-kamera da quraşdırılmışdı və seçkilərin yüksək əhval-ruhiyyədə keçməsi, şəffaflığın təmin olunması, yerli müşahidəçilərin, eləcə də media nümayəndələrinin prosesi sərbəst izləməsi üçün əlverişli şərait yaradılmışdı.

Naxçıvan şəhərindəki Hüseyn Cavid adına tam orta məktəbdə təşkil olunmuş 21 saylı seçki məntəqəsində də seçici fəallığı hiss olunurdu. Naxçıvan şəhər sakini, 74 yaşlı Zeynəb Nəcəfova bizimlə söhbətində bildirdi ki, həyatında artıq neçənci dəfə səs verdiyini xatırlamır, amma hər zaman bu hüququndan istifadə edərək ən layiqli namizədlərə səs verib. Ümid edir ki, bələdiyyə üzvü olmaq üçün yetərli qədər səs toplayan namizədlər etimada layiq fəaliyyət göstərəcəklər.

5 saylı Babək–Naxçıvan–Culfa Seçki Dairəsinin Culfa şəhərində yaradılmış 35 və 36 saylı məntəqələrində də seçicilər üçün lazımi şərait yaradıldığının şahidi olduq. 35 saylı seçki məntəqəsində seçici sayı 1477, 18 yaşı tamam olan və ilk dəfə səs verən isə 9 nəfər idi. 36 saylı seçki məntəqəsində isə 1475 seçici, ilk dəfə səs verən qeydə alınmayıb.

6 saylı Ordubad–Culfa Seçki Dairəsinin Yaycı kəndindəki 43 saylı seçki məntəqəsində də bələdiyyə seçkilərinə hazırlıq yüksək səviyyədə həyata keçirilmişdi. Səsvermə üçün məntəqəyə gəlmiş yazıçı-jurnalist Fərəc Fərəcov bildirdi ki, 1999-cu ildə yaradılan və yerli özünüidarətmə təsisatı olan bələdiyyələr müstəqil dövlətçiliyimizin həyatında önəmli yer tutur. Buna görə də bələdiyyələrin fəaliyyəti ildən-ilə təkmilləşir və genişləndirilir. Bələdiyyələrdə çalışanlara lazımi şərait yaradılır. Müsahibimiz inandığı, təşkilatçılıq qabiliyyətinə yaxından bələd olduğu namizədlərə səs verdiyini bildirdi. Qeyd edək ki, Yaycı kəndinin 102 yaşlı sakini, 1923-cü il təvəllüdlü Abdulla Səfərov da bu məntəqəyə gələrək səs verib.

Müvafiq dairə sədrlərindən aldığımız məlumatlara görə, 1 saylı Şərur–Sədərək Seçki Dairəsinin Sədərək rayonu üzrə 11 seçki məntəqəsi yaradılıb. Dairə üzrə seçicilərin sayı 48 min 81 nəfərdir. Onların 35 min 49-u Şərur, 13 min 32-si Sədərək rayonunun payına düşür. Məntəqələrdə 343 seçici ilk dəfə səs verib.

2 saylı Şərur–Kəngərli Seçki Dairəsində isə 57 daimi, 1 müvəqqəti seçki məntəqəsi yaradılıb. Həmin məntəqələrin 42-si Şərur rayonundadır. Dairə üzrə 50 min 224 seçici qeydə alınıb ki, onlardan 353-ü ilk dəfə siyasi kampaniyaya qoşulub. Seçkilərə yüksək hazırlıq işləri görülüb, məntəqələrdə veb-kameralar quraşdırılıb və seçkilərin gedişatını internet vasitəsilə izləmək mümkün olub.

3 saylı Babək–Şahbuz–Kəngərli Seçki Dairəsi üzrə 64 seçki məntəqəsi fəaliyyət göstərir. Həmin məntəqələrdən 29-u Babək, 29-u Şahbuz, 6-sı Kəngərli rayonu ərazisində yerləşir. Dairə üzrə 47 min 95 seçici qeydə alınıb ki, onlardan 24 min 454-ü Babək, 16 min 779-u Şahbuz, 5862-i isə Kəngərli rayonunun sakinləridir.

5 saylı Babək-Naxçıvan-Culfa Seçki Dairəsi üzrə 47 məntəqə yaradılıb, həmin məntəqələrin 5-də veb-kamera quraşdırılıb. Dairə üzrə seçicilərin sayı 48 min 875 nəfərdir ki, onlardan 22 min 358-i Babək rayonunun, 13 min 678-i Naxçıvan şəhərinin, 12 min 839-u Culfanın payına düşür. Dairə üzrə ilk dəfə səs verənlərin sayı 79 nəfərdir.

6 saylı Ordubad–Culfa Seçki Dairəsi üzrə 63 seçki məntəqəsi fəaliyyət göstərir. Bu dairənin əhatə etdiyi ərazilər üzrə 45 min 841 seçici qeydə alınıb ki, onların 274-ü ilk dəfə olaraq seçkidə iştirak edib. Ordubad rayonu üzrə 42 məntəqədə seçicilər öz namizədlərinə səs veriblər.

Qeyd edək ki, ölkəmizdə keçirilən bələdiyyə seçkilərində Naxçıvan Muxtar Respublikası üzrə 970 namizəd qeydə alınıb ki, bu namizədlər 44 bələdiyyə üzrə 512 yer uğrunda mübarizə aparıblar.

## Gəncə

**Azərbaycanda növbəti bələdiyyə seçkiləri Gəncədə də yüksək səviyyədə, aşkarlıq şəraitində keçirilib.**

Məntəqələrə gələn seçicilər fəallıq nümayiş etdiriblər. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov da səsvermədə iştirak edərək səhər saatlarında 39 saylı Gəncə II Seçki Dairəsinin 4 saylı seçki məntəqəsində olub.

Məlumat üçün bildirək ki, Gəncə şəhəri üzrə 4 dairə var. Bunlar 38 saylı Gəncə I, 39 saylı Gəncə II, 40 saylı Gəncə III və 41 saylı Gəncə-Samux-Goranboy seçki dairələridir.








Səhər saat 8-də açılan məntəqələrdə seçicilər bələdiyyələrə olan inamı bir daha öz fəallıqları ilə sübut etmişlər. Qeyd edək ki, şəhər üzrə səsvermə hüququ olan vətəndaşların sayı 181 min 247 olmuşdur.

Dünən Gəncə şəhər Kəpəz və Nizami bələdiyyələrinə ümumilikdə 38 üzv seçilmişdir ki, bu yerlər üçün də 4 DSK üzrə 84 nəfər mübarizə aparmışdır.

38 nömrəli məktəbdə yerləşən 16 saylı məntəqədə olarkən sədr Ləman Həsənova söhbət zamanı dedi ki, bələdiyyə seçkilərinə heç vaxt bu qədər böyük maraq olmayıb. Müşahidəçilərdən Mehriban Babayeva, Sahilə Abdullayeva və başqaları da eyni fikri söylədilər.

## Sumqayıt

**Bələdiyyələr üçün keçirilmiş sayca 6-cı ümumrespublika seçkisi Sumqayıtda 6 dairənin məntəqələrində mütəşəkkilliyi ilə fərqlənib.**

...Sumqayıtın qəsəbələri istisna olmaqla, şəhərin özündən ümumilikdə 53 namizəd qüvvəsini sınayıb. Qəsəbələrlə birlikdə isə şəhərdə 19 bələdiyyə formalaşdırılacaq. Üzvlüyə namizədlər arasında Yeni Azərbaycan Partiyasından olanlar üstünlük təşkil edib. Seçkidə həmçinin digər partiyaların – KXCP, Ağ Partiya, Müsavat, ÜMİD, VP, DİP, MCP, AVP, MDHP, ƏHD-in üzvləri və müstəqil şəxslər də namizədlikləri irəli sürüb. Sumqayıtdan seçki mübarizəsinə qoşulanlar arasında gənclər də çox idi.

Biz seçkilərə jurnalist müşahidələrimizə 42 saylı Sumqayıt Birinci Seçki Dairəsindən başladıq. Dairə seçki komissiyasının sədri Təravət Rəsulova ümumi məlumat verərək bildirdi ki, 41 məntəqənin 7-də veb-kameralar var. Burada seçicilərin ümumi sayı 48 min 11 nəfərdir. Onların 259-u ilk dəfə səsvermə hüququndan istifadə edir. 80–100 yaş arası seçicilər 726 nəfərdir. İrəlicədən görüşlər, təlimlər, məlumatlandırmalar keçirilib ki, seçkilər zamanı heç bir problem olmasın. Biz də gün ərzində gəzdiyimiz məntəqələrin heç birində nə seçici, nə də müşahidəçi narahatlığına rast gəlmədik.

Sonra 47 saylı Sumqayıt–Abşeron–Qaradağ Seçki Dairəsində olduq. Komissiya sədri İlqar Allahverdiyev nikbin idi. O dedi ki, 52 min 99 seçicinin 43 məntəqədə öz iradəsini sərbəst ifadə etməsi üçün hər cür şərait yaradılıb. İlk dəfə səs verənlər 395, ən yaşlı seçicilər isə 334 nəfərdir.

Dairənin Texniki və Təbiət Elmləri Liseyindəki ilk məntəqəsində səsvermə bütün qaydalara ciddi riayət olunmaqla gedirdi. Orada qəzetimiz üçün foto-şəkillər də çəkdik. Corat qəsəbəsindəki məntəqədə isə ilk dəfə səs verən seçici Hüseyn Mirzəağayevin doğum günü olduğu üçün ona təbrik açıqcası verildiyinin şahidi olduq. Hüseyn təbrikimizə cavab olaraq dedi:

– Artıq bir vətəndaş kimi seçib-seçilmək hüququm olduğu üçün sevinirəm. Mən namizədlərin çoxunu tanımıram. Amma seçkiqabağı təşviqat zamanı məndə inam yaratmış təqdimatları əsas götürərək səs verdim. Şəhərimiz onsuz da gözəl və yaraşıqlıdır.



Qoy, yeni formalaşan bələdiyyənin səyləri ilə daha da gözəl olsun!

Sumqayıtdakı 43 saylı İkinci Seçki Dairəsində də olduq. Dairə Seçki Komissiyasının sədri Xəyal Məlikova daha səmimi göründü. Çünki əvvəldən də tanış olduğumuz Xəyal uzun illər "Sumqayıt" qəzetinin baş redaktoru olmuş mərhum həmkarımız – Əməkdar jurnalist Qüdrət Məlikovun oğludur. Onlar bu il yaranmasının 150 illiyini qeyd edəcəyimiz Azərbaycan milli mətbuatının ilk "qaranquş"u olan "Əkinçi" qəzetinin banisi və redaktoru Həsən bəy Zərdabi Məlikovun nəslindəndirlər.

Xəyal Məlikov səsvermənin gedişi barədə danışaraq bildirdi ki, saat 12:00-a qədər bu göstərici 13,7 faiz olub. Ərazidə yaşayan və səsvermə hüququ olan 48 min 180 nəfər vətəndaş yerli idarəetmə orqanında təmsil edilmək istəyən ən layiqli namizədlərə səs vermək üçün məntəqələrə gəlir. Özü də gənclik şəhərində məntəqələrinə ən çox veb-kamera quraşdırılan dairə məhz 43 saylıdır. Seçicilərdən 345-i ilk dəfə bu hüququndan istifadə edir, 558 nəfər isə yaşlı seçicidir və indiyədək dəfələrlə bu cür ictimai-siyasi kampaniyalarda iştirak ediblər. Hər kəs – gənclər də, ağsaqqal və ağbirçəklər də növbəti müddət üçün bələdiyyəyə daha bacarıqlı, çalışqan, doğma şəhərin təəssübkeşi olan namizədlərin seçilməsini arzulayırlar.

## Mingəçevir

**Mingəçevirdə bələdiyyə seçkilərinə ciddi hazırlıq görülüb. Seçkiqabağı təşviqatın aparılması və görüşlərin keçirilməsi üçün yerlər müəyyənləşdirilib.**

Təbliğat kampaniyası zamanı bələdiyyə üzvlüyünə namizədlər və onları təmsil edənlər vətəndaşlarla görüşlərində fikir və təkliflərini, gələcək fəaliyyət planlarını təqdim ediblər.

54 saylı Mingəçevir Dairə Seçki Komissiyasının 40 seçki məntəqəsi var. 50269 seçici, eyni zamanda 703 gənc ilk dəfə səs vermək hüququna malikdir. Seçkilərə bir həftə qalmış seçicilərə bildirişlər paylanıb. 12 məntəqədə veb-kameralar quraşdırılıb, müşahidəçilər, ayrı-ayrı qurumları, partiyaları təmsil edən 421 nəfər müşahidəçi üçün hər cür şərait yaradılıb.

53 saylı Yevlax Mingəçevir Dairə Seçki Komissiyasının tərkibində 16 məntəqə, o cümlədən 1 məntəqə hərbi hissədə yaradılıb. 2 məntəqədə veb kameralar quraşdırılıb. 19726 nəfər seçicisi olan məntəqələrdə müxtəlif partiyaları və qurumları təmsil edən 80 müşahidəçi qeydiyyatdan keçib.

**Seçici – "Mingəçevir" qəzetinin baş redaktoru Mirsədi Daşdəmirovun dedikləri:**

– Bizim "Nur şəhəri"ndə bütün seçkilər, o cümlədən bələdiyyə seçkiləri hər zaman mütəşəkkilliyi, seçici fəallığı ilə diqqət çəkib. Çünki mingəçevirlilər tam əksəriyyətlə dövlətimizin siyasətini dəstəkləyir, qanun çərçivəsində, ədalətli rəqabətlə parlamentə, bələdiyyələrə ən layiqlilərin seçilməsinə çalışırlar. Bu baxımdan bu gün də müşahidə olunan fəallıq təbiidir. Arzu edirəm ki, yeni formalaşacaq yerli özünüidarətmə orqanında da bu ada layiq olanlar təmsil edilsinlər.

Bu gün, yanvarın 29-da səhər tezdən başlayaraq mingəçevirli seçicilər könüllü olaraq seçki məntəqələrinə gedərək heç bir müdaxilə olmadan səs veriblər. Ümumilikdə bələdiyyə üzvlüyünə namizədliyini verən 44 nəfər 19 yer uğrunda mübarizə aparıb. Seçicilərlə söhbət zamanı onlar bildirirlər ki, azad şəkildə öz vətəndaşlıq borclarını yerinə yetiriblər, məntəqəyə daxil olduqdan sonra onların əvvəlcədən səs vermədiyi xüsusi aparat vasitəsi ilə yoxlanılıb, şəxsiyyət vəsiqəsini komissiya üzvünə təqdim etdikdən sonra etimad etdikləri namizədlərə səs veriblər.

## Lənkəran

**Şairlərin "Cənub mirvarisi" adlandırdığı Lənkəranda da şəhər sakinləri, kənd və qəsəbələrdə yaşayan vətəndaşlar bələdiyyə seçkilərində fəallıq göstəriblər.**

Səhər saatlarından etibarən lənkəranlı seçicilər mütəşəkkilliklə məntəqələrə gəlib, istədikləri namizədlərə səs veriblər. 77 saylı Lənkəran Şəhər Seçki Dairəsinin Dairə Seçki Komissiyasının sədri İqbal Rəcəbov bildirib ki, dairə üzrə səsvermənin gedişini 453 nəfər yerli müşahidəçi izləyib.

77 saylı Lənkəran Şəhər Seçki Dairəsində 41 seçki məntəqəsi üzrə ümumilikdə 47,869 seçici qeydə alınıb. Səsvermə prosesi Seçki Məcəlləsinə tam uyğun şəkildə təşkil edilib. Səsvermənin azad və demokratik şəraitdə keçirilməsi üçün bütün lazımi tədbirlər görülüb.

Müşahidələr göstərib ki, 76 saylı Lənkəran–Masallı, 77 saylı Lənkəran Kənd Seçki Dairələrinin dislokasiya olunduqları ərazilərdə də bələdiyyə seçkilərinin səsverməsi qüsursuz və mütəşəkkil keçib.

Axşam saat 19:00-da səsvermə başa çatandan sonra müşahidəçilərin iştirakı ilə, seçki qanunlarına tam uyğun, heç bir pozuntuya yol verilmədən tam aşkarlıq şəraitində səslərin sayılmasına başlanıb və rəqəmlər dəqiqləşdirilərək Mərkəzi Seçki Komissiyasına göndərilib. Gün ərzində səsvermə və bülletenlərin sayılması prosesindən heç bir müşahidəçinin narazılığı qeydə alınmayıb.

## Balakən

**Dünən sayca 6-cı olan bələdiyyə seçkilərində balakənlilər də fəal iştirak etdilər. Rayonda yerləşən 110 və 111 saylı seçki dairəsi üzrə 52 min 416 nəfər seçmək hüququ olan seçici yerli və seçkili idarəetmə orqanı olan bələdiyyələrə dəstəklədikləri namizədləri seçmək, onlara səs vermək üçün səhər saatlarından qeydiyyatda olduqları məntəqələrə gələrək istədikləri namizədlərə səs veriblər. Ayrı-ayrı məntəqələrdə söhbət zamanı seçicilər heç bir qanun pozuntusu olmadığını dönə-dönə vurğuladılar.**

Bölgənin ən yaşlı seçicisi, fevralın birində 100 yaşı tamam olacaq Böyük Vətən Müharibəsinin iştirakçısı İosif Pavloviç Perekrestov da səs verib.

## Göyçay

**Hər yerdə olduğu kimi Göyçay rayonunda da saat 08:00-dan etibarən seçki məntəqələri seçicilərin səs verməsi üçün açılıb və seçki prosesinə mütəşəkkilliklə start verilib.**

Yerli idarəetmə orqanına keçirilən bu tədbirdə Göyçay rayonu üzrə 91 saylı Göyçay və 92 saylı Göyçay-Ağdaş Dairə Seçki komissiyaları üzrə müxtəlif siyasi partiyaların və öz təşəbbüsü ilə 13 bələdiyyəyə qeydə alınmış namizədlər mübarizə aparıb.

Rayon seçki komissiyalarından aldığımız məlumata əsasən məntəqələrdə seçicilərin öz istəklərini demokratik şəraitdə reallaşdırmaları üçün hər cür şərait yaradılıb. Onlar sərbəst şəkildə bülleteni götürüb, kabinalara girib istədikləri namizədə səs veriblər. "Seçki fəallığına söz ola bilməz". Bu sözləri söhbət zamanı Göyçay rayon sakini Ağanəzər Xəlilov bildirdi. Onu da dedilər ki, şəhər üzrə ümumilikdə 77 seçki məntəqəsi mövcuddur. Göyçay rayonu üzrə səsvermə hüququ olan vətəndaşların sayı 81 939 nəfərdir.

## İsmayıllı

**İsmayıllı rayonunda 29 yanvar bələdiyyə seçkilərində məntəqələrdə yüksək seçici fəallığı müşahidə olunub. Seçkinin demokratik, şəffaf və qanunvericiliyə uyğun keçirilməsi diqqətdə saxlanılıb.**

Gəzdiyimiz ayrı-ayrı məntəqələrdə görüşdüyümüz müşahidəçilər seçkinin tam demokratik, şəffaf keçirildiyini bidirdilər. Heç bir qanun pozuntusunun olmadığını dedilər. Yerli özünüidarətmə orqanlarına irəli sürülən bir neçə namizədlə də söhbət zamanı seçkinin gedişindən narazı olmadıqlarını dilə gətirdilər. "Rayonda iki Dairə Seçki Komissiyası fəaliyyət göstərir. 89 saylı İsmayıllı şəhər Seçki Dairəsində seçicilərin sayı 51846 nəfər, 87 saylı Qobustan-Şamaxı-İsmayıllı şəhər Seçki Dairəsində seçicilərin sayı 7839 nəfər olmaqla rayon üzrə cəmi seçicilərin sayı 59685 nəfərdir. 89 saylı İsmayıllı şəhər DSK-nın əhatə etdiyi 64 məntəqənin 6-da veb-kameralar quraşdırılıb və gün ərzində məntəqələrdə seçkinin gedişi izlənilib.

## Göygöl

**Son vaxtlar Göygöl rayonu öz simasını xeyli dəyişmişdir. Rayon xeyli abadlaşdırılmış, bir sıra mühüm layihələrin həyata keçirilməsi reallaşdırılmış, adamların torpağa, əkib-becərməyə həvəsi xeyli artmışdır. Təbii ki, bu işlərin görülməsində yerli icra strukturları ilə yanaşı, bələdiyyələrin də rolu az olmamışdır.**

Dünən keçirilən növbəti bələdiyyə seçkiləri bir daha göstərdi ki, seçicilərin yerli özünüidarətmə orqanlarına ümidləri azalmayıb. 100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər Seçki Dairəsi üzrə seçki məntəqələrinin sayı 98 olmuşdur. Məntəqələrdə normal səs vermək üçün hər cür şərait yaradılmışdı.

Seçicilərin ümumi sayı isə 51 min nəfəri keçmişdir. Göygöl rayonu üzrə 33 mindən çox, Daşkəsən üzrə isə 17 min nəfərə yaxın olmuşdur. Bu dairə üzrə 100 yaşdan yuxarı seçici 4 nəfər, ilk dəfə səs verən isə 321 nəfər idi.

## Samux

**Samux keçən il istər Prezident seçkilərində, istərsə də parlament seçkilərində yüksək fəallıq göstərmişdi. Maraqlıdır ki, oxşar fəallıq bələdiyyə seçkilərində də baş vermişdir. Adamlar dəstə-dəstə məntəqələrə gəlir, öz adlarına siyahıda baxır, bəzən də bir-birləri ilə məsləhətləşir, kimlərə səs verəcəklərini bir daha götür-qoy edirdilər. Şəhər sakini Anar Qasımovla bu barədə söhbət edərkən dedi ki, adam bilmir kimə səs versin. Çünki əksəriyyətini tanıyıram, iş qabiliyyətlərinə bələdik, çox fəaldırlar. Gərək çalışaq ki, heç kim inciməsin.**

Həmin gün rayon üzrə 46 seçki məntəqəsi fəaliyyət göstərirdi. Seçicilərin sayı isə 39 min 592 nəfər idi. Onlardan da 115 nəfəri ilk dəfə səs verirdilər. Ən yaşlı seçici Samux şəhərinin Kolayır yaşayış massivində yaşayan Ziynət Səfərova olmuşdur.

**Səbuhi HƏSƏNOV,**
**İlqar HƏSƏNOV,**
**Əli NƏCƏFXANLI,**
**Hamlet QASIMOV**
**XQ**

Seçki – 2025

# Mərkəzi Seçki Komissiyası bələdiyyə seçkilərinin ilkin nəticələrini açıqlayıb






**Yanvarın 29-da Azərbaycanda mövcud olan 685 bələdiyyəyə seçkilər keçirilib. 685 bələdiyyəyə 8071 üzv seçilməli idi və bu bələdiyyələr Azərbaycanda mövcud olan 125 dairənin 118-nin ərazisini əhatə edib. Gün ərzində seçicilərin fəallığı ilə bağlı ictimaiyyətə beş dəfə məlumat verilib. Yekunda 1 milyon 874 min 810 nəfər səsvermədə iştirak edib ki, bu da ümumi seçicilərin 31,45 faizini təşkil edir. Ümumiyyətlə, bütün dairələrdə seçkilər normal keçib, gün ərzində Mərkəzi Seçki Komissiyasına seçkilərin nəticəsinə təsir edə biləcək heç bir məlumat daxil olmayıb.**

Bu sözləri Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bələdiyyə seçkilərinin ilkin nəticələri ilə bağlı keçirdiyi mətbuat konfransında deyib.

Ümumiyyətlə, Mərkəzi Seçki Komissiyasına və "qaynar xətt"ə heç bir şikayətin daxil olmadığını vurğulayan M.Pənahov bütün məntəqələrin vaxtında – saat 08:00-da açıldığını və 19:00-da bağlandığını bildirib. Qeyd edib ki, məntəqələrdə olan seçicilərin hamısı azad, sərbəst şəkildə səs verdikdən sonra artıq seçkilərə yekun vurulub və məntəqə seçki komissiyasının protokolları Seçki Məcəlləsinin tələbinə uyğun olaraq müşayiətlə dairə seçki komissiyasına çatdırılıb. Sonra isə həmin nəticələr Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilib.

Diqqətə çatdırılıb ki, bələdiyyə seçkiləri keçirilən 118 dairə seçki komissiyasının hamısından, həmçinin 4872 seçki məntəqəsindən, yəni, ümumi məntəqələrin 83,34 faizindən məlumatlar artıq MSK-nın internet səhifəsində yerləşdirilib. Ümumilikdə 660 bələdiyyədən məlumatlar daxil olub. Lider namizədlərin sayı isə 7791 nəfərdir. Ümumilikdə bu vaxtadək tam formalaşmış bələdiyyələrin sayı 413-dür. Bu da ümumi bələdiyyələrin 60,29 faizini təşkil edir. Bu, çox yüksək göstəricidir.

Məzahir Pənahov əlavə edib ki, aşağı seçki komissiyaları öz vəzifələrinin öhdəsindən qısa müddətdə çox yüksək səviyyədə gəliblər. Qalan cüzi məlumatlar daxil olduqca MSK-nın internet səhifəsində yerləşdiriləcək.

"Dairə seçki komissiyalarının protokolları yanvarın 30-dan etibarən MSK-ya daxil olmağa başlayacaq. Bundan sonra biz ilkin protokol məlumatları əsasında ictimaiyyəti nəticələrlə tanış edəcəyik", – deyə Məzahir Pənahov vurğulayıb.

# Ən yüksək seçici fəallığı qeydə alınan seçki dairəsi məlum olub

**Məlum olduğu kimi, yanvarın 29-da saat 19:00-da Azərbaycandakı bütün seçki məntəqələrində bələdiyyə seçkiləri ilə əlaqədar səsvermə başa çatıb.**

Son statistik məlumatlara əsasən, bələdiyyə seçkilərində ən yüksək seçici fəallığı 59 saylı Quba seçki dairəsində müşahidə olunub. Bu seçki dairəsində 49 min 795 seçicidən 19 min 172 nəfəri (38,50 faiz) səsvermədə iştirak edib.

XQ



# Mətbuat Şurasının "qaynar xətt"inə müraciət daxil olmayıb

**Dünən bələdiyyə seçkiləri ilə bağlı Mətbuat Şurasının "qaynar xətt" rejimində fəaliyyət göstərən mobil və şəhər telefon nömrələrinə prosesi işıqlandıran jurnalistlər tərəfindən heç bir şikayət daxil olmayıb.**

Qeyd edək ki, Şuranın (012) 441 35 96 şəhər, (050) 242 09 91 və (055) 789 85 03 mobil nömrələri səsvermə başlayan andan bitənədək "qaynar xətt" rejimində işləyib. Jurnalistlər qeyd edilmiş nömrələrlə əlaqə saxlayaraq, prosesin işıqlandırılması zamanı mümkün anlaşılmazlıqlar və problemlər barədə məlumat verə bilərdilər.

# Gürcüstan parlament nümayəndə heyəti AŞPA-dakı fəaliyyətini dayandırıb

**Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Gürcüstan nümayəndə heyətinin səlahiyyətlərinin qeyd-şərtlərlə tanınması bizim üçün qəbuledilməzdir, çünki onlar ədalətsiz və əsassızdır.**



Bu sözləri Gürcüstan parlamentin vitse-spikeri, AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Tea Tsulukiani Strasburqda keçirdiyi brifinqdə bildirib.

Onun sözlərinə görə, bu qərar "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyasının seçicilərinə və cəmiyyətin böyük əksəriyyətinə xəyanət etmək deməkdir.

Tsulukiani deyib ki, gürcü xalqının seçdiyi hakimiyyətə qarşı tam ədalətsiz və əsassız şantaj davam edir. Sübut və faktlara əhəmiyyət verilmir, müzakirələr qərəzli xarakter daşıyır və ölkəmizin əhalisinə qarşı təhqiramiz münasibətlə seçilir. Gürcüstan parlament nümayəndə heyətinin Assambleyada iştirakının heç bir mənası və əsası yoxdur.

"Bir çox insanlar, ilk növbədə bizim antidövlətçi müxalifət və qeyri-hökumət təşkilatlarının bir hissəsi Gürcüstanın yeni parlamentinin nümayəndə heyətinin səlahiyyətlərinin tanınmasına qarşı mübarizə aparıblar. Bu plan əvvəlcə komitənin dinləmələrində, sonra isə plenar iclasda iflasa uğradı və burada 306 üzvdən ibarət Assambleyanın yalnız 43 üzvü Gürcüstan nümayəndə heyətinə etimadnaməsinin verilməməsi üçün səs verdi", – deyə T.Tsulukiani vurğulayıb.

O deyib: "Biz Gürcüstan parlamentinin Strasburq və Tbilisidəki nümayəndə heyətinin üzvləri müzakirə etdik və "Gürcü Arzusu" komandasının birgə qərarı ilə mandatımızın təsdiq olunmasına baxmayaraq, işimizi bu gündən Parlament Assambleyasında dayandırdıq".

# Ərdoğan üçtərəfli görüşün iştirakçılarını qəbul edib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yanvarın 29-da Azərbaycan, Türkiyə və Özbəkistanın xarici işlər, ticarət və nəqliyyat nazirlərinin üçtərəfli görüşünün iştirakçılarını qəbul edib.**

Görüşdə Azərbaycan tərəfindən xarici işlər naziri Ceyhun Bayramov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və ölkəmizin Ankaradakı səfiri Rəşad Məmmədov, Özbəkistan tərəfindən xarici işlər naziri Baxtiyor Saidov, investisiya, sənaye və ticarət naziri Ləziz Kudratov və nəqliyyat naziri İlhom Maxkamov iştirak ediblər.

Türkiyə tərəfindən isə görüşə xarici işlər naziri Hakan Fidan, ticarət naziri Ömər Bolat, nəqliyyat və infrastruktur naziri Abdülkadir Uraloğlu və Prezidentin Xarici Siyasət və Təhlükəsizlik məsələləri üzrə baş müşaviri Akif Çağatay Kılıç qatılıb.

XQ

# Azərbaycan–Türkiyə iqtisadi əməkdaşlığının prioritet istiqamətləri müzakirə edilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Türkiyəyə səfəri çərçivəsində bu ölkənin ticarət naziri Ömər Bolatla görüşüb.**



Tərəflər Azərbaycan-Türkiyə iqtisadi tərəfdaşlığının gücləndirilməsi, ticarət dövriyyəsinin artırılması, KOB və biznes vahidləri arasında əlaqələrin fəal dəstəklənməsi və investisiyaların təşviqi üzrə ortaq hədəflərə çatmaq üçün mövcud imkanları müzakirə ediblər. Türkiyə şirkətləri Azərbaycanın işğaldan azad olunmuş ərazilərindəki sənaye parklarında yaradılan əlverişli biznes mühitindən yararlanmağa dəvət olunub.

Mikayıl Cabbarov, həmçinin Türkiyəyə səfəri çərçivəsində bu ölkənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarla da görüşüb. Görüşdə Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi və ölkələrimizin xüsusilə enerji sahəsində bir çox mühüm layihələr həyata keçirdiyi vurğulanıb. Enerji sahəsində işbirliyinin təkcə iki ölkənin iqtisadiyyatına deyil, regiona, xüsusilə də Avropanın enerji təhlükəsizliyinə töhfə verdiyi qeyd edilib. Ölkəmizdə "yaşıl" enerji sahəsində həyata keçirilən layihələr diqqətə çatdırılıb.

# BAMF uğurlarını genişləndirir

**Beynəlxalq Avrasiya Mətbuat Fondu Himayəçilik Şurasının yeni ildə keçirilən ilk iclasında qurumun ötənilki fəaliyyətinə yekun vurulub, növbəti hədəflərə nəzər salınıb.**



BAMF sədri Umud Mirzəyev ötən ilin yekun hesabatını şuranın diqqətinə çatdırıb. O, 2024-cü ilin əvvəlində qarşıya qoyulan hədəflər üzrə fəaliyyətlərin uğurla icra olunduğunu, təşkilatın regionda və beynəlxalq miqyasda həyata keçirdiyi mühüm layihələrin nəticələrini və qazanılan uğurlu tərəfdaşlıqları qeyd edərək bildirib ki, BAMF ötən müddətdə media və vətəndaş cəmiyyətinin inkişafı, mina aksiyası, dayanıqlı inkişaf məqsədləri və sosial istiqamətlərdə həm yerli, həm də beynəlxalq səviyyədə mühüm fəaliyyətlər həyata keçirmişdir.

Hesabatda BAMF-ın 2024-cü il növbədənkənar prezident seçkilərində müşahidəçilik missiyası, ənənəvi olaraq çoxsaylı yerli və xarici jurnalistlərin, diplomatların Qarabağa səfərlərinin təşkili, qadın minaaxtaran komandalarının uğurlu fəaliyyəti və nəticələri, onların fəaliyyətlərinin işıqlandırılmasında Bakı Media Mərkəzi və digər media qurumları ilə olan əməkdaşlıqlar, Azərbaycanda keçirilən beynəlxalq konfranslarda, tədbirlərdə, o cümlədən, COP29-da iştirakçılıq, BMT-nin Cenevrə ofisində yan tədbirin təşkili əksini tapıb.

"Sülhün kökləri" təşkilatının rəhbəri və qurucusu Heidi Kuhn, Banqladeş hökumətinin rəhbəri professor Məhəmməd Yunus, BMT-nin QHT bölməsinin rəhbəri Vuk Çin Çanq kimi önəmli şəxslərin səfərləri, BAMF-ın İcma Mina Aksiyası komandasının statistikası və digər əsas fəaliyyətlər, Tərtərdə qadın minaaxtaran komandaları üçün inşa edilən Peşə Tədris Mərkəzi barədə məlumat da təqdimatda yer alıb.

Himayəçilik Şurasının sədri Çingiz Abdullayev icra olunan fəaliyyətləri və əldə olunan nəticələri yüksək qiymətləndirib, hesabatın zəngin olduğunu vurğulayıb. Şura üzvləri Əflatun Amaşov, Rəşad Məcid və Vaqif Bəhmənli də BAMF-ın ötənilki fəaliyyətini təqdirəlayiq hesab ediblər.

İclasda BAMF-ın 2025-ci il üzrə fəaliyyət istiqamətlərinə uyğun qarşıya qoyulacaq hədəflər və gələcək fəaliyyət planı müzakirə olunub.

**T.RÜSTƏMLİ**
**XQ**

# Azərbaycan müasir nəqliyyat–kommunikasiya ölkəsinə çevrilir

*Bu sahə daxildə əhalinin rahatlığına, xaricdə beynəlxalq daşımaların səmərəliliyinə xidmət edir*



**Prezident İlham Əliyev nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə çıxış edərək Bakı şəhərinin və onun ətrafında yerləşən ərazilərin nəqliyyat infrastrukturunun inkişafının müzakirə edilməsinin təsadüfi olmadığını, buna zəruri ehtiyac duyulduğunu bildirib. Dövlət başçısı son illər ərzində bu istiqamətdə bir çox işlər görüldüyünü, böyük infrastruktur layihələrinin icra edildiyini, lakin buna baxmayaraq Bakı şəhərində yenə də tıxacların müşahidə olunduğunu və onun sayının ildən-ilə artdığını vurğulayıb.**

Ölkə rəhbəri çıxışında belə bir vəziyyətin təbii səbəblərlə bağlılığını da açıqlayıb: "Respublikamızın, o cümlədən Bakı şəhərinin əhalisi ildən-ilə artır. Son 30 il ərzində Azərbaycan əhalisi 7 milyondan 10 milyona çatıb, hətta o rəqəmi də ötüb. Əlbəttə ki, vaxtilə yaradılmış şəhər yol infrastrukturu, o cümlədən metro imkanları bu artımı həzm edə bilmir".

Prezidentin vurğuladığı kimi, Azərbaycanda nəqliyyat məsələləri həmişə diqqət mərkəzində saxlanılıb və son 15 ildə Bakı şəhərində bir sıra mühüm layihələr reallaşdırılıb, yeni metro stansiyaları istifadəyə verilib, yol qovşaqları, tunellər, körpülər inşa edilib, yeni yollar salınıb: "Əgər biz bu işləri görməsəydik, bu gün, ümumiyyətlə, Bakı şəhərində nəqliyyat iflic vəziyyətinə düşərdi. Amma yenə də görürük ki, növbəti böyük bir proqramın qəbul olunmasında böyük fayda olacaq. Bu məqsədlə bir müddət bundan əvvəl Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə dövlət proqramının hazırlanmasına dair müvafiq göstərişlər vermişəm və bir neçə ay ərzində bu proqram üzərində iş aparılıb. Bu gün biz bu məsələləri müzakirə edəcəyik və lazım olan qərarları verəcəyik".

Müşavirədə son illər ərzində ölkədə bir sıra nəqliyyat layihələrinin uğurla icra edildiyini – kənd, şəhərlərarası və magistral yolların salındığını vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, illər keçdikcə əvvəlki vəziyyət yaddan çıxır. Ancaq əgər biz 20 il əvvələ nəzər salsaq görərik ki, o vaxt bizim yollarımız nə vəziyyətdə idi. Hətta Bakı şəhərinin əsas yolları faktiki olaraq heç bir standarta uyğun gəlmirdi: "Biz yeni yollar saldıq, bütün şəhərləri demək olar ki, müasir yollarla birləşdirdik. Bütün sərhədlərimizi müasir avtomagistrallarla birləşdirdik. Kənd yollarının təmiri və salınması dərəcəsi, təqribən, 85–90 faizə çatıb və hər il biz bu məqsədlər üçün vəsait ayırırıq".

## "Bir kəmər, bir yol"un alternativi yoxdur

Müşavirədə Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizləri haqqında da ətraflı danışılıb və bu gün Avrasiyanın nəqliyyat xəritəsinin Azərbaycanın nəqliyyat infrastrukturu olmadan təsəvvür etməyin mümkünsüzlüyü diqqətə çatdırılıb. Qeyd edilib ki, hazırda ərazimizdən Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri keçir. Bu dəhlizlər üzrə daşınan yüklərin həcmi ildən-ilə artır. Yüklərin daha səmərəli daşınması üçün fiziki infrastrukturla yanaşı, digər addımlar da atılır, o cümlədən rəqəmsallaşma məsələlərinə diqqət göstərilir. Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaradılır və ortaq, müştərək müəssisələr qurulur. Bir sözlə, bu gün haqlı olaraq Azərbaycan Avrasiyanın əvəzolunmaz nəqliyyat mərkəzlərindən biri hesab edilir.

Beləliklə, istər ümummilli lider Heydər Əliyevin, istərsə də Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyinin bütün dönəmlərində respublikamızda nəqliyyat sektorunun inkişafı ilə bağlı ardıcıl siyasət aparılıb, infrastrukturun dövrün tələbatına uyğun olaraq tam modernləşdirilməsi diqqətdə saxlanılıb, ölkəmizin beynəlxalq yükdaşımalarda fəaliyyəti getdikcə gücləndirilib. Bu, müxtəlif istiqamətlərdə hərəkət edən nəqliyyat vasitələrinin sayının getdikcə artması, mövcud sahədə bazarın şəffaflaşması nəticəsində "kölgə"də işləyən daşıyıcıların qeydiyyata alınması, onların bəzilərinin fəaliyyətinin bərpa edilməsi, bəzilərinin isə daxili bazardan beynəlxalq bazara keçidinin reallaşması ilə bağlı olub. Bundan savayı, yükdaşımalarda qanunvericiliyin təkmilləşdirilməsinə mühüm önəm verilib.

Hazırda yükdaşımaların artmasında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) fəaliyyəti daha çox diqqət çəkir. Bu marşrut Çindən Türkiyəyə və Avropa ölkələrinə, eləcə də əks istiqamətdə yük axınının artırılmasına xidmət etməklə region ölkələrinin ticarət-iqtisadi əlaqələrinin səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır.

Xatırladaq ki, Orta Dəhliz Çindən Avropaya quru yolla daşınan yüklərin Qazaxıstan və Azərbaycandan keçərək ötürülməsini nəzərdə tutur. Çin yükləri Qazaxıstanın sərhəddə yerləşən Dostık dəmir yolu stansiyasından daxil olaraq birbaşa Xəzərdə yerləşən Aktau dəniz limanına daşınır və oradan bərə ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına gətirilir. Buradan isə Türkiyə və Gürcüstanın Qara dəniz limanları vasitəsi ilə Avropaya ötürülür.

Yeri gəlmişkən, burada bir məqama da toxunmaq istərdik. Belə ki, Rusiya–Ukrayna müharibəsi başlayandan indiyədək dünyanın ən böyük yükdaşıma şirkətləri tərəfindən Azərbaycan üzərindən daşımaları şərtləndirən Orta Dəhlizdən istifadəyə start verilib. Bu isə ölkəmizin ərazisindən tranzit yükdaşımaların həcmində kəskin artıma gətirib çıxarıb. Orta Dəhlizin tam gücü ilə işə düşməsi üçün gömrük sənədləşdirilməsinin unifikasiyası, "vahid pəncərə" sistemi və tarif siyasəti çərçivəsində ümumi prinsiplərin hazırlanması da sürətlənib. Bütün bunlar isə marşrutun həm kommersiya dəyərini, həm də geosiyasi önəmini artırmağa hesablanıb.

Beləliklə, Orta Dəhliz yalnız Azərbaycanın yox, bütün regionun iqtisadi inkişafına təkan verəcək, bölgədə sülh və sabitliyin bərqərar olması üçün əlavə təsir vasitəsinə çevriləcək, Avropa İttifaqı (Aİ) ölkələrinə yükdaşımaların fasiləsizliyini təmin edəcək. Hazırda Çinlə Aİ arasındakı 3 ticari marşrutdan biri məhz Orta Dəhlizdir ki, onun uzunluğu avtomobil və dəmir yolu ilə 4256 kilometr, dəniz yolu ilə isə 508 kilometrdir. Bu marşrut ilə hərəkət edən standart konteyner qatarı Çindən Aİ-yə yükləri orta hesabla 20–25 sutkaya çatdırır. Müqayisə üçün deyək ki, Çindən və Cənub-Şərqi Asiya ölkələrindən Aİ-yə yüklərin əhəmiyyətli hissəsi indi Süveyş kanalından keçilməklə 35–42 sutkaya daşınır.

Xəzər dənizində ən böyük ticari donanmaya malik olan Azərbayan Avropa və Asiya qitələrinin qovşağında yerləşdiyindən beynəlxalq miqyasda nəqliyyat habına çevrilib. Belə ki, ötən il ölkəmizdən keçən




tranzit yükdaşımaların həcmi 75 faiz artıb. Artım bu ilin əvvəlindən bəri sürətlə yüksəlməkdədir. Qeyd edək ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub. Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılaraq "vahid pəncərə" prinsipi tətbiq olunur.

Bu istiqamətdə görüləsi işlərin hələ də çox olduğunu vurğulayan ekspertlər bildirirlər ki, Şimal–Cənub və Şərq–Qərb dəhlizləri boyunca, Azərbaycan daxilində TIR avtomobillərinin parklanması və sürücülərin istirahəti üçün, texniki baxış və xidmətlər üçün xüsusi məntəqələrin yaradılması zəruridir. Regional nəqliyyat qovşaqlarında intellektual idarəetmənin tətbiqi ilə daşıma sifarişlərini qəbul edən və tənzimləyən xüsusi mərkəzlərin formalaşdırılması isə dəhliz boyunca aktivliyi artıra bilər. Bütün bunlarla yanaşı, özəl sektorda yerli və beynəlxalq bazarda daşımaları həyata keçirməyə qadir milli daşıyıcı şirkətlərin fəaliyyətinin dəstəklənməsi vacibdir.

Yeri gəlmişkən, dövlətimizin başçısının müşavirədə qeyd etdiyi maraqlı bir məqama da diqqət çəkmək istərdik. Ölkə rəhbəri bildirdi ki, nəqliyyat mərkəzləri statusuna malik ölkələrin açıq dənizlərə çıxışları olur. Azərbaycanın isə dünya okeanlarına çıxışı yoxdur. Amma buna baxmayaraq, görülən işlər nəticəsində Azərbaycan hazırda dünyada əvəzolunmaz nəqliyyat mərkəzlərindən biri kimi tanınır. Lakin bu sahədə layihələrin icrası davam edir, həm Şimal–Cənub, həm Şərq–Qərb nəqliyyat dəhlizlərinin inkişafı məqsədilə əlavə tədbirlər görülür. Bu isə adları çəkilən nəqliyyat dəhlizləri ilə vaxtilə daşınmasına hesablanan yüklərin hazırda artan həcminin ödənilməsinin qarşılanması ilə bağlıdır. İndi bu dəhlizlərin aşırma qabiliyyətini artırmaq üçün əlavə sərmayə cəlb edilir.

Dəhlizlərdən söz düşmüşkən, Zəngəzur dəhlizi ilə bağlı müşavirədə səsləndirilən müəyyən məsələləri də xatırlatmaq istərdik. Prezident İlham Əliyevin çıxışında bununla bağlı bir məqama nəzər salaq: "Zəngəzur dəhlizi layihəsi Azərbaycan tərəfindən irəli sürülmüşdür. İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra bu məsələ beynəlxalq gündəliyə, beynəlxalq leksikona salındı və bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadədir, qəbul edilmiş termindir. Əlbəttə ki, biz bu dəhlizin açılması üçün praktiki addımlar atırıq. Düzdür, Ermənistan tərəfi dörd ildən çoxdur ki, bu məsələ ilə bağlı qeyri-konstruktiv mövqe sərgiləyir, faktiki olaraq 10 noyabr kapitulyasiyasından sonra üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Orada açıq-aydın göstərilirdi ki, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır. Ermənistan isə buna əməl etmir, müxtəlif bəhanələr gətirərək, müxtəlif qeyri-real və cəfəng layihələri ortaya ataraq, sadəcə olaraq, beynəlxalq ictimaiyyətin fikrini çaşdırmaq istəyir, manipulyasiyalarla məşğuldur".

Lakin bu gün Zəngəzur dəhlizinin fəaliyyətə başlayacağına heç kim şübhə etmir. Dövlətimizin başçısının müşavirədə vurğuladığı kimi, heç bir yoxlamadan keçmədən, heç bir maneə ilə üzləşmədən Azərbaycandan Azərbaycana rahat və azad keçid olmalıdır. Bu, ölkəmizin tələbidir və bu tələb Çindən Avropaya daşınan yüklərin daha böyük hissəsinin Orta Dəhlizə cəlbi də reallaşdıracaq. Nəticədə ölkəmizdən keçən yük həcmləri artacaq və bundan Azərbaycan və region ölkələri qazanacaq.

Ekspertlərin yekdil rəyi belədir ki, Zəngəzur dəhlizinin açılması həm qlobal, həm də regional logistika baxımından zamanı və xərci azaldacaq. İnfrastrukturun reallaşması Şərq-Qərb marşurutunda məsafəni qısaldacaq. Ən vacib məqamlardan biri isə Qara Dənizlə yanaşı, artıq Aralıq dənizinə də çıxış imkanı əldə ediləcək. Rəqabətlilik artacağı üçün qiymətlər də tənzimlənəcək, bu isə Azərbaycana cəlb edilən yük həcminin artımına səbəb olacaq. Bu yüklərin cəlbindən bütün region ölkələri qazanacaq. Məsələn, Çindən Avropa istiqamətinə 500 min TEU konteyner göndərilərsə, bunun bir qismi Gürcüstan üzərindən, bir qismi isə Zəngəzur dəhlizi vasitəsilə çatdırılacaq ki, bu isə həm zaman, həm də məsrəflərin azalmasına səbəb olacaq.

## Azərbaycanda yeni yol infrastrukturu

Müşavirədə Azərbaycanda son 20 il ərzində nəqliyyatla bağlı görülmüş işlərin statistikası da diqqətə çatdırılıb. Beləliklə, bu dövrdə:

*– ölkədə 21 min kilometr avtomobil yolu salınıb və təmir edilib. 335 körpü və yol ötürücüsü, 45 tunel, 163 yerüstü və yeraltı keçid tikilib;*

*– 1500 kilometrdən çox dəmir yolu tikilib, 1800 kilometr təmir edilib, yeni qatarlar və vaqonlar alınıb, 90 kilometrdən çox olan Abşeron dairəvi xətti istifadəyə verilib.*

*– Bir sıra ölkələrin, xüsusilə, Amerika Birləşmiş Ştatlarının təzyiqlərinə baxmayaraq, Bakı-Tbilisi-Qars dəmir yolu inşa edilib;*

*– Azərbaycanda 8 beynəlxalq hava limanı inşa edilib. 9-cu beynəlxalq hava limanı bu il Laçında istifadəyə veriləcək. Bütün bu hava limanları istənilən ağırlıqda yük və sərnişin təyyarələrini qəbul etməyə qadirdir. Uçuş-enmə zolağı minimum 3 kilometr səviyyəsindədir;*

*– Yeni Dəniz Ticarət Limanı inşa edilib. Limanının birinci fazasının yükaşırma qabiliyyəti 15 milyon ton nəzərdə tutulub. Ancaq yüklərin həcminin daha çox olacağı proqnozlaşdırıldığından infrastrukturun imkanlarını 25 milyon tona çatdırmaq qərara alınıb;*

*– 2008-ci ildən indiyədək metronun yeddi yeni stansiyası tikilib. Qəbul ediləcək Dövlət Proqramında isə daha 10 metro stansiyasının tikintisi nəzərdə tutulub. 266 yeni nəsil metro vaqonu alınıb;*

*– Ölkəyə yüzlərlə yeni sərnişin avtobusu gətirilib və cari ilin sonundan başlayaraq elektrobusların yığımına, lokalizasiyanın artımı işlərinə başlanacağı qərara alınıb. Şəhərimizə artıq 161 yeni elektrik avtobusu gətirilib.*

Bu qısa statistikaya əsaslanıb deyə bilərik ki, Prezident İlham Əliyevin diqqət və dəstəyi sayəsində nəqliyyat sektoru sürətlə inkişaf edərək ölkəmizin tərəqqisinə, əhalinin yaşayış səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərərək mühüm fəaliyyət sahəsinə çevrilib, regional əhəmiyyətli təşəbbüslər sayəsində yeni mərhələyə keçid alıb.

Göründüyü kimi, reallaşdırılan layihələr sırasında Avrasiya nəqliyyat şəbəkəsində yeni və daha səmərəli bağlantıları gerçəkləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu və Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, eyni zamanda, beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşən magistral avtomobil yollarının və dəmir yolu infrastrukturunun yenidən qurulması xüsusi çəkiyə malikdir.

Son 20 il ərzində yeni yolların çəkilməsi, köhnə yol-nəqliyyat strukturunun müasir tələblərə uyğun yenidən qurulması da diqqət mərkəzində saxlanılıb. Çünki hansı bölgəyə, şəhər və qəsəbəyə yol çəkilibsə, həmin ərazidə yeni infrastruktur yaradılıb, investisiya cəlb olunub, bir sözlə, bu, bölgədə həyatın, sözün əsl mənasında, canlanmasına gətirib çıxarıb.

Bu dövrdə mühüm nəqliyyat və kommunikasiya layihələri Azərbaycanla bərabər, digər qonşu dövlətlərin də ərazisini əhatə edib ki, bu da bölgədə çox nəhəng infrastruktur şəbəkəsinin yaradılması deməkdir. Qədim İpək Yolunun modernləşdirilməsi, Rusiya və İran istiqamətində tranzit marşrutlarının dünya səviyyəsində yenidən qurulması, Bakı–Tbilisi–Qars dəmiryolu xəttinin çəkilişinin sürətləndirilməsi çoxşaxəli regional infrastruktur sisteminin yaradılmasının əyani təzahürüdür.

Azad edilmiş ərazilərdə də nəqliyyat layihələrinin icrası diqqət mərkəzində saxlanılıb: 3400 kilometrə yaxın avtomobil yolu – hələlik cəmi 44 avtomobil yolu layihəsi icra edilib. Eyni zamanda, 45 tunel, 447 körpü, 16 viaduk nəzərdə tutulub. Bunlardan 28 tunel, 392 körpü və 9 viadukun tikintisi tamamlanıb. Horadiz–Ağbənd dəmir yolunun 60 faizi, Bərdə–Ağdam dəmir yolunun 94 faizi inşa edilib.

## Paytaxt nəqliyyatında idarəetmə təkmilləşdirilir

Qloballaşma və inteqrasiya proseslərinin sürətlənməsi ilə müşahidə olunan XXI əsr milli iqtisadiyyatın və onun ayrı-ayrı sektorlarının inkişafına öz təsirini göstərir. Qlobal məkanda baş verən sosial-iqtisadi proseslər, bütövlükdə, milli təsərrüfatların, eləcə də ayrı-ayrı sahələrin qarşısında müəyyən vəzifələr qoyur ki, onların uğurla gerçəkləşdirilməsi nəqliyyatın iştirakı olmadan təsəvvür edilmir.

Bütün bunları dəqiqliklə nəzərə alan Azərbaycan hökuməti ölkəmizdə nəqliyyat sisteminin təkmilləşdirilməsi, nəqliyyat xidmətlərinin yaxşılaşdırılması istiqamətində davamlı addımlar atır, müvafiq proqram və layihələr hazırlayaraq uğurla reallaşdırır. Ölkə başçısının qəbul etdiyi qərar və sərəncamlar ölkəmizin nəqliyyat sistemində idarəetmənin və xidmətlərin təkmilləşdirilməsi, beynəlxalq tələblərə uyğunlaşdırılması və ümumilikdə milli nəqliyyat sisteminin dünya nəqliyyat sisteminə inteqrasiyasının hüquqi əsaslarını təşkil edir. Uğurla reallaşdırılan qərar və sərəncamların nəticəsidir ki, həyata keçirilən layihə və proqramlar mühüm nəqliyyat-tranzit qovşağı kimi Azərbaycan Respublikasında yeni bir nəqliyyat sistemi formalaşdırır.

Ölkədə mobillik, yol hərəkəti təhlükəsizliyi və yol-nəqliyyat infrastrukturu ilə bağlı vahid dövlət siyasəti, vahid institusional sistem, vahid prinsip və yanaşmalar, vahid nəzarət və cavabdehlik olmalıdır. Azərbaycan Respublikası Prezidentinin "Nəqliyyatı Əlaqələndirmə Şurasının yaradılması haqqında" 2023-cü il 19 aprel tarixli sərəncamı da məhz vahidlik, çeviklik, mobillik və səmərəli koordinasiyanın təmin olunması zərurətindən irəli gələn addımdır.

Prezident İlham Əliyev nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə qeyd edib ki, son 20 ildə nəqliyyat sahəsində əsaslı islahatlar aparılıb, infrastruktur yenidən qurulub, sektor ölkə iqtisadiyyatının sürətli inkişafına mühüm töhfə verib. Ölkə iqtisadiyyatının sürətlə böyüməsi və əhalinin rifahının yüksəldilməsi avtomobilləşmənin kəskin artmasına səbəb olub.

Sərnişindaşımanın yaxşılaşdırılması, yollarda tıxacların azaldılması, şəhərin ekoloji vəziyyətinin yüngülləşdirilməsi və dövlət investisiyalarının səmərəliliyinin artırılması ilə bağlı dövlət başçısının verdiyi tapşırığa uyğun olaraq "Bakı şəhərinin mobilliyinin transformasiyası" layihəsinə başlanılıb.Layihənin koordinasiyasının ölkə rəhbərinin müvafiq fərmanı ilə yaradılan Nəqliyyatı Əlaqələndirmə Şurası tərəfindən həyata keçirilməsi qərara alınıb. Son ilyarım ərzində şəhər nəqliyyatı sisteminin yaxşılaşdırılması sahəsində əldə edilmiş uğurlar Şurada təmsil olunan Ekologiya və Təbii Sərvətlər, Daxili İşlər nazirliklərinin, Bakı Şəhər İcra Hakimiyyətinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin konstruktiv əməkdaşlığı sayəsində mümkün olub.

Sonda bir daha xatırladaq ki, dünyanın bütün iri şəhərlərində olduğu kimi, iqtisadi və demoqrafik artım fonunda Bakının nəqliyyat sistemi də bir çox çağırışlarla üzləşməkdədir. Bu çağırışlara cavab olaraq dünya şəhərləri "avtomobil mərkəzli şəhər" yanaşmasından "insan yönümlü" yanaşmaya keçid etməkdədir. Təbii ki, bu keçid təkcə dövlət tənzimlənməsindən asılı deyil. Burada şəhər sakinlərinin nəqliyyat davranışlarının dəyişməsi də vacibdir. Uzun müddət digər nəqliyyat növlərinə fokuslanan və vərdiş halını almış davranışın dəyişməsi isə zaman tələb edir.

Lakin şəhərin nəqliyyat sisteminə olan tələb və təklifin proaktiv idarə edilməsi bu zamanı qısalda bilər. Bunun üçün bir tərəfdən nəqliyyat sisteminin yetərli təklifi təmin edilməlidir. Başqa sözlə, küçə və yol infrastrukturu optimal təşkil edilməli, avtobusların sayı yetərli olmalı, dəmir yolu və metro infrastrukturu genişləndirilməlidir.

Digər tərəfdən isə dövlət tənzimlənməsi vasitəsilə parklanma tariflərinin müəyyənləşdirilməsi, avtobus zolaqlarına riayət olunmamasına görə cərimələrin tətbiqi və tələbin idarə edilməsinə yönələn digər tələblər yeni nəqliyyat vərdişlərinin mənimsənilməsinə gətirib çıxarır. Məsələn, mikromobillik, yəni, skuterlər və velosipedlər üçün uyğun infrastrukturun olmaması mikromobilliyin təhlükəli nəqliyyat vasitəsi kimi qavranılmasına və vərdişin, ümumiyyətlə, yaranmamasına səbəb olur. Halbuki aparılmış tədqiqatlar göstərmişdir ki, velosipedlə edilən hər 9 milyon səfərdən yalnız biri ölümlə nəticələnir.

***V.BAYRAMOV,***
***M.YAQUBZADƏ***
***XQ***

# Dünya Bankı Qrupu Azərbaycanı 5 il də dəstəkləyəcək

**Ölkəmiz Dünya Bankı Qrupu ilə əməkdaşlığını genişləndirir. Bankın Direktorlar Şurası Azərbaycanla yeni Ölkə Tərəfdaşlıq Çərçivəsini müzakirə edib. Bu müzakirələrin nəticəsi olaraq qurum bugünlərdə həmin sənədin ölkəmizlə bağlı əsas istiqamətlərini açıqlayıb.**

Məlumat üçün bildiririk ki, Ölkə Tərəfdaşlıq Çərçivəsi növbəti 5 ildə Azərbaycanla strateji münasibətlərin istiqamətlərini müəyyənləşdirir. Sənəd ölkəmizin daha rəqabət qabiliyyətli, daha "yaşıl" və inklüziv iqtisadiyyata keçidini və qarşıda duran əsas inkişaf çağırışlarının öhdəsindən gəlməyi dəstəkləyəcək. Ölkə Tərəfdaşlıq Çərçivəsi Azərbaycanın 2022-2026-cı illər üzrə Sosial-İqtisadi İnkişaf Strategiyasına və iqlim dəyişmələri, qeyri-bərabərlik və kövrəklik kimi qlobal çağırışların həllinin vacibliyini vurğulayan Dünya Bankının Təkamül Yol Xəritəsinə uyğundur.

Dünya Bankı Qrupundan mətbuata verilən açıqlamaya görə, bu strategiya məhsuldarlığın artırılması, daha yaxşı məşğulluq, eləcə də iqtisadiyyatın dayanıqlığı və dözümlülüyünün artırılması kimi iki yüksək səviyyəli nəticəyə fokuslanıb. Qurumdan onu da bildiriblər ki, Ölkə Tərəfdaşlıq Çərçivəsi biznes mühitinin təkmilləşdirilməsi, daha çox və daha yaxşı məşğulluq imkanları, o cümlədən iş yerlərinin yaradılmasına və mikro, kiçik və orta sahibkarlığın inkişafına dəstək, davamlı və "yaşıl" maliyyəyə diqqət yetirməklə maliyyə resurslarına çıxışın genişləndirilməsi, qadın sahibkarlara və həssas qruplara dəstək vasitəsilə inklüzivliyin təşviq olunması ilə bağlı vacib məsələlərdə Azərbaycana kömək edəcək.

Eyni zamanda, nəqliyyat və rəqəmsal bağlantıların gücləndirilməsi, o cümlədən, ticarət və tranzit üçün Orta Dəhlizin inkişaf etdirilməsi, rəqəmsallaşdırma və rəqəmsal bağlantıların təkmilləşdirilməsi, süni zəka kimi yeni texnologiyaların tətbiqinin təşviq olunması, bərpaolunan energetikaya keçidin sürətləndirilməsi, o cümlədən enerjinin ötürülməsi infrastrukturunun gücləndirilməsi, bərpaolunan energetika layihələrinə, batareya saxlanclarına özəl investisiyaların cəlb olunması və "yaşıl" energetika dəhlizlərinin təşviq olunmasında da ölkəmiz çərçivə sənədinin imkanlarından yararlana biləcək.

Çərçivə sənədi qarşıdakı beş ildə iqlim dəyişmələrinə uyğunlaşmanın genişləndirilməsi, o cümlədən, "yaşıl" binalar da daxil olmaqla iqlim dəyişmlərinin təsirinə dözümlü şəhər ekosistemləri, iqlim baxımdan ağıllı kənd təsərrüfatı praktikaları, habelə özəl sektorun iştirakı da daxil olmaqla su təhlükəsizliyi və səmərəliliyi ilə bağlı məsələlərdə də ölkəmizi dəstəkləyəcək.

Yeri gəlmişkən, Dünya Bankının Azərbaycan üzrə meneceri Stefanie Stallmeister Ölkə Tərəfdaşlıq Çərçivəsi sənədinin respublikamızla bağlı planlarının təmsil etdiyi qurumun Azərbaycanın daha dayanıqlı və firavan gələcəyə doğru transformasiyasını dəstəkləmək öhdəliyini əks etdirdiyini vurğulayıb. O, tərəfdaşlığın Azərbaycana iqtisadi potensialını tam şəkildə reallaşdırmağa kömək edəcəyinə əminliyini bildirib.

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası və Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi arasında əməkdaşlıq Ölkə Tərəfdaşlıq Çərçivəsinin məğzini təşkil edir. Bu, investisiyalar və məsləhət xidmətlərinin kombinasiyası vasitəsilə həyata keçiriləcək. Dünya Bankı Qrupu, həmçinin inkişafa təsiri maksimum dərəcədə artırmaq üçün digər inkişaf tərəfdaşları və özəl sektorla sıx işləyəcək.

Beynəlxalq Maliyyə Korporasiyasının Cənubi Qafqaz üzrə regional meneceri İvana Fernandes Duarte isə təmsil etdiyi qurumun Azərbaycanda davamlı inkişafı dəstəkləməkdə sadiqliyini bildirib: "Beynəlxalq Maliyyə Korporasiyası bu məqsədlə infrastruktur, enerjiyə çıxış, "yaşıl" maliyyə, kənd təsərrüfatı və su, nəqliyyat və rəqəmsal bağlantılar kimi vacib sektorları gücləndirmək üçün özəl investisiyaları səfərbər edəcək. Bu səylər iqtisadi artımı, iş yerlərinin yaradılmasını və davamlılığı təşviq etmək məqsədi daşıyır", – deyə o əlavə edib.

Xatırladaq ki, Azərbaycan Dünya Bankı ilə 1992-ci ildən əməkdaşlıq edir. Həmin vaxtdan bəri qurum ölkəmizi iqtisadiyyatın şaxələndirilməsi, infrastrukturun inkişafı, dövlət idarəçiliyi və sosial təkmilləşdirməyə yönəlmiş 50-dən çox investisiya layihəsi vasitəsilə dəstəkləyib. Azərbaycan, həmçinin potensialın artırılması və əsas sektorlarda islahatların həyata keçirilməsi üçün müxtəlif məsləhət və texniki yardım proqramlarından faydalanıb.

Ölkəmiz Beynəlxalq Maliyyə Korporasiyasına isə 1995-ci ildə üzv seçilib. Qurum ötən müddətdə ölkəmizə, təxminən, 900 milyon ABŞ dolları sərmayə qoyub. Həmin vəsait hesabına ölkəmizdə maliyyə xidmətləri, infrastruktur və istehsalat sahələrində 60-a yaxın layihə maliyyələşdirilib. Bununla yanaşı, Beynəlxalq Maliyyə Korporasiyası Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması, maliyyə sektorunun inkişafı, korporativ idarəetmə, kiçik və orta sahibkarlıq və aqrobiznes sahələrində məsləhət xidmətləri göstərib.

# Mərkəzi Asiya ölkələri ilə enerji əməkdaşlığı

**Daşkənd şəhərində Özbəkistan, Qazaxıstan və Qırğız Respublikasının su və energetika nazirlərinin növbəti görüşü keçirilib. Tədbirdə ölkəmizi energetika nazirinin müavini Orxan Zeynalov təmsil edib. Bu barədə XQ-yə Energetika Nazirliyindən məlumat verilib.**



Bildirilib ki, görüşdə çıxış edən O. Zeynalov Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini, dövlət başçılarının siyasi iradələrinin və qarşılıqlı səfərlərin ikitərəfli və çoxtərəfli əməkdaşlığın dərinləşməsinə geniş imkanlar açdığını diqqətə çatdırıb. Nazir müavini Azərbaycanın energetika sahəsində, xüsusilə bərpaolunan enerji sahəsində gördüyü işlər, əldə etdiyi uğurlar, "yaşıl" enerji dəhlizləri, COP29-un enerji təşəbbüsləri barədə məlumat verib.

Energetika nazirinin müavini Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl" enerjinin inkişafı və ötürülməsi layihəsi üzrə nazir müavinləri səviyyəsində keçirilmiş müzakirələrə də qatılıb. Tədbirdə "Azərbaycan – Mərkəzi Asiya – Avropa" yaşıl enerji dəhlizinin yaradılması üzrə görülən işlər və atılacaq növbəti addımlar müzakirə olunub.

Görüşdə onlayn formatda iştirak edən Səudiyyə Ərəbistanı Krallığının energetika nazirinin müavini Fuad Mosa Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl" enerjinin inkişafı və ötürülməsi layihəsinə ölkəsinin marağını bir daha vurğulayıb. Bu istiqamətdə COP29 çərçivəsində 4 ölkə arasında imzalanmış İcra Proqramından irəli gələn məsələlər müzakirə edilib.

Səfər çərçivəsində Qırğızıstanın energetika naziri Taalaybek İbrayev, eləcə də Çin Xalq Respublikasının "Datang" şirkəti və Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin nümayəndələri ilə görüşlər keçirilib, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

# Ötən il 25 ölkəyə 23,6 milyon ton neft ixrac olunub



**2024-cü ildə Azərbaycan dünyanın 25 ölkəsinə 14 milyard 437 milyon 355,99 min dollarlıq 23 milyon 596 min 132,23 ton neft ixrac edib. Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb.**

Komitənin hesabatına əsasən, ötən il İtaliyaya 6 milyard 754 milyon 416,21 min dollar dəyərində 10 milyon 950 min 355,57 ton neft ixrac edilib. Bununla da, İtaliya əvvəlki dövrlərdə olduğu kimi, Azərbaycanın ümumi neft ixracında yenə birinci olub. Ölkəmizin ümumi neft ixracında ikinci yerdə Çexiya qərarlaşıb. Hesabat dövründə bu ölkəyə 1 milyard 81 milyon 932,85 min dollar dəyərində 1 milyon 770 min 234,87 ton neft ixrac olunub. Siyahıda ilk üçlüyü isə Xorvatiya tamamlayıb. Belə ki, il ərzində bu ölkəyə 873 milyon 398,61 min dollarlıq 1 milyon 436 min 178,46 ton neft göndərilib.

Bununla yanaşı, Hindistan, Almaniya, İsrail, Portuqaliya, Rumıniya, Böyük Britaniya, Türkiyə və digər ölkələr də Azərbaycan neftinin əsas idxalçıları sırasında yer alıblar.

Xatırladaq ki, hesabatda qeyd olunan göstəricilərdə yanvar-noyabr aylarında gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan neftin dəyərinə dair məlumatlar nəzərə alınıb.



# Xarici borc ən aşağı səviyyəyə enib

## *Bu məbləğ ÜDM-in 6,9 faizi qədər – 5 milyard 160 milyon dollardır*

**Maliyyə Nazirliyinin operativ məlumatına görə, hazırda Azərbaycanın xarici dövlət borcunun səviyyəsi 5 milyard 160 milyon dollar və ya 2024-cü il üzrə ÜDM-in 6,9 faizini təşkil edir.**

Bildirilib ki, cari ilin 1 yanvar tarixinə dövlət büdcəsində dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı 1 milyard 295,6 milyon manat məbləğində xərclər nəzərdə tutulub. 2024-cü il ərzində qeyd olunan xərclərdən daxili dövlət borcu üzrə 170,3 milyon manatın (faiz borcu üzrə), xarici dövlət borcu üzrə isə 1 milyard 125,2 milyon manatın (əsas borc üzrə 850 milyon manat, faiz borcu üzrə 275,2 milyon manat), cəmi 1 milyard 295,5 milyon manatın ödənilməsi təmin edilib.

2024-cü ilin dövlət büdcəsində nəzərdə tutulan dövlət borcuna xidmətlə əlaqədar xərclərin il ərzində qənaət olunmuş 0,1 milyon manat (bank xərci) məbləğində hissəsi isə "Dövlət borcu haqqında" Azərbaycan Respublikası Qanunun 13.2.4-cü maddəsinə uyğun olaraq "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu"na köçürülüb. Dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi və "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"sına uyğun olaraq xarici borcun daxili borcla əvəzlənməsi istiqamətində məqsədyönlü daxili borclanma siyasətinin həyata keçirilməsi nəticəsində daxili dövlət borcunun səviyyəsi operativ məlumatlara əsasən, 2025-ci il 1 yanvar tarixinə 18 milyard 659,7 milyon manat təşkil edib.

Bütün bunlar nəzərə alınaraq ölkədə son illərdə istər daxili, istərsə də xarici borcun qarşılanması üçün makroiqtisadi sabitliyin qorunması, qiymətlərin aşağı və sabit olması məqsədilə bir sıra tədbirlər həyata keçirilib. Bu sahədə idarəetmənin institusional çərçivəsi təkmilləşdirilib və maliyyə bazarlarının səmərəli fəaliyyəti təmin edilib. Belə bir şəraitdə isə iqtisadi proqnozlar özünü doğruldub, ən başlıcası isə əhalinin yığımları dəyərsizləşmədən xilas olunub və investisiya arımı reallaşıb.

Ölkədə daxili və xarici borcların qarşılanmasından bəhs edərkən, bir məsələni də xatırlatmaq istərdik. Belə ki, son illər respublikamızın daxili və xarici dövlət borcunun idarə edilməsi istiqamətində ölkə başçısının rəhbərliyi ilə davamlı tədbirlər həyata keçirilib. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"da qarşıya qoyulan vəzifələr uğurla reallaşdırılıb.

Bu sənədlərdə dövlət borcalmaları üzrə müəyyənləşdirilən strateji hədəflərə çatmaq üçün bir sıra prioritet layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin 4 avqust 2023-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda bir sıra dəyişikliklər edilməsi də məhz bu məqsəddən irəli gəlib. Həmin strategiyanın "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə" bəndi üzrə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faiz, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi qərara alınıb.

Yeni dəyişikliyə əsasən, 2025-ci ilin sonuna xarici dövlət borcunun 7,1 milyard ABŞ dolları məbləğində, yəni ÜDM-in 10,7 faizi həcmində olması gözlənir. Bununla belə, mövcud xarici dövlət borcunun qaytarılması, eləcə də ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədilə prioritet sahələrdə investisiya layihələrinin maliyyələşdirilməsi səbəbindən bu göstəricilərin dəyişəcəyi də istisna edilmir.

Azərbaycanın xarici dövlət borcunun azalması bir sıra amillərlə bağlıdır. Bu, ilk növbədə, düşünülmüş uzunmüddətli strategiyanın uğurla həyata keçirilməsinin məntiqi nəticəsidir. Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncam – "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" da bunun bariz ifadəsidir.

Sonda qeyd edək ki, yenilənən strategiya çərçivəsində xarici dövlət borcunun ÜDM-də payının 2025-ci ilin sonuna 15 faizdən aşağı səviyyədə saxlanılması, növbəti dövrdə (2025–2030) isə 10 faizə çatdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

# Naxçıvanda ipoteka kreditləri artıb

**Keçən il muxtar respublikada 71 nəfərə ipoteka krediti verilib. 2023-cü ildə bu rəqəm 46, 2022-ci ildə isə 36 nəfər olub.**



Bu barədə "XQ"yə "Naxçıvan İpoteka Fondu" ASC-dən məlumata verilib. Bildirilib ki, maliyyələşdirilmiş ipoteka kreditlərinin həcminə görə, son 5 ildə ən çox kredit 2024-cü ildə verilib. Belə ki, 12 ay ərzində sakinlər 5 milyon 267 min 792 manat ipoteka kreditindən yararlanıblar. Ümumiyyətlə, ötən illərə diqqət yetirdikdə bu, ən yüksək göstəricidir. 2023-cü illə müqayisədə bu rəqəm 2 dəfə çoxdur. Həmin il 46 nəfərə ipoteka fondu tərəfindən, sadəcə, 2 milyon 575 min 32 manat verilmişdi.

Eyni zamanda, maliyyələşdirilmiş güzəştli və adi ipoteka kreditlərinin illər üzrə həcmində də xeyli artım müşahidə olunur. 2024-cü ildə verilən ipoteka kreditlərinin 3 milyon 402 min 713 manatı güzəştli, 1 milyon 865 min 79 manatı isə adi kredit kimi verilib. Ötən il verilən kreditlərdən 70-i Naxçıvan şəhərinin, 1-i isə Şahbuz rayonunun payına düşür. 2023-cü ildə isə verilən ipoteka kreditinin 46-sı təkcə Naxçıvan şəhərini əhatə etmişdi. Digər maraqlı məqam, verilən kreditlərdə qadınların sayının artmasıdır. 2023-cü ildə 5 qadın ipoteka kreditindən yaralanmışdısa, 2024-cü ildə bu rəqəm artıq 16 olub.

İpoteka krediti götürənlərin yaş həddinə gəlincə, 2024-cü ildə daha çox istifadə edənlər 30-35 yaşlı sakinlər olub – 29 nəfər. Yaşı 35-i haqlamış 25 nəfər, yaşı 18-29 aralığı olan 17 nəfər də ötən il ipoteka kreditindən yararlanıb.

2022-2023-cü illərlə müqayisədə 2024-cü ildə ilk dəfə olaraq tibb sahəsində çalışan işçilərə ipoteka krediti verilib. Həmçinin ötən il 3 şəhid ailəsi də bu kreditdən yararlanıb. Ümumiyyətlə, geridə qoyduğumuz ildə 18 hərbi qulluqçuya, 19 dövlət qulluğunun xüsusi növündə çalışan şəxsə və 12 təhsil işçisinə ipoteka krediti verilib.

*Səbuhi HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

**Naxçıvan**

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Elmi kitabxana elmin xidmətində

**Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin ötən ilin yekunlarına həsr edilən iclasında ilk dəfə olaraq Mərkəzi Elmi Kitabxananın da fəaliyyətlərinə dair hesabat təqdim olunub.**



AMEA prezidenti, akademik İsa Həbibbəyli MEK-də həyata keçirilən islahatların qurumun elmi-təşkilati fəaliyyətində müsbət irəliləyişlərlə müşahidə olunduğunu, qısa vaxtda elektron kitabxana istiqamətində mühüm nailiyyətlərin əldə edildiyini diqqətə çatdırıb.

Mərkəzi Elmi Kitabxanasının 2024-cü il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatı kitabxananın direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov təqdim edib.

Qeyd olinib ki, ötən il MEK-də "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində, Məhəmməd Əmin Rəsulzadənin 140 illiyi, Məhəmməd Füzulinin 530 illiyi, Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə "Azərbaycanın milli parkları, təbiət qoruqları və yasaqlıqları: soraq-biblioqrafik məlumat kitabı", "Azərbaycan ekologiyası: biblioqrafik göstərici", "Naxçıvan Muxtar Respublikası – 100: biblioqrafik göstərici", "Məhəmməd Əmin Rəsulzadə və müstəqil Azərbaycan" adlı metodik vəsait, çoxsaylı kitablar ərsəyə gətirilib, "Məhəmməd Füzuli – 530" adlı tədbir və kitab sərgisi, digər tematik sərgilər, seminarlar təşkil olunub.

AMEA-nın Rəyasət Heyətinin qərarları əsasında 2024-cü il ərzində AMEA-nın 14 həqiqi və müxbir üzvünün şəxsi biblioqrafiyası çap edilib. Hüseyn Hüseynov 2024-cü ildə Mərkəzi Elmi Kitabxananın fəaliyyətində çoxsaylı yeniliklər olduğunu bildirib. O qeyd edib ki, İRBİS 64+ proqramından istifadə etməklə MEK-in fondlarında olan sənədlərin elektron kataloqu yaradılaraq, oxucuların istifadəsinə verilib. Kitabxananın elektron kataloqu və elektron kitabxanasının müasir standartlar səviyyəsinə qaldırılması istiqamətində işlər davam etdirilir. Kitabxana işinin səmərəli qurulmasına, oxuculara xidmət işində keyfiyyət meyarının artmasına təsir etmək məqsədilə burada struktur islahatları aparılıb, iş saatları və oxu zallarından istifadə oxucuların rahatlığı nəzərə alınmaqla müəyyənləşdirilib.

Onu da deyək ki, 2024-cü il iyun ayından etibarən kitabxanada cəmiyyətin mütaliəyə, kitaba olan marağını artırmaq, oxucuları MEK-in fəaliyyəti və zəngin fondları ilə tanış etmək məqsədilə "Açıq qapı günləri" keçirilir. Eyni zamanda, MEK-də kitabxana işinin effektivliyini günün tələbləri səviyyəsinə qaldırmaq məqsədilə Elmlər Akademiyası sistemində Mərkəzi Elmi Kitabxanada ilk dəfə "Könüllülər" layihəsi həyata keçirilib.

Elm məbədində həmçinin "Akademiklər kitabxanası", "İraq–türkman ədəbiyyatı kitabxanası" yaradılıb. Azərbaycanşünaslıq və Milli-Rəqəmsal Yaddaş şöbəsi tərəfindən MEK-ə daxil olan müxtəlif qəzet və jurnallardan məqalələr işlənərək "Sərəncamlar – 2024", "Qərarlar – 2024", "Yaşıl dünya naminə həmrəylik ili", "COP29", adlı yeni rubrikalar açılıb, "AMEA. Prezidentlər" bölməsində adlı rubrika materialları redaktə edilib. Ümumi olaraq müxtəlif mövzularda 5700-dən çox yeni kartoçka proqramdan çıxarılaraq kartotekaya düzülüb, İRBİS 64+ proqramına 16 mindən çox məqalə daxil edilib. 40 minə yaxın kitab tammətnli elektron formatına salınaraq oxucuların ixtiyarına verilib.

İl ərzində əməkdaşların Web of Science və Scopus-da 7, ölkə miqyaslı elmi jurnallarda isə 11 məqaləsi nəşr olunub, 25 beynəlxalq və yerli konfrans və simpoziumda məruzələr edilib, 7 sayda elmi-publisistik məqalə işıq üzü görüb. AMEA üzrə 2024-cü ildə Web of Science və Scopus-da indeksləşən elmi jurnallarda ən çox məqaləsi işıq üzü görən alim isə 7 məqalə ilə kitabxananın direktoru texnika elmləri doktoru, dosent Hüseyn Hüseynov olub.

Hesabatda MEK əməkdaşlarının elmmetrik göstəriciləri də təqdim edilib, kadr potensialı, elmin populyarlaşdırılması istiqamətində atılan addımlar, beynəlxalq əməkdaşlıq, eləcə də kitabxana saytının və sosial şəbəkə hesablarının fəaliyyəti barədə məlumatlar diqqətə çatdırılıb.

Məruzə dinlənildikdən sonra MEK-in 2024-cü il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatı məqbul hesab edilib, əldə olunmuş mühüm nəticələrin AMEA-nın illik hesabatına daxil edilməsi qərara alınıb və müvafiq tapşırıqlar verilib.

*Ə.ƏLİYEV*
*XQ*

# Ankara konservatoriyası ilə əməkdaşlıq

**Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasovla Ankara Dövlət Konservatoriyasının rektoru, professor Mətin Munzurun görüşü olub.**



Əvvəlcə Samir Abbasov konservatoriyada ali musiqi təhsilinin uğurları ilə tanış edilib. Qeyd olunub ki, Hacettepe Universitetinin Ankara Dövlət Konservatoriyası musiqi, teatr və balet sahələrində orta ixtisas və ali təhsil verən, Türkiyə Cümhuriyyətinin tarixində ilk konservatoriyadır.

Tanışlıqdan sonra gələcək əməkdaşlıq məsələləri müzakirə olunub. İşgüzar əlaqələrin qurulması, mütəxəssislər arasında qarşılıqlı təcrübə mübadiləsi, Azərbaycanın opera və balet sahəsində qabaqcıl təcrübəsinin öyrənilməsi, habelə Türkiyə tərəfinin musiqi təhsili sahəsində uğurlu layihələri, nailiyyətlərinin bölüşülməsi, birgə konsertlər, yaradıcılıq görüşləri, sahənin aktual problemlərinə dair seminarların, qarşılıqlı səfərlərinin təşkilinə dair fikir mübadiləsi aparılıb.

Ankara Dövlət Konservatoriyasında çoxfunksiyalı Azərbaycan mədəniyyəti auditoriyasını yaratmaq, qarşılıqlı olaraq bəstəkarlarımızın əsərlərinə müraciət etmək, 2025-ci ildə müsəlman Şərqində ilk operanın müəllifi, dünyaşöhrətli dahi azərbaycanlı bəstəkar Üzeyir Hacibəylinin 140 illiyi münasibətlə birgə ortaq simfonik konsert keçirmək qərara alınıb. Azərbaycan yazarlarının əsərlərinin tamaşaya qoyulmasına, konservatoriyanın kitabxanasına Azərbaycan musiqisinə dair nəşrlərin, bəstəkarlarımızın not əsərlərinin hədiyyə edilməsinə dair razılıq da əldə olunub.

*XQ*

# "Ulduz"un qış sayı

**Azərbaycan Yazıçılar Birliyinin ədəbi-bədii orqanı – "Ulduz" jurnalının yanvar–fevral nömrəsi çap olunub.**



Jurnalın baş redaktoru, şair Qulu Ağsəs bu barədə XQ-yə verdiyi məlumatda bildirib ki, dərginin 2025-ci ildə çap olunan ilk nömrəsi Pərvanə Bayramqızının "Özüylə söhbəti..." və essesiylə açılır. "Şeir vaxtı"nda Gülsada İbrahimli, Qəndab Əliyeva, Əkbər Qoşalı, Günel Ağazadə, Pərvin Əliyeva, Zöhrab Mehdi, Gəray Göyyurd duyğulu misralar çələngi ilə oxucuların görüşünə gəlib.

Qulu Ağsəsin dövlət xadimi, diplomat və şair-dramaturq Hidayət Orucovla "Ayrı söhbət"i "Ulduz" jurnalı ilə "Xalq qəzeti" TV-nin birgə layihəsində təqdim olunub. "Nəsr" bölümündə Anar Adilin "Kloun Muğuş", Sevinc Elsevərin "Gizlənpaç", Günel Mehrinin "Sarmaşıq" hekayəsi verilib. "Tribuna"da Həyat Şəminin "Tam anlamı ilə Anar", Aslanlı Huntürkün "M.T.Sidqinin "Ədəbi-pedaqoji görüşlərində sağlam həyat tərzi problemləri", Zəhra Namazlının "Tarixin kölgəsində bu gün" yazıları yer alıb.

Şəfa Vəli "Ulduz"da "Gənc ürəklər"dən yazıb. "Tərcümə saatı"nda Nazir Rüstəmin çevirməsində Robert Byornsun "İşdə məhəbbət macərası" filmində səslənmiş şeiri təqdim edilib.

"Esseistika" bölümündə "Vətənim sənsən", "Füzuli və Hüqo", "Ana" esseləri ilə Ayna Asimqızı çıxış edib. "Tənqid"də İlahə Səfərzadə "Qəlblərə yol tapan poeziya: Dayandur Sevginin şeirləri əsasında" yazısı qoyulub."Dərgidə kitab"da "XX əsr Danimarka şeiri" Səlim Babullaoğlu və türk şair-tərcüməçi Hüseyin Duyğunun təqdimatında Şimal ölkəsinin yazarları ilk dəfə geniş şəkildə oxuculara təqdim olunur.

Jurnalın "Dərgidə sərgi"sini Tünzalə Ağabalayevanın rəsmləri bəzəyir. Göründüyü kimi, "Ulduz"un növbəti sayı da oxuculara müxtəlif rubrikalarda verilən maraqlı yazılarla həm estetik zövq aşılayır, həm də ətraflı ədəbi-bədii bilgilər verir.

*XQ*

**Yeni kitab seriyası**

# "Azərbaycanın görkəmli şəxsiyyətləri"

**Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanası oxucularına müxtəlif kitabların təqdim edilməsi ilə yanaşı, 2006-cı ildən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından biblioqrafiyaların çapı ilə də məşğuldur.**










Əsasən mədəniyyət və ədəbiyyat sahəsi üzrə ərsəyə gətirilən biblioqrafiyalar geniş oxucu kütləsinin istifadəsinə verilir. Bu fəaliyyət yalnız Azərbaycan ədəbiyyatına deyil, həm də dünya ədəbiyyatına və digər elmi sahələrə aid mənbələri əhatə edir. Mövzu ilə bağlı Azərbaycan Milli Kitabxanasının direktoru – əməkdar mədəniyyət uişçisi, professor Kərim Tahirovla həmsöhbət olduq.

**– Kərim müəllim, biblioqrafiyaların hazırlanmasında əsas məqsəd nədir?**

– Başlıca məram və məqsəd Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafında böyük rolu olmuş görkəmli şəxsiyyətlərin əsərlərini tam şəkildə toplayaraq bir kitab halında çap etməkdir. Bu seriyadan 19 il ərzində 130-a qədər kitab nəşr olunub. 2006-cı ildə çap etdiyimiz ilk kitab Azərbaycanın görkəmli alimi Mir Cəlal Paşayevə aid idi. Biblioqrafiyalarımız çox vaxt yubileyləri qeyd edilən şəxsiyyətləri əhatə edib. Yubileylərin keçirilməsi ilə bağlı Prezident İlham Əliyevin sərəncamları olub və bu sənədlərə əsasən bu işləri həyata keçirmişik. Lakin yubileyi olmayan, ədəbiyyatımızda, mədəniyyətimizdə dərin iz qoymuş digər şəxslərin də biblioqrafiyalarını hazırlamışıq. Buraya şairlərimiz, yazıçılarımız, dramaturqlarımız, musiqişünaslarımız, rəssamlarımız, jurnalistlərimiz, qismən də ayrı-ayrı elm sahələrinə aid tanınmışlarımız daxildir.

**– Məsələn, kimlərin biblioqrafiyaları hazırlanıb?**

– Mir Cəlal Paşayevlə başladığımız biblioqrafiyalarımız ümummilli lider Heydər Əliyev, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundov, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Üzeyr Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Emin Sabitoğlu, Cahangir Cahangirov, Rəşid Behbudov, Tahir Salahov, Teymur Əhmədov, Seyran Səxavət, Vaqif Bəhmənli və digər görkəmli şəxsiyyətlər və ədiblər barəsindədir. Biz biblioqrafiyalara həmin şəxslərin təkcə Azərbaycanda deyil, dünya kitabxanalarında, muzeylərində saxlanılan nadir əsərlərini də daxil etmişik. Bununla bağlı bizim şöbələrin işçiləri gərgin əmək ortaya qoyur. Əgər hansısa görkəmli şəxsiyyət haqqında biblioqrafiya tərtib edirikə, onun həyat və yaradıcılığından tutmuş, barəsində deyilən fikirlərə kimi kitaba daxil edirik. Biblioqrafiyalara ön sözü həmin sahənin görkəmli alimləri yazırlar. Məsələn, ədəbiyyat sahəsidirsə, İsa Həbibbəyli, Nizami Cəfərov kimi akademiklərin ön sözü olur. Biz onlayn resurslarımızdan istifadə edərək biblioqrafiyaları kitabxanamızın saytına da yerləşdiririk, yəni hazırladığımız kitablar təkcə Azərbaycan oxucusu üçün deyil, dünyanın istənilən nöqtəsində hər kəs üçün əlçatan olur. Hətta bizə xarici ölkələrdən biblioqrafiyada mənbə olaraq qeyd edilən hansısa kitabın istənilməsi ilə bağlı xeyli geridönüşlər olur.

**– Əlbəttə, blioqrafiyaların hazırlanması, yenilənməsi müasir elmin inkişafına da töhfələr verir?**

– Elədir. Alimlərimizin, müdafiəçilərimizin tədqiqat aparmaq istədikləri sahə üzrə işlərini xeyli asanlaşdırırıq. Onlar bir kitab əsasında mənbələri asanlıqla əldə edə bilirlər. Bir biblioqrafiyanın tərtib edilməsi təxminən 2 ilə yaxın müddət tələb edir. Hazırladığımız biblioqrafiyaların təqdimatlarının, demək olar, hamısında akademik İsa Həbibbəyli iştirak edib. O, AMEA-nın işçilərinə üzünü tutaraq bildirib ki, Milli Kitabxana sizin işinizi 50–60 faiz asanlaşdırıb. Bütün bunlar kollektivimizin əməyinin nəticəsidir. Kitabxanamızda zəngin arxiv yatır, hər kəsin istifadə etməsinə nail oluruq deyə bu, vacib, zəruri seriyadır.

**– Bu seriyadan ən son olan biblioqrafiyanız kimə həsr edilib?**

– Son biblioqrafiya Azərbaycan mətbuat tarixində müstəsna xidmətləri olmuş alimimiz Şirməmməd Hüseynov barəsindədir.

**– Bəs hazırda hansı biblioqrafiya üzərində iş gedir?**

– Məhəmməd Füzuliyə dair biblioqrafiyanı çapa vermişik. Sual oluna bilər ki, axı Füzuli ili keçən il olub. Biz hansısa şəxsiyyətin yubileyi olanda bilərəkdən ilin sonunu gözləyirik ki, il ərzində onun barəsində toplanan materialları da biblioqrafiyaya da daxil edək.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

# Kinoşünasların görüşü

**Azərbaycan Kinematoqrafçılar İttifaqında kinoşünasların görüşü olub.**



İttifaqdan bildirilib ki, Azərbaycan kinoşünaslığının hazırkı vəziyyəti, problemləri və perspektivləri müzakirə olunub. Görüşdə kino tənqidinin rolunu genişləndirmək, kinomuzun nəzəri bazasını gücləndirmək məqsədilə bir sıra addımların həyata keçirilməsi məqsədəuyğun sayılıb.

*XQ*

Tarix unutmur

# Çexovun ruhu ilə hiyləgər oyunbazlıq





**Bu günlərdə rus ədəbiyyatşünası Vladimir Yermilovun "Anton Pavloviç Çexov 1860 – 1904" kitabını oxudum. Müəllif böyük rus yazıçısı Çexovla onun əməkdaşlıq etdiyi "Novoe vremya" qəzetinin naşiri A.S. Suvorinlə münasibətlərini də araşdırır.**

Hamımız bilirik ki, Çexov sakit təbiətli, əsərlərində təhkimçiliyi, burjuaziyanı qamçılayan, insanın azadlığını hər şeydən üstün tutan böyük rus yazıçılarındandır. Suvorin Çexovun müasiridir, dramaturq və yazıçı kimi fəaliyyət göstərsə də daha çox "Novoe vremya" qəzetinin naşiri, redaktoru kimi xatırlanır. Çexov felyetonlarını bu qəzetdə çap etdirirdi və həmin dövrdə də Suvorinlə aralarında ideya mübarizəsi gedirdi. Yermilov Suvorinin iki ələ oynayan hiyləgər oyunbaz olduğunu və onun xaraktersizliyini peşəkarcasına göstərir və onun maskasını yırtır.

Naşir həm Çexovun felyetonlarını çap edir, həm də onu islah etməyə, ideallarından üz çevirməyə təhrik edirdi. Yermilov yazır ki, Suvorin səmimi yalanın virtuozu idi. O, əvvəllər demokrat jurnalist olsa da, sonralar hakim rejimin nökərinə çevrilir. Lenin də "Karyera" məqaləsində onu "hakim təbəqəyə yaltaqlanan biri" adlandırır.

Burda bir haşiyə çıxaraq qeyd edək ki, çox təəssüf, Leninin qurduğu hökümətdə hakim təbəqəyə yaltaqlanan nökər xislətli tənqidçilər yetişdi. Suvorin məhz onların sələfi idi. Suvorinçilik sovet ədəbi tənqidində zərərli bir tendensiya kimi yayıldı və azad ruhlu yazıçıların başı üzərində Demokl qılıncı kimi asılı qaldı.

Suvorin Çexovun ruhunu ələ keçirmək istəyirdi, amma sona qədər bunu bacarmadı. Radikal tənqidçilər Çexovdan əvvəl Puşkini çızmaqaraçı adlandırmışdılar, Qoqolun əsərlərinə inqilabi məzmun geyindirmişdilər, Tolstoyu dinsiz hesab edirdilər. Çar hököməti Dostoyevskinin sürgünlə gözünün odunu almışdı. Mühacirət etmiş rus yazıçısı V. Nabokov "Rus ədəbiyyatı haqqında mühazirələri"ndə həmin dövrü çox dəqiq xarakterizə edir: "Radikal tənqidçilər despotizmlə mübarizə apararkən, öz despotizmlərini yaratmışdılar. İddiaları, səbəb göstərdikləri, yeritməyə çalışdıqları nəzəriyyələr, sistemin sənətə qarşı basmaqəlib yanaşmasıyla eyni idi.

Yazıçılardan əndirabadi şeylər yerinə, ictimai mesaj verməyi tələb edirdilər; onların baxış bucağına görə bir kitab ancaq insanların rifahına xeyir verirsə dəyərli idi. Onların bu coşğunluğunda dəhşətli bir problem vardı. Səmimiyyətlə, cəsarətlə azadlıq və bərabərliyin tərəfindəydilər, amma sənəti güncəl siyasətin boyunduruğu altına vermək istəyib, özləriylə paradoksa düşürdülər".

Suvorin çar rejiminin axıra qalmış tör-töküntülərindən idi. Əlbəttə, onun Çexovla oyunu məğlubiyyətlə bitdi, çünki Çexovun dühası müqabilində Suvorin çox kiçik görünür. Zaman özü hər şeyi yerbəyer edir və son sözü də o deyir.

Yermilov bu kitabı ötən əsrin 40-cı illərində yazıb. Əsər tərcümə olunmayıb. Bu kitab tam şəkildə bizim dilə çevrilsə, ədəbiyyatımıza böyük xidmət olar. Bu tipli yüzlərlə kitab var ki, hələ də bizim dilə çevrilməyib. Azərbaycan ədəbiyyatının inkişafı üçün bu səpkili kitabların dilimizə çevrilməsi çox vacibdir. Məsələn, bizdə yazıçı–naşir, yazıçı–tənqidçi münasibətləri haqda sanballı araşdırma yoxdur.

Bu kitablar ədəbiyyat tarixinin öyrənilməsi baxımından əvəzsiz mənbə ola bilər. Belə kitabların tərcümə olunması həm də ona görə lazımdır ki, gələcəyin ədəbiyyat araşdırıcıları onlardan örnək olaraq istifadə etsinlər.

***Kənan HACI,***
***yazıçı-publisist***

# ABŞ və Aİ Rusiyaya təzyiqi artırır

**ABŞ dövlət katibi Marko Rubio və Avropa İttifaqının (Aİ) Xarici işlər və təhlükəsizlik siyasəti üzrə Ali nümayəndəsi Kaya Kallas "Ukraynada ədalətli və davamlı sülhə" nail olmaq üçün Rusiyaya "maksimum təzyiqi" davam etdirməyə razılaşıblar. Bu barədə AFP agentliyi xəbər verib. Bildirilib ki, Rubio və Kallas arasında ilk telefon danışığı olub. Hər iki diplomat Rusiya–Ukrayna müharibəsi, Yaxın Şərqdə vəziyyət və Çinin yaratdığı problemlər də daxil olmaqla, qlobal məsələlər üzrə Aİ və ABŞ arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar.**



Söhbət zamanı Kallas deyib ki, Avropa Komissiyası Rusiyadan idxal olunan kənd təsərrüfatı məhsulları və gübrələrə rüsumların artırılmasını təklif edib. Yeni tariflərin Rusiyanın ixrac gəlirlərinə mənfi təsir göstərəcəyi qeyd edilib.

Bu arada Avropa Komissiyası (AK) Rusiya və Belarusdan gətirilən bir sıra kənd təsərrüfatı məhsulları və gübrələrə rüsumların tətbiqi təklifini təsdiqləyib. AK-nin saytında dərc olunmuş bəyanatda deyilir: "Təklifin Aİ Şurası tərəfindən qəbul edilməsindən sonra Rusiyadan idxal edilən bütün kənd təsərrüfatı məhsulları bu tarifə tabe olacaq".

AK vurğulayıb ki, təklifin məqsədi Rusiya və Belarus məhsullarından asılılığı azaltmaqdır: "Bundan əlavə, Aİ tarifləri enerji böhranı zamanı zərər çəkmiş yerli istehsalın artımını dəstəkləyəcək".

Maraqlıdır ki, yeni rüsumlar Rusiyanın Aİ ölkələri ərazisindən üçüncü ölkələrə ixracına təsir etməyəcək. Bu barədə qurumdan bildirilib: "Bütün kənd təsərrüfatı məhsullarının və gübrələrin Rusiya və Belarusdan üçüncü ölkələrə tranziti Aİnin dünyada, xüsusən də inkişaf etməkdə olan ölkələrin ərzaq təhlükəsizliyini təşviq etmək öhdəliyinə uyğun olaraq dəyişməz olaraq qalır və yeni rusumlar onlara tətbiq olunmur".

AK-nin təklifi Avropa Parlamenti və Aİ Şurası tərəfindən təsdiqlənməlidir və bundan sonra qüvvəyə minəcək.

Qeyd edək ki, AK Rusiyadan kənd təsərrüfatı məhsullarına rüsumların tətbiqi ilə bağlı ilkin təklifini 22 mart 2024-cü ildə verib. Bu tədbirlər Rusiya taxıl məhsullarının tədarükünün artması halında Aİ bazarında sabitliyin pozulmasının qarşısını almaq üçün nəzərdə tutulur. AK-nin məlumatına görə, 2023-cü ildə Rusiya Aİ-yə təxminən 1,3 milyard avro dəyərində aqrar məhsullar ixrac edib. "Financial Times" nəşrinin yazdığına görə, 2023-cü ildə Aİnin Rusiyadan taxıl, yağlı bitkilər və onların məhsullarının idxalı 4 milyon ton təşkil edib. Bu, Aİ-də istehlak həcminin 1 faizini təşkil edir. FT həmçinin bildirib ki, Aİ "fermerləri və bəzi Aİ üzv dövlətlərini sakitləşdirmək üçün" Rusiya və Belarus taxılına hər ton üçün 95 avro rüsum tətbiq edib.

Aİ Rusiyanın kənd təsərrüfatı məhsullarına tariflərin tətbiqindən başqa, bu ölkəyə qarşı sanksiyaların müddətini daha 6 ay müddətinə uzadıb. 2014-cü ildə ilk dəfə tətbiq edilən bu iqtisadi tədbirlər 2022-ci ilin fevralında başlayan Rusiya–Ukrayna müharibəsindən sonra əhəmiyyətli dərəcədə genişləndirilib. Sanksiyalara ticarət, maliyyə, enerji, texnologiya və ikili təyinatlı mallar, sənaye, nəqliyyat və qiymətli mallar üzrə məhdudiyyətləri əhatə edən geniş spektrli tədbirlərdən ibarətdir.

Sanksiyalar həmçinin Rusiyadan Aİ-yə dəniz yolu ilə xam neft və neft məhsullarının idxalı və ya transferinə qadağa, bir neçə Rusiya bankının SWIFT sistemindən çıxarılması kimi məsələləri əhatə edir. "Bloomberg" yazır ki, Aİ sanksiyalar paketi çərçivəsində bu ölkənin təxminən 15 bankını SWIFT ödəniş sistemindən ayırmağı planlaşdırır.

Kallasın sözlərinə görə, Rusiyaya qarşı məhdudlaşdırıcı tədbirlər 2025-ci il iyulun 31-dək uzadılıb: "Sanksiyaların uzadılması Moskvanı müharibəni maliyyələşdirmək üçün xeyli gəlirdən məhrum edəcək".

Aİ-nin Rusiyaya qarşı sanksiyalarının qəbulunda Trampın da rolu az olmayıb. Polşanın xarici işlər naziri Radoslav Sikorski deyib: "Mən hesab edirəm ki, biz Trampın rolunu qeyd etməliyik. O, sosial şəbəkələrdə Vladimir Putini kəskin tənqid edib və sanksiyalarla hədələyib".

Sanksiya rejimi artıq Rusiyanı 400 milyard avrodan məhrum edib. Bu vəsaitdən Moskva Ukraynaya qarşı müharibə aparmaq üçün istifadə edə bilərdi. Sanksiyalar nəticəsində bunun qarşısı alınıb.

Bu tədbirlərin görülməsində əsas məqsəd isə Putini danışıqlara məcbur etmək və Ukraynadakı müharibəni bitirməkdir. Tramp onu 100 günə bitirmək niyyətindədir. "The Wall Street Journal"ın yazdığına görə, Tramp Ukrayna və Rusiya üzrə xüsusi nümayəndəsi Keyt Kelloqa Rusiyanın Ukraynaya qarşı müharibəsini 100 gün ərzində dayandırmağı tapşırıb. Jurnalistlər qeyd edirlər ki, Ukraynada müharibənin dayandırılması çətin olacaq.

Bəli, danışıqlar çətin olacaq. Çünki prezident Putin Ukrayna lideri Volodimir Zelenskinin legitimliyinə şübhə ilə yanaşır: "İstənilən şəxslə danışıqlar apara bilərsiniz, lakin qeyri-legitimliyinə görə onun (Zelenskinin) heç nəyə imza atmağa haqqı yoxdur. Əgər o, danışıqlarda iştirak etmək istəsə, mən bu danışıqları aparacaq şəxsləri müəyyən edəcəyəm".

Rusiya prezidenti əlavə edib ki, danışıqlar başlamazdan əvvəl Ukrayna Zelenskinin Rusiya hakimiyyəti ilə hər hansı əlaqəni qadağan edən 2022-ci il oktyabr fərmanını ləğv etməlidir. Onun sözlərinə görə, bunu Putinin qeyri-legitim hesab etdiyi Zelenskinin özü yox, Ali Radanın sədri edə bilər.

Putin Qərb ölkələrini də Ukraynanı müharibəni davam etdirməyə təhrik etməkdə ittiham edib. O iddia edir ki, 2022-ci ilin yazında Rusiya sülh müqaviləsinin imzalanmasına zəmanət verən Avropa liderlərinin tələbi ilə öz qoşunlarını Kiyev yaxınlığından çıxarıb. Lakin Putinin sözlərinə görə, bu vədlər yerinə yetirilməyib və Ukraynanı müharibəni davam etdirməyə razı salıblar.

Qeyd edək ki, Zelenskinin prezidentlik müddəti 2024-cü ilin mayında başa çatıb. Bununla belə, o, müharibə şəraitində dövlət başçısı olaraq qalmaqda davam edir. Rusiya tərəfi bu faktdan istifadə edərək Zelinskinin qeyri-legitimliyi ilə bağlı ittihamlar irəli sürür. Vaxt isə uzanır. Müharibənin nə vaxt sona çatacağı da bilinmir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**bp Xəzər dənizinin Azərbaycan sektorunda Şahdəniz perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişin operatoru kimi elan edir ki, saziş üzrə iş proqramı çərçivəsində Şahdəniz Kompressiya (ŞDK) layihəsi üçün Ətraf Mühitə və Sosial-İqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədinin layihəsi podratçı tərəflər adından hazırlanıb və dərc edilib.**

Sənəddə layihənin tikintisi, quraşdırılması və istismarı fəaliyyətləri ilə əlaqədar ətraf mühitə və sosial-iqtisadi sahəyə ola bilən potensial təsirlər tədqiq edilir və tövsiyə edilən təsirazaltma tədbirləri təsvir edilir. ƏMSSTQ prosesi təklif edilmiş işlərin nəticəsində ətraf mühitə və sosial-iqtisadi sahəyə olan hər hansı mənfi təsirlərin müəyyənləşdirilməsini və minimuma endirilməsini və mümkün olan hallarda, aradan qaldırılmasını təmin etmək məqsədi daşıyır.

ŞDK layihəsi Xəzər dənizinin Azərbaycan sektorunda Şahdəniz Müqavilə Sahəsinin işlənməsinin əvvəlki mərhələlərinin davamıdır. Bu layihə yataqdan aşağı təzyiqli qaz ehtiyatlarının hasil edilməsini və maksimum qazvermə əmsalına nail olunmasını təmin etmək üçün dənizdə kompressor platformasının – ŞDK platformasının və əlaqədar qurğuların – quraşdırılmasından ibarətdir. ŞDK platforması Şahdəniz Bravo (ŞDB) platformasından təxminən 3 km və Şahdəniz Alfa (ŞDA) platformasından təxminən 10 km məsafədə, suyun dərinliyi təqribən 85 m olan sahədə yerləşəcək və ŞDA və ŞDB platformalarında qaz ixrac kompressiyası üçün əsas qurğunun yerləşdiyi obyekt kimi xidmət göstərəcək.

Maraqlı tərəflər ilə məsləhətləşmələrin aparılması ƏMSSTQ prosesinin mühüm komponentidir. Maraqlı tərəflərin dinlənməsi və fikirlərinin sənədləşdirilməsi əsas maraqlı tərəflərin kollektiv fikirlərinin layihə variantında və ƏMSSTQ sənədində əksini tapmasını təmin edir.

ƏMSSTQ sənədinin və Qeyri-Texniki Xülasənin layihə variantları Azərbaycan və ingilis dillərində tam hazırlanıb və aşağıdakı link və ya QR kodu vasitəsilə bp-nin veb-səhifəsindən əldə edilə bilər:

**İngilis dilində: https://www.bp.com/en_az/azerbaijan/home/news/reports/environmental-and-social-documentation/shah-deniz-/Shah-Deniz-Compression-Project.html**

**Azərbaycan dilində: https://www.bp.com/az_az/azerbaijan/home/news/hesabatlar/Etraf-muhit-ve-sosial-tesirlerin-qiymetlendirilmesi-hesabatlari/shah-deniz-/Sahdeniz-kompressiya-layihesi.html**

İctimaiyyətin nəzərdən keçirməsi üçün ŞDK üzrə ƏMSSTQ sənədi, həmçinin, Qeyri-Texniki Xülasəsi 27 yanvar 2025-ci il tarixindən aşağıdakı ünvanlarda yerləşdirilib:

- bp-nin Xəzər Mərkəzi Ofisini qəbul şöbəsi, Neftçilər prospekti 153
- M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası, Xaqani küçəsi 29
- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Elmi Kitabxanası, Hüseyn Cavid küçəsi 31
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası, Azadlıq prospekti 20
- Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bəhram Ağayev küçəsi 100a
- Bakı Ali Neft Məktəbinin Kitabxanası, Kampus, yeni Salyan şossesinin 3-cü kilometri.

ƏMSSTQ sənədinin layihə variantı barədə fikir və rəyləriniz bizim üçün əhəmiyyətlidir. Qeydlərinizi və rəylərinizi:

– doldurulmuş rəy formaları ilə birlikdə elektron məktub ilə esiafeedback@bp.com ünvanına və ya

– doldurulmuş rəy formaları ilə birlikdə poçt ilə AZ1010, Neftçilər prospekti 153, Port Baku, bp Xəzər Mərkəzinə göndərə bilərsiniz.

Siz doldurulmuş rəy formalarını yuxarıda qeyd edilən ictimai yerlərdən istənilən birində də təqdim edə bilərsiniz.

ƏMSSTQ-in açıqlanma müddəti 60 gündür. Bu müddət 27 yanvar 2025-ci il tarixində başlayıb və 4 aprel 2025-ci il tarixində başa çatacaq.

ƏMSSTQ sənədinin layihə variantı barədə fikir və rəylərinizi gözləyirik.

**İngilis dilində** **Azərbaycan dilində**

# Şəhid ailələri və qazilərə xidmətlər genişlənib

**Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir.**




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, həmin sosial dəstək paketi çərçivəsində postmüharibə dövründə şəhid ailələri üzvləri və müharibə veteranları olan 106 min şəxsə 119 min aylıq sosial ödəniş, 24 min 400 şəxsə birdəfəlik ödəmə təyin olunub. Həmin qrupa aid olanların mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 6 min 800 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 567 avtomobil təqdim edilib. Həmçinin şəhid ailələri üzvləri və müharibə iştirakçısı olan 11 min şəxsə 70 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. 2263 müharibə əlili 62 min 900 bərpa vasitəsi, o cümlədən 491 şəxs 607 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub.

Bundan başqa, şəhid ailələri üzvləri və qazi olan 25 min 300 şəxsin məşğulluğu təmin edilib, o cümlədən 12 min 200 nəfər özünüməşğulluq proqramına cəlb olunub.

Ümumilikdə, postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 130 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 369 min xidmət göstərilib.

***Zərifə HÜSEYNOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 20 (30714) 30 yanvar 2025-ci il, cümə axşamı

# Soyuq Arktika da “qaynar qazan”a çevrilir

**“Kurçatov İnstitutu” Milli Araşdırmalar Mərkəzinin prezidenti Mixail Kovalçuk yerli televiziya kanallarından birinə müsahibəsində bildirib ki, “Arktika gələcəyin sınaq meydançasıdır: “Bu gün bizim diqqətimizi Ukrayna və ya Ermənistan ilə yayındırırlar, amma, əslində, əsas poliqon Arktikadır”. Rusiyalı alimin sözlərinə görə, hazırda Arktika uğrunda böyük mübarizə gedir: “Bunu Qrenlandiyada baş verənlər aydın şəkildə nümayiş etdirir. ABŞ bu adanı Kanada ilə birlikdə alsa, güc baxımından bizimlə bərabər olacaqlar”. Doğrudanmı, Arktika gələcəyin mübarizə meydanına çevriləcək? Bu ərazinin hansı özəllikləri var?**



Arktika və onun resursları uğrunda geosiyasi mübarizə mövzusu yeni deyil. Bu mövzu ətrafında ciddi və ətraflı müzakirələr ilk dəfə 2000-ci illərin ortalarında gündəmə gətirilmişdi. Ancaq ABŞ Prezidenti Donald Trampın Qrenlandiya üzərində nəzarətlə bağlı son bəyanatı dünyanın aparıcı güclərinin Arktikaya marağını daha da artırdı. Hələ 2019-cu ilin avqustunda cənab Tramp Danimarkaya Qrenlandiya üçün 600 milyon dollar təklif etmişdi. Bəs Birləşmiş Ştatların qütb ayıları və tamamilə yaşayış üçün yararsız əraziyə belə maraq göstərməyinin əsasında hansı faktorlar yatır? Arktika yaşayış üçün yararsız yer olsa da, nəhəng karbohidrogen yataqlarına, nadir metallara malikdir. Ən əsası, Arktika yaxın illərdə strateji dəniz yoluna çevriləcək.

BMT-nin məlumatına görə, Arktikada neft ehtiyatları 100 milyard tondan artıqdır ki, bu da Rusiyanın bütün ehtiyatlarından 2,4 dəfə çoxdur. Mütəxəssislərin fikrincə, 2040-cı ilə qədər qlobal istiləşmə ilə əlaqədar Şimal Buzlu Okeanın əhəmiyyətli hissəsi buzdan təmizlənəcək ki, bu da onun dibindən təbii sərvətlərin çıxarılmasını əhəmiyyətli dərəcədə asanlaşdıracaq, daşınma xərclərini azaldacaq, lakin, eyni zamanda, geostrateji rəqabətin yeni istiqamətini də yaradacaq. Proqnozlara görə, Arktikanın sərvətlərinə sahib olmaq hüququ uğrunda ciddi siyasi mübarizə başlayacaq və bu, birbaşa qarşıdurmaya çevrilmək təhlükəsi yaradır.

2008-ci ildə ABŞ Geoloji Xidməti “Arktika Resurslarının Qiymətləndirilməsi: Arktika Dairəsinin Şimalında aşkar edilməmiş neft və qaz ehtiyatlarının qiymətləndirilməsi” adlı öz hesabatını dərc etmişdi. Amerikalı ekspertlərin hesablamalarına görə, regionda 90 milyard barel neft, 19 trilyon kubmetr qaz və 44 milyard barel qaz kondensatı ola bilər. Bu, planetdəki bütün neft və qaz ehtiyatlarının demək olar ki, dörddə birini təşkil edir. Ancaq ərazidə neftin hasilatı çox baha başa gəlir. Hesablamara görə, Arktikada bir barel neftin hasilatı təxminən 80–120 dollar təşkil edir. Daimi buzlaqda qazma çətinliyinə görə hasilat belə bahalıdır. Müqayisə üçün qeyd edək ki, Səudiyyə Ərəbistanında bu rəqəm təxminən 20 dollardır. Amma qlobal istiləşmə davam edərsə, qazma işləri asanlaşacaq, xərclər azalacaq və ənənəvi neftin mürəkkəb yataqları ilə müqayisə oluna biləcək.

Bu gün artıq yeddi dövlət Arktika şelfinə öz ərazi iddialarını irəli sürür: ABŞ, Kanada, Rusiya, Danimarka, İsveç, Norveç və Finlandiya. Təbii ki, hazırda bir çox ölkələr Arktikada artan geosiyasi maraqlar nümayiş etdirir, belə ki, region resursların çıxarılması və dəniz nəqliyyatı üçün yeni imkanlar açır. Onu da qeyd etmək lazımdır ki, ABŞ-ın Arktika ərazilərindəki ambisiyalarını təsdiqləyən ilk addımlar Co Baydenin dövründə atılmışdı. Birləşmiş Ştatlar şelfdə (200 millik xüsusi iqtisadi maraqlar zonasından kənarda) yerləşən Arktika ərazilərini genişləndirmişdi. Buna görə də, bu məsələdə cənab Tramp, sadəcə olaraq ABŞ siyasətini davam etdirir. Ona görə də yaxın illərdə Arktikanın ciddi qarşıdurma meydanına çevriləcəyi barədə səsləndirilən proqnozlar qeyri-ciddi qəbul olunmur.

Doğrudanmı, Şimal dəniz yolunun beynəlxalq nəqliyyat arteriyası kimi perspektivləri böyükdür? Mütəxəssislərin sözlərinə görə, bu yol unikal nəqliyyat dəhlizidir və Asiya–Sakit Okean regionu ölkələrinə səyahət vaxtını demək olar ki, yarıya endirməyə imkan verir. Təsəvvür edin: gəmilərin Murmanskdan Yaponiyanın Yokohama limanına qədər getdiyi məsafə Süveyş kanalı ilə 12 840 dəniz milidir, Şimal dəniz yolu boyunca isə bu, cəmi 5770-dir. İqtisadi fərq nəzərə çarpır. Yükdaşımaları üçün beynəlxalq arteriya kimi onun üstünlüyü danılmazdır. Eyni zamanda, Şimal dəniz marşrutu Arktika regionlarının inkişafı üçün də son dərəcə vacibdir.

Mütəxəssislərin sözlərinə görə, cənab Trampın Qrenlandiya ilə bağlı son bəyanatları ABŞ-ın Arktikada mövcudluğunu artırmaq istəyi ilə əlaqədardır. Arktika, şübhəsiz ki, bəşəriyyətin gələcəyidir – resurslar, ekologiya, nəqliyyat və nəhayət, geosiyasət baxımından strateji əhəmiyyətli ərazidir. Hətta bəzi politoloqlar deyirlər ki, Arktikaya nəzarət edən bütün dünyanı idarə edəcək. ABŞ yurisdiksiyasının hipotetik olaraq Kanada və Danimarkaya aid olan Qrenlandiyaya uzadılması təbii olaraq bu vəziyyəti dəyişəcək. Belə olan halda ABŞ Arktikada ya birinci, ya da ikinci ölkə olacaq. Buna görə də, cənab Trampın bəyanatları sırf geosiyasət kimi qiymətləndirilir.

Ümumiyyətlə, ABŞ İkinci Dünya müharibəsindən sonra Qrenlandiyaya daha yaxından baxmağa başlamışdı. 1946-cı ildə prezident Harri Trumenin administrasiyası Kopenhagenə adanı ABŞ-a 100 milyon dollara satmağı təklif etmişdi. Ancaq bugünkü pulla 1,3 milyard dollara bərabər olan təklifi danimarkalılar geri çevirmişdilər. 1953-cü ildə Qrenlandiyanın statusu dəyişdirildi və ərazi Danimarkanın ayrılmaz hissəsi elan olundu. Amma indi geosiyasi vəziyyət sürətlə dəyişir. ABŞ Arktikada şəriksiz lider ölkə olmaq üçün bütün imkanlarını işə salıb. Şimal ölkələrin də Birləşmiş Ştatların güclü təzyiqinə tab gətirəcəklərini yaxın zamanlarda müşahidə edəcəyik. Amma Norveç, Danimarka və İsveç Arktikada mövqelərini gücləndirmək üçün ciddi addımlar atmağı düşünürlər. Məsələn, Danimarka hökuməti, Farer adaları və Qrenlandiya Arktika və Şimali Atlantikada mövcudluğunu gücləndirmək üçün 14,6 milyard kron (2 milyard dollar) ayıracaq. Vəsait üç gəmi, PUA və kəşfiyyat potensialının artırılmasına yönəldiləcək. Bu isə belə deməyə əsas verir ki, Şimal ölkələri malik olduqlarını qoruyacaqlar.

Bir sözlə, Arktika bəşəriyyətin qiymətli sərvəti, biosfer ehtiyatı və gələcək sivilizasiyanın təbii bazasının əsas hissəsidir. Buna görə də, bu gün hətta Arktikadan uzaqda yerləşən Çin, Hindistan, Yaponiya, Cənubi Koreya və başqaları da əraziyə əhəmiyyətli maraq göstərirlər. Bu isə o deməkdir ki, bəşəriyyət gec-tez Şimal Buzlu Okeanını “Arktika Fars körfəzinə” çevirməyə çox yaxındır.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

İdman

## Tofiq Bəhramovun xatirəsi anılıb

**AFFA rəhbərliyi və futbol ictimaiyyətinin nümayəndələri Tofiq Bəhramovun məzarını ziyarət ediblər.**



Bu barədə milli assosiasiyanın mətbuat xidməti məlumat yayıb.

Qeyd edək ki, yanvarın 29-u dünya şöhrətli azərbaycanlı hakim Tofiq Bəhramovun anadan olmasının 100 illik yubileyidir.

Tofiq Bəhramov “Qızıl fit” və “Qızıl ilahə” mükafatlarının sahibi, dünya futbol tarixində heykəli olan və adı stadiona verilən ilk hakimdir.

1966-cı ildə İngiltərədə keçirilən 1966–FİFA Dünya Kubokunun finalında Tofiq Bəhramovun İngiltərə milli futbol komandasının lehinə verdiyi obyektiv qərar Uembli stadionuna toplaşmış 98 min tamaşaçının yaddaşına həkk olunub.

Tofiq Bəhramov 1993-cü il martın 26-da dünyasını dəyişib.

## Gənc basketbolçularımızın Avropa rəqibləri

**Azərbaycanın yeniyetmələrdən ibarət basketbol millilərinin Avropa çempionatının qrup mərhələsindəki rəqibləri bəlli olub.**



25 iyul – 3 avqustda Rumıniyanın Piteşti şəhərində 18 yaşlı oğlanlar arasında keçiriləcək qitə birinciliyinin B divizionunda millimiz B qrupunda mübarizə aparacaq. Komandamızın rəqibləri Rumıniya, Gürcüstan, Danimarka, Ukrayna və Portuqaliya yığmaları olacaq. İyulun 4–13-də bu yaş qrupu üzrə qızlardan millimiz Litvanın Alitus və Vilnüs şəhərlərində B divizionunun B qrupunda Bosniya və Herseqovina, Litva, Kosovo, Ukrayna və İslandiya yığmaları ilə üz-üzə gələcək.

İyulun 5–13-də Albaniyanın paytaxtı Tiranada 16 yaşlı oğlanlar arasında keçiriləcək çempionatın C divizionunda yığmamız B qrupunda Lüksemburq, Andorra, San Marino və Cəbəllütariq yığmaları ilə mübarizə aparacaq. Avqustun 20-29-da isə qızlardan ibarət U-16 millimiz Türkiyənin İstanbul şəhərində təşkil ediləcək çempionatın B divizionunun B qrupunda Slovakiya, İsveç, Niderland və Lüksemburq seçmələri ilə görüşəcək.

*LQ URBANOVA*
*XQ*

Sağlamlıq

# Bitki çaylarının şəfası və cəfası

**Bəzən artıq içilən bitki çayları şəfa əvəzinə insan orqanizmi üçün böyük təhlükə yaradır. Məsələn, adaçayını çox içmək ürəkdə döyüntü, miqren, çobanyastığı çayını çox içmək allergiya yarada bilər.**



Qaraciyərin fəaliyyətində ciddi problemlər zamanı bir çox bitkilərdən və bitki çaylarından ümumiyyətlə istifadə etmək olmaz. Qarğıdalı saçaqlarından çay orqanizmi təmizləyir, arıqlamağa kömək edir. Lakin böyrək daşı xəstəliyi zamanı güclü sidikqovucu təsirə malik olan bu çay daşların tərpənməsinə, sidik kanalına düşməsinə və kəskin sancılara səbəb ola bilər.

Hamiləliyin ilk 3 ayında bitki çaylarından istifadə etmək tövsiyə edilmir. Jenşen, exinaseya, dəmrovotu, dazıotu və bəzi digər bitkilər də hamiləlik zamanı təhlükəli sayılır. Bütün bunları nəzərə alaraq xroniki xəstəliyi olanlar, hamilə qadınlar, süd verən analar həkim məsləhəti olmadan bu çaylardan istifadə etməməlidir.

Uşaqlara bitki çaylarını verdikdən əvvəl mütləq həkimlə məsləhətləşmək lazımdır.

Bəzi bitki çayları dərmanların tərkibinə birbaşa təsir edə bilir. Qışda razyana, nanə, adaçayı, gülxətmi, yaşıl çay, itburnu, zəncəfil, zəfəran çaylarını dəmləyib içmək olar. Bu çaylar immunteti artırır, bədənimizi bakteriyaların təsirindən qoruyaraq, xəstələnməyimizin qarşısını alır. Bitki çaylarının gündəlik istifadəsi növünə və hər fərdə görə dəyişir.

Fitoterapevtlər qara çay əvəzinə yaşıl çayın daha faydalı olduğunu deyirlər.

*Z.HÜSEYNLİ*
*XQ*

Hava

# Bu gün də yağmursuz və dumanlı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 30-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gündüz bəzi şəhərətrafı ərazilərdə az çiskinli olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək. Gecə 4-7° , gündüz 8-12° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 773 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən, yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 7-12° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

*Q.QASIMOV*
*X Q*

# Kulinarlar yubileyə hazırlaşırlar

**“Xanədan” etno-restoranında Azərbaycan Milli Kulinariya Assosiasiyasının toplantısı keçirilib.**



Azərbaycan Milli Kulinariya Assosiasiyasının və TÜRKSOY-un “Türk Dünyası Mətbəx Kültürü Elmi və Sənətləri Birliyi”-nin prezidenti Tahir Əmiraslanov qurumun 2024-cü ildə gördüyü işlərlə bağlı geniş məlumat verib. İştirakçılar, həmçinin Assosiasiyanın 40 illik yubileyi ilə əlaqədar və 2025-ci il üçün nəzərdə tutulmuş tədbirlər planı haqqında məlumatlandırılıblar.

Peşəkar Qənnadıçılar İctimai Birliyi, Qərbi Azərbaycan İcması, media nümayəndələri və digər ictimai təşkilatlar assosiasiya ilə fəal əməkdaşlığa görə “Təşəkkürnamə”lərlə təltif olunublar. Mükafatlandırılanlar arasında “Xalq qəzeti”nin müxbiri Fidan Salmanova da var.

Toplantıda Azərbaycan milli mətbəxinə aid yemək və şirniyyat növlərinin Ermənistanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin portalında ermənilərin qeyri-maddi mədəni irsi və erməni-yezidi xörəkləri kimi təqdim olunmasına qarşı bəyannamə qəbul edilib.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3055
SİFARİŞ 185
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00